RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 255 (10000) 3 dekabr 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# 10.000-Cİ NÖMRƏ




Hər bir qəzetin özü üçün müəyyən etdiyi hədəflər, qarşısında qoyduğu vəzifələr, habelə işıqlandırmalı olduğu mövzuların və məsələlərin "sanbal yükü" bir sıra parametrlərə təsir göstərir.

"Azərbaycan" qəzeti də yaranışından bu günədək qarşısına qoyulan tələblərə cavab verməyə çalışıb və daim buna uyğun yaradıcı kollektivi formalaşıb.

Rəsmi dövlət qəzeti statusu daşıdığından "Azərbaycan"da səsləndirilən hər bir fikir, yanaşma, mövqe hökmən dövlətin siyasəti ilə üst-üstə düşməlidir. "Fikir azadlığı", "fikir plüralizmi", "sərbəst düşüncə" və s. kimi demokratik qayda və prinsiplərə hörmətlə yanaşsa da, "Azərbaycan" üçün iki və ya çoxmövqelilik tamamilə yaddır.

Dövlətin qəbul etdiyi qərarlar, dövlət başçısının fərmanı, sərəncamı və tapşırıqları "Azərbaycan"da müzakirə edilmir, yalnız təbliğ olunur, oxucuya çatdırılır!

Yeri gəlmişkən, jurnalistikamız üçün "sirr kimi" görünən bir məqama da toxunmaq istərdik.

"Azərbaycan" qəzetində faktların təqdimi, şərhi, məsələyə yanaşmada xüsusilik, habelə materialların tərtibi, hansı səhifədə, hətta səhifənin harasında yerləşdirilməsi, ardıcıllığı və dizaynı ilə bağlı çox ciddi qayda və prinsiplər mövcuddur. Bunları bir yerə toplayıb sistemə salsan və "ümumi qaydalar" formasında tərtib etsən, heç qəzetin bir nömrəsinə belə sığışmaz! Lakin həmin qayda və prinsiplər heç bir jurnalistika nəzəriyyəsində yazılmayıb, jurnalistikaya dair heç bir dərsliyə düşməyib.

Deməli, bu qayda və prinsiplər heç bir universitetin jurnalistika fakültəsi və şöbələrində tədris edilmir, öyrənilmir.

Bunların böyük əksəriyyəti Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib, "yazılmamış qanun" səviyyəsinə yüksəlib!

Ulu Öndər həm də biz jurnalistlərin yaxın dostu idi, mətbuatla daim təmas qururdu. Bütün görüşlərində, nitq, məruzə və çıxışlarında daim mətbuat işçilərini nəzərə alırdı.

❖ ❖ ❖

Cümhuriyyət dövründə "Azərbaycan" qəzetinin (Azərbaycan və rus dili variantlarının) dörd redaktoru olub. Nömrələr üzrə redaktorlar belə paylaşıb; 6-cı nömrədən "Azərbaycan", 5-ci nömrədən isə rus dilindəki "Azərbaycan"ın redaktorları Ceyhun bəy Hacıbəyli və Şəfi bəy Rüstəmbəyli, 50-ci nömrədə müdir göstərilmir, 51-ci nömrədən 1919-cu ilin 16 yanvarında çıxmış 89-cu nömrəyə qədər müdir və baş mühərrir Ceyhun bəy Hacıbəyli, 89-cu nömrədən 4 iyul 1919-cu il tarixli 216-cı nömrəyə qədər müvəqqəti müdir Üzeyir bəy Hacıbəyli, 4 iyul 216-cı nömrədən 1 sentyabr 265-ci nömrəyə qədər müvəqqəti müdir Xəlil İbrahim, 1 sentyabr 265-ci nömrədən 31 dekabr 1919-cu il tarixli 358-ci nömrəyə və 1 yanvardan 27 aprel 1920-ci il tarixli 85-ci nömrə də daxil olmaqla müdir Üzeyir bəy Hacıbəyli olmuşdur.

"Azərbaycan"ın ana dilində sonuncu nömrəsi 27 aprel 1920-ci ildə, rus dili variantının son nömrəsi isə 28 aprel 1920-ci ildə çıxdı.

Nahaq qan tökülməsinə, günahsız insanların ölümünə yol verməmək üçün Milli Şura hakimiyyətin könüllü şəkildə XI Qızıl Orduya təhvil verilməsi barədə qərar qəbul etdi.

Beləliklə, Azərbaycanın dövlət müstəqilliyi süquta uğradı, "Azərbaycan" qəzetinin nəşri dayandırıldı.

5

## Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında əməkdaşlıq geniş gündəliyə malikdir

### Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyana



Əlahəzrət!

Əziz Qardaşım!

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün qardaş xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Sizin qətiyyətli liderliyiniz altında ölkədə aparılan irimiqyaslı quruculuq işlərini, möhtəşəm və nümunəvi inkişafı görməkdən böyük sevinc duyuruq. Bütün bunlar Sizin çoxşaxəli fəaliyyətinizin, müdrik rəhbərliyinizin, Vətənə və xalqa yorulmadan göstərdiyiniz xidmətin bəhrəsidir.

Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında əlaqələr xalqlarımız arasında qardaşlığa, dostluğa, qarşılıqlı etimada, anlaşmaya və dəstəyə əsaslanır. Ötən dövr ərzində bu möhkəm təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimizin yüksələn xətt üzrə inkişaf edərək keyfiyyətcə yeni səviyyəyə çatması məmnunluq doğurur. Şübhəsiz ki, ali səviyyəli müntəzəm qarşılıqlı səfərlər, görüşlər, sıx əməkdaşlığımız bu münasibətlərin daha sürətlə inkişafına və möhkəmlənməsinə şərait yaradır.

Sentyabr ayında Sizin Azərbaycana rəsmi səfəriniz ikitərəfli əlaqələrimizin inkişafına yeni təkan vermişdir. Səfər çərçivəsində imzalanmış bir sıra sənədlər, xüsusilə də "Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə" dövlətlərarası əlaqələrimizi daha yüksək pilləyə qaldırmış, əməkdaşlığımızın ənənəvi sahələri ilə yanaşı, yeni istiqamətlər üzrə də birgə fəaliyyətimizi genişləndirmişdir. Eyni zamanda səfər zamanı işğaldan azad olunmuş Qarabağ regionunu ziyarət etməyiniz xüsusi rəmzi məna daşıyır və biz bunu qardaşlığımızın və həmrəyliyimizin bariz nümunəsi olaraq dəyərləndiririk.

Hazırda Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında əməkdaşlıq geniş gündəliyə malikdir. İqtisadi-ticari, neft-qaz, bərpaolunan enerji, investisiya, rəqəmsallaşdırma və digər sahələrdə səmərəli birgə fəaliyyətimiz uğurla inkişaf edir.

Əminəm ki, ölkələrimizin və xalqlarımızın rifahına xidmət edəcək əməkdaşlığımızın dərinləşdirilməsi və şaxələndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da ardıcıl olaraq və uğurla davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, Birləşmiş Ərəb Əmirliklərinin qardaş xalqına daim firavanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 noyabr 2025-ci il*

## Şanlı dövrün sənədli tarixi




"Azərbaycan"ın fəaliyyət hədəfi də onun adında cəmləşib. Qədim və doğma torpağının rəsmi səsi və sözü məsuliyyətini daşımaq bir qəzet üçün çox böyük və müqəddəs bir işdir. Müstəqilliyin ən əhəmiyyətli göstəricilərindən biri onun söz demək, başqaları arasında səsini eşitdirmək haqqıdır. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurulanda bu missiya üçün təsis edilən rəsmi mətbuat orqanı "Azərbaycan" qəzeti oldu.

"Azərbaycan" böyük bir ictimai tribuna oldu. Xalq Cümhuriyyətinin varlığı dövründə bu mətbuat orqanı da dövlətin taleyini yaşadı. O zaman xeyli qəzet və jurnal fəaliyyətə başlasa da, "Azərbaycan" onlardan fərqlənirdi. Yeni olan bu nəşr məhz müstəqil cümhuriyyətin yaranması ilə meydana çıxmışdı, onun səsi və sözü idi. Digər mühüm fərq "Azərbaycan" qəzetinin yeni dövlətin parlamentinin rəsmi mətbu orqanı olması idi.

Qəzetin 1918-ci il 7 dekabr tarixli 58-ci sayında Üzeyir bəy Hacıbəyli "Tarixi günümüz" məqaləsində yazırdı: "Bu o gündür ki, Azərbaycan türklərinin Milli Məclisi, Milli Şurası açılıb. Azərbaycan təkmil bir hökumət şəklinə girir. Yüz-yüz əlli sənə bundan əvvəl müxtəlif xanlıqlardan ibarət olan Azərbaycan torpağının rus istilasından qazandığı bir mənfəət o oldu ki, bu torpaq üzərində qurulmuş olan saxta və əməli hüquqları silinib-süpürülmüş müttəhid və vəsi bir ərazi şəklinə girdi və bu gün xilas olub da iki milyon mütəcavüz nüfus ilə Azərbaycan Xalq Cümhuriyyəti namını daşımağa kəsbi-ləyaqət etdi.

6-7

## Unudulmayan tarixlə gələcəyə doğru...




Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyəti dövründə müstəqil və demokratik mətbuat mühiti yaratmağa müvəffəq oldu. Həmin illərdə ölkədə 100-ə yaxın müxtəlif adda qəzet və jurnal işıq üzü gördü. Cümhuriyyət dövrü mətbuatı yalnız say deyil, eyni zamanda keyfiyyət baxımından da diqqətçəkicidir. Onların arasında Azərbaycan Xalq Cümhuriyyətinin ən yaxın məslək, ideya yoldaşı, dövlətin cəfakeş və düzgün təbliğatçısı "Azərbaycan" qəzeti özünəməxsus, əhəmiyyətli yer tutdu.

"Azərbaycan"ın ilk sayı Milli Ordu və Qafqaz İslam Ordusunun Bakı şəhərini daşnak-bolşevik birləşmələrinin işğalından azad etdikləri bayram əhvali-ruhiyyəli bir gündə - 1918-ci il sentyabrın 15-də Gəncə qubernatorunun mətbəəsində çap edildi. İki səhifəsi Azərbaycan, iki səhifəsi isə rus dilində olan dördsəhifəlik qəzet oxucuların görüşünə sevinclə gəldi.

Ceyhun bəy Hacıbəylinin və Şəfi bəy Rüstəmbəylinin redaktorluğu ilə fəaliyyət göstərən, Üzeyir bəy Hacıbəyli, Məhəmməd Əmin Rəsulzadə, Xəlil İbrahim, Fərhad Ağazadə, Adilxan Ziyadxan, Əliabbas Müznib, Şəfiqə Əfəndizadənin, Əhməd Cavad, Cəfər Cabbarlı və başqa millət sevdalı vətənpərvərlərin yazılarının dərc olunduğu "Azərbaycan" qısa müddətdə milli problemlərin səsləndirildiyi möhtəşəm tribunaya çevrildi.

6-7

## Azərbaycan Laos ilə əlaqələrin genişlənməsinə xüsusi önəm verir



### Laos Xalq Demokratik Respublikasının Prezidenti zati-aliləri cənab Thonqlun Sisulitə

Hörmətli cənab Prezident!

Laos Xalq Demokratik Respublikasının yaranmasının 50-ci ildönümü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan Laos ilə əlaqələrin genişlənməsinə, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə əməkdaşlığın yeni məzmunla zənginləşməsinə xüsusi önəm verir.

Əminəm ki, ölkələrimiz arasında dostluq münasibətlərini möhkəmləndirmək, qarşılıqlı faydalı əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 noyabr 2025-ci il*

# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 146-cı kitabı çapdan çıxıb




"Yaşıl gündəliy"imiz çox genişdir. 2030-cu ilə qədər imzalanmış investisiya müqavilələri əsasında biz ən azı 6 qiqavatlıq "yaşıl enerji"ni, o cümlədən günəş, külək və su elektrik enerjisini istehsal edəcəyik. Su-elektrik enerjisi Qarabağ və Şərqi Zəngəzurda əsas yer tutur. Biz ümumi 280 meqavat gücündə 30 kiçik su-elektrik stansiyasını artıq istismara vermişik. Beləliklə, "yaşıl gündəliy"imiz həqiqətən, çox genişdir. Mənim mesajım, ev sahibi olan Azərbaycanın mesajı ondan ibarət idi ki, həmin məsələyə realist və praqmatik yanaşmalıyıq. Hamımız anlayırıq ki, biz planeti qorumalıyıq. Lakin ətraf mühit böhranına ən çox rəvac verənlər, yəqin ki, bu yükü öz üzərinə götürməlidirlər".

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin çapdan yeni çıxmış 146-cı kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2025-ci il iyulun 19-da Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşdə ona ünvanlanan COP29-un irsini necə görməsi, təəssüratlarını bölüşməsi barədə sualı cavablandırarkən söyləyib. Dövlətimizin başçısının həmin forumun iştirakçıları ilə görüşünə aid materiallar, dünyanın müxtəlif media qurumlarını təmsil edən jurnalistlərin suallarına verdiyi cavablar 146-cı kitabda yer alıb. Ümumiyyətlə, çoxcildliyin bu kitabında toplanmış materiallar 2025-ci ilin iyun-iyul aylarını əhatə edir.

Bu nəşrə Prezident İlham Əliyevin iyun ayında Türkiyəyə işgüzar səfərinə, Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin açılışında iştirakına dair informasiya, həmin tədbirdə çıxışının mətni də daxil edilib.

Oxucular yeni kitabda Prezidentin iyun ayında Yevlax rayonuna səfəri, Olimpiya İdman Kompleksində, Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral yolunun Yevlax şəhərindən keçən hissəsində görülən işlərlə tanışlığı, "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Yevlax" qovşaq yarımstansiyasının, Regional Təlim-Tədris və Laboratoriya Mərkəzinin, "Azərişıq" ASC-nin Mərkəzi Aran Regional SCADA İdarəetmə Mərkəzinin, Yevlax pilot aqroparkının açılış mərasimlərində iştirakı haqqında materiallarla tanış ola bilərlər. Prezident iyun ayında Goranboy rayonunda "Konstralab Induastries" QSC-nin tikinti materialları müəssisəsinin açılış mərasimində iştirak edib. Dövlətimizin başçısı Mingəçevirdə isə İtaliyanın şirkətlər və "Made in Italy" naziri Adolfo Ursonun başçılıq etdiyi nümayəndə heyəti, Çinin "Dongfang Electric International Corporation" şirkətinin İdarə Heyətinin sədri Çen Qianq ilə görüşüb, "Azərbaycan" İstilik-Elektrik Stansiyasının ərazisində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib və "8 Noyabr" Elektrik Stansiyasının açılış mərasimində çıxış edib. Bütün bunlar haqqında məlumatlar 146-cı kitabda verilib.

Çoxcildliyin bu kitabında iyulun 2-də Prezident İlham Əliyevin Azərbaycana dövlət səfərinə gəlmiş Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə görüşü, liderlərin Bakıda "Özbəkistan" parkının təməlini qoymaları, Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın 2-ci iclasında iştirak etmələri, iki dövlət arasında imzalanmış sənədlərin mübadiləsi mərasimi haqqında məlumatlar, prezidentlərin birgə mətbuata bəyanatlarla çıxışlarının mətnləri, dövlət başçılarının Özbəkistanın Azərbaycandakı səfirliyinin yeni binasının açılış mərasimində iştirakı, Xəzər dənizinin sahilində "Sea Breeze" istirahət mərkəzini ziyarət etmələri haqqında informasiyalar yer alıb. Prezident İlham Əliyev iyulun 3-də Qarabağ bölgəsinə səfər edib, Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin təməlini qoyub, Zəfər parkında görülən tikinti işləri ilə tanış olub, Xankəndidə Türkmənistan Nazirlər Kabinetinin Sədr müavini, xarici işlər naziri Rəşid Meredov ilə görüşüb. Dövlətimizin başçısı həmçinin "Xankəndi" Biznes Mərkəzinin, Xankəndi Konqres Mərkəzinin açılış mərasimlərində iştirak edib, Xankəndi-Şuşa kanat yolunun inşası üçün seçilmiş əraziyə baxıb. İyulun 3-də Azərbaycan və Özbəkistan prezidentləri Xankəndi şəhərində Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan "Business Tex JV" tikiş fabrikinin fəaliyyəti ilə də tanış olublar. Bütün bunlar haqqında informasiyalar yeni kitabda toplanıb.

İyulun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam rayonunun Xıdırlı kəndinin birinci mərhələsinin açılış mərasimində iştirak ediblər. İyulun 4-də isə dövlətimizin başçısı Xankəndidə Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabirin başçılıq etdiyi nümayəndə heyəti, Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif, İran Prezidenti Məsud Pezeşkian, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüş görüşüb, İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşündə çıxış edib. Bütün bunlar haqqında informasiyalar 146-cı kitabda verilib.

Yeni nəşrdə Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatının ailə məsələləri və sosial siyasət sahəsinə məsul nazirlərinin və qurum rəhbərlərinin "Müasir cəmiyyətdə qadının rolu: dayanıqlı inkişaf və ənənələr" mövzusunda ikinci iclasının, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin onkoloqlarının Birinci Konqresinin, "Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar" mövzusunda beynəlxalq konfransın, "Qanunun aliliyinin gücləndirilməsi: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu" mövzusunda Ombudsmanların Beynəlxalq Simpoziumunun və digər beynəlxalq tədbirlərin iştirakçılarına müraciətlərinin mətnləri də verilib.

Çoxcildliyin buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur.

Bu cildin hazırlanmasında da Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.




# Sabitlik və təhlükəsizlik adası

## Beynəlxalq birlik Azərbaycanı həm də Qafqazın sülh qarantı hesab edir

Beş il öncə İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni tarixi-siyasi reallıq Azərbaycanın regional mövqeyinin möhkəmləndirilməsini və beynəlxalq münasibətlər sistemindəki rolunun daha da artmasını şərtləndirdi.

Bu gün isə Azərbaycan regionda və beynəlxalq aləmdə yüksələn nüfuzu ilə seçilir. Bu nüfuz yalnız coğrafi mövqeyindən və təbii resurslarından qaynaqlanmır - həm də dövlətin apardığı uğurlu daxili və xarici siyasətin nəticəsidir. Azərbaycanın beynəlxalq aləmdə artan rolu müxtəlif sahələrdə özünü göstərir: enerji təhlükəsizliyində, mədəni diplomatiyada, multikulturalizm sahəsində, nəqliyyat-logistika layihələrinin icrasında və beynəlxalq tədbirlərə evsahibliyi etməsində və sairə.

Artıq 2025-ci ilə yekun vurmaqdayıq. Ötən il olduğu kimi, bu il də Azərbaycan dünyanın ən sabit, ən təhlükəsiz ölkələrindən biri olduğunu təsdiqləyir.

Ümumiyyətlə, son illərdə Cənubi Qafqazın geosiyasi mənzərəsində ən çox diqqətçəkən ölkələrdən biri Azərbaycandır. Kiçik, amma strateji baxımdan mühüm mövqedə yerləşən ölkəmiz həm regional, həm də beynəlxalq miqyasda sabitlik, təhlükəsizlik və inkişaf baxımından əhəmiyyətli rol oynamaqdadır. "Azərbaycan sabitlik adasıdır" ifadəsi sadəcə ölkənin cari vəziyyətini deyil, həm də onun regional və qlobal miqyasda stabil və sülhsevər bir dövlət olma mübarizəsini əks etdirir.

Bu bir həqiqətdir ki, son illərdə beynəlxalq təhlükəsizlik məsələləri kontekstində Azərbaycan özünün mötədil siyasəti ilə tanınır. İstər Avropa, istərsə də Asiya ölkələri ilə münasibətlərini balanslaşdırmağa çalışan Azərbaycan heç bir regional qütbə daxil olmadan, müstəqil xarici siyasət yürütməkdə davam edir. Bu, ölkənin regional sabitlikdəki rolunun göstəricisidir.

Əminliklə deyə bilərik ki, Azərbaycan özünün güclü iqtisadiyyatı, inkişaf etmiş infrastrukturu, müstəqil xarici siyasəti və sosial sabitliyi qoruması ilə Cənubi Qafqazda və daha geniş regionda sabitlik adasına çevrilib. Həm regional, həm də qlobal miqyasda sabitliyin qorunması istiqamətindəki səyləri ilə Azərbaycan müasir dünyada öz mövqeyini daha da möhkəmləndirir. Sabitliyin təmin edilməsi təkcə Azərbaycanın gələcəyi üçün deyil, həm də bütün Cənubi Qafqaz üçün mühüm əhəmiyyət daşıyır. Bu səbəbdən Azərbaycan sabitlik adası olmaqla yanaşı, digər ölkələrə də nümunə olacaq bir model təşkil edir.

Ölkəmizin mühüm geosiyasi uğurlarından biri dünya birliyində güclü mövqeyə malik olması, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir. Hazırda Azərbaycan regionda və dünyada öz mövqelərini sürətlə möhkəmləndirən, sosial-iqtisadi baxımdan inkişaf edərək Avroatlantik məkana inteqrasiya olunan ölkədir.

Prezident İlham Əliyev ölkəmizdəki təhlükəsizliyin, əmin-amanlığın səbəbini dəyərləndirərkən qeyd edib ki, indi dünyanın hər bir yerində müharibələr, toqquşmalar, qarşıdurmalar hökm sürür: "Hər gün biz bunu görürük. Azərbaycan sabitlik adasıdır, təhlükəsizlik adasıdır. Bu da böyük sərvətdir və Azərbaycan xalqı bunu yaxşı bilir. Çünki biz müstəqilliyimizin ilk illərində çətin günlər yaşamışdıq".

Həqiqətən də bu gün Azərbaycan dünayda baş verən müharibə və qarşıdurmalar fonunda alovlar əhatəsindəki sabitlik adasına bənzəyir. Ölkəmiz terrordan uzaq sabitlik məkanı kimi tanınır. Bunu beynəlxalq təşkilatların hesabatlarında da aydın şəkildə görə bilərik.

Aparılan beynəlxalq araşdırmalara görə, Azərbaycan dünyada ən təhlükəsiz ölkələr siyahısındadır. Buna misal olaraq Beynəlxalq Sülh və İqtisadiyyat İnstitutunun araşdırmasını göstərə bilərik. İnstitut tərəfindən hazırlanan 2025-ci il üzrə Qlobal Terrorizm İndeksinə (Global Terrorism Index - GTI) əsasən, Azərbaycan dünyanın terror təhlükəsinin ən az olduğu ölkələrindən biri elan olunub. Ərazisində terrorçuluq fəaliyyəti və terror təhlükəsi ən yüksək olan ölkələr arasında ilk sıralara - Burkina Faso (8,581), Pakistan (8,374), Suriya (8,00) daxil edilib.

Qeyd olunan sıralamada İsrail (7,463) 8-ci, Rusiya (6,267) 16-cı, İran (6,056) 18-ci, Türkiyə (3,968) 32-ci, ABŞ (3,517) 34-cü, Fransa (2,712) 40-cı, Niderland (1,402) 60-cı, Norveç (1,198) 66-cı, Finlandiya və Yaponiya (0,949) 72-ci, Danimarka və Ermənistan (0,72) 79-cu, Avstriya və Cənubi Koreya (0,582) 82-ci, Latviya və Litva (0,423) 86-cı yerdə qərarlaşıb.

"Global Terrorism Index" (GTI) reytinq sıralanması indeksləri terror hadisələri, ölümlər, ağır nəticələr, girovlar, terrorçuluqla mübarizə, terrorçuluğun araşdırılması effektivliyi və digər çoxsaylı göstəricilər üzrə hesablamalara əsaslanır.

Azərbaycan terror təhlükəsi üzrə qeyd olunan sıralamada "0,233" indekslə 2024-cü illə müqayisədə bir reytinq də yüksəlib. Ölkəmiz 1-dən 100-dək artan mümkün reytinq həddində dünyada terrorla bağlı ən təhlükəsiz ölkələrdən biri kimi yüksək reytinqə sahiblənib.

Beynəlxalq akademik institutlar, Birləşmiş Millətlər Təşkilatı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Dünya Bankı və digər beynəlxalq təşkilatlar üçün istinad mənbəyi kimi çıxış edən "Global Terrorism Index" hesabatları İqtisadiyyat və Sülh İnstitutu (Institute for Economics and Peace - İEP) tərəfindən dövri olaraq açıqlanır.

Azərbaycan belə təhlükəsizlik səviyyəsinə destruktiv qüvvələrin dini, etnik və digər zəminlərdə pozucu planlarından meşələrdə sığınacaqlar yaradılması cəhdlərinədək hər cür terror-təxribat həmlələrinin olduğu bir şəraitdə nail olunub.

Beynəlxalq təşkilatların hesabatlarından göründüyü kimi, kifayət qədər həssas və mürəkkəb geosiyasi məkanda olsa da, uğurlu dövlət siyasəti nəticəsində bərqərar olmuş inkişaf, əmin-amanlıq, o cümlədən terrorçuluğa qarşı mübarizə sahəsində təhlükəsizlik orqanları tərəfindən görülən effektiv işlər sayəsində Azərbaycan son illər dünyada yüksək daxili təhlükəsizlik reytinqinə sahiblənib.

Azərbaycanın "Global Terrorism İdex" 2025 antiterror reytinqində ən təhlükəsiz ölkələr sırasına yüksəlməsinə səbəb, ilk növbədə, Prezident İlham Əliyevin yürütdüyü müstəqil siyasətdir. Vətən müharibəsinə qədər və eləcə də postmüharibə dönəmində baş verən hərbi-siyasi proseslər sübut etdi ki, ölkəmiz "qaynar qazan" hesab edilən Cənubi Qafqazda nəinki öz təhlükəsizliyini təmin edə bilib, həm də bütün regionda, eləcə də beynəlxalq müstəvidə əsas söz sahibinə çevrilib.

Ölkəmizin 2025 antiterror reytinqində ən təhlükəsiz ölkələr sırasına yüksəlməsi qürur doğurur. Mütəxəssislər Azərbaycanın bu uğurunu dövlətin effektiv təhlükəsizlik siyasəti, güclü sərhəd nəzarəti və ictimai sabitliyin qorunmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi ilə əlaqələndirirlər. Milli təhlükəsizlik qurumlarının, hüquq-mühafizə orqanlarının və digər aidiyyəti strukturların koordinasiyalı fəaliyyəti ölkəmizi bölgədəki digər dövlətlərdən fərqləndirən əsas amillərdən sayılır.

Bir sözlə, 2025-ci il üzrə "Global Terrorizm İndekx" Azərbaycana verilən "ən təhlükəsiz ölkələrdən biri" statusunu bir daha rəsmiləşdirmiş oldu. Bu da ölkədəki daxili sabitliyin, ictimai təhlükəsizliyin və vətəndaşların əmin-amanlıq içində yaşamasının beynəlxalq miqyasda təsdiqidir.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# "Azərbaycanın yenidənqurma təcrübəsi Pakistan üçün nümunədir"

"2025-ci ilin oktyabrında Xankəndidə başlayıb möhtəşəm Bakı şəhərində yekunlaşan 3-cü Azərbaycan Milli Şəhərsalma Forumu (NUFA3) qlobal əhəmiyyət daşıyan bir tədbirdir. Xüsusilə ona görə ki, bu forum Azərbaycanın 2026-cı ildə evsahibliyi edəcəyi Ümumdünya Şəhərsalma Forumu (WUF13) üçün hazırlıq mərhələsi rolunu oynayıb. "İqlimə davamlı və sağlam şəhərlər naminə: regional tərəfdaşlıqların və innovativ həllərin səfərbər edilməsi" mövzusu Pakistan kimi sürətlə urbanizasiya olunan ölkələrin qarşılaşdığı ən ciddi problemləri birbaşa əhatə edir".

Bunu AZ?RTAC-a açıqlamasında Pakistan Gənclər Hərəkatının lideri Qeysər Nəvvab söyləyib.

O bildirib ki, Pakistanın bu forumdakı iştirakı yüksək səviyyədə fokuslanmış, strateji xarakterli və milli prioritetlərini əks etdirən şəkildə olacaq. Bu iştirak həm Azərbaycanın nümunəvi yenidənqurma təcrübələrindən öyrənməyə, həm də davamlılıq və strateji inkişaf sahəsində Pakistanın unikallığını təqdim etməyə yönələcək.

Qeysər Nəvvab qeyd edib ki, NUFA3-ün əsas mövzularından biri azad olunmuş Qarabağ və Şərqi Zəngəzur torpaqlarının münaqişədən sonra yenidən qurulması kontekstində dayanıqlı bərpa olub. Biz Azərbaycanın genişmiqyaslı bərpaolunan enerji infrastrukturunun və qabaqcıl texnologiyanın regional baş plana necə inteqrasiya etdiyini öyrənməkdə maraqlıyıq. Xüsusilə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının davamlılıq, rəqəmsal idarəetmə və ekoloji harmoniyaya əsaslanan tətbiqi Pakistan üçün qiymətsiz modeldir. Digər tərəfdən, Pakistan təbii fəlakətlər, xüsusilə dağıdıcı daşqınlar və zəlzələlər fonunda dayanıqlılığın idarə edilməsində geniş təcrübəyə malikdir. Milli Fəlakətlərin İdarə Olunması Təşkilatı (NDMA) və şəhər inkişaf qurumlarımız operativ mənzil təminatı, fəlakətədavamlı infrastruktur standartları və icma-əsaslı bərpa modelləri üzrə biliklərini bölüşə bilərlər.

Gənclər Hərəkatının lideri bildirib ki, pakistanlı texniki ekspertlər Ümumdünya Şəhərsalma Forumu çərçivəsində urbanizasiya mühitində iqlimə adaptasiya mövzusunda keçirilən müzakirələrdə iştirak edəcəklər. Onların fəaliyyəti xüsusilə BRISD-in (Kəmər və Yol Təşəbbüsü üzrə Davamlı İnkişaf) elmi diplomatiyanı siyasətə inteqrasiya etmək missiyasına uyğun olaraq süni intellektlə idarə olunan şəhər monitorinqi və iqlim risklərinin proqnozlaşdırılması texnologiyalarının öyrənilməsinə yönələcək. Müzakirələrin əsas mövzularından biri iqlim maliyyəsi olacaq. Pakistanlı nümayəndələr ECO çərçivəsi də daxil olmaqla regional tərəfdaşlıqlar vasitəsilə "yaşıl infrastruktur" və şəhər regenerasiyası layihələri üçün maliyyə cəlbetmə mexanizmlərinin müəyyənləşdirilməsinə diqqət yetirəcəklər. Bu prosesdə Azərbaycanın uğurlu maliyyə səfərbərliyi təcrübəsindən də geniş şəkildə faydalanmağı planlaşdırırlar.

"Pakistan Bakı 2026 - Ümumdünya Şəhərsalma Forumunu gələcək inkişaf üçün mühüm bir "emalatxana" kimi görür. Məqsədimiz müzakirələrə dəyərli töhfələr vermək, öz təcrübəmizi bölüşmək və ən əsası, şəhərlərimizin daha dayanıqlı, davamlı və qlobal çağırışlara hazırlıqlı olması üçün praktiki tərəfdaşlıqlar qurmaqdır. Şübhəsiz ki, bu forumun uğurlu keçirilməsi həm WUF13-ün yüksək səviyyəsinə töhfə verəcək, həm də Pakistan-Azərbaycan dostluğunu gələcək onilliklərdə daha da möhkəmləndirəcək", - deyə Qeysər Nəvvab əlavə edib.

# Azərbaycan-Türkiyə strateji xətti Avrasiyada yeni geosiyasi arxitekturanın əsasını formalaşdırır

"Avrasiyada son illər müşahidə olunan geosiyasi dəyişikliklər regional güc balansının yenidən qurulduğunu göstərir. Xüsusilə Cənubi Qafqazdan Orta Asiyaya qədər uzanan geniş məkanda nəqliyyat, enerji və təhlükəsizlik sahələrində yeni inteqrasiya xəttinin formalaşması diqqəti cəlb edir. Bu prosesdə Azərbaycan-Türkiyə tərəfdaşlığı aparıcı rol oynayır".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında türkiyəli politoloq, Beynəlxalq münasibətlər üzrə ekspert Mehmet Emir Aksoy bildirib. Onun sözlərinə görə, Azərbaycan ilə Türkiyə arasındakı strateji sinxronizasiya təkcə ikitərəfli əlaqələrin inkişafına deyil, həm də Avrasiyada yeni geosiyasi modelin formalaşmasına xidmət edir. "Şuşa Bəyannaməsindən sonra Bakı-Ankara münasibətləri müttəfiqlik çərçivəsində institusional xarakter alıb. Bu model Türk Dövlətləri Təşkilatı daxilində əməkdaşlıq mexanizmlərinə sistemli məzmun verir və regionda yaranan yeni nizamın əsas istiqamətlərini müəyyənləşdirir", - deyə o bildirib.

Mehmet Emir Aksoy iqtisadi və nəqliyyat sahəsində əməkdaşlığın da strateji roluna diqqət çəkib: "TANAP, "Cənub qaz dəhlizi" və Trans-Xəzər nəqliyyat xətti kimi layihələr Azərbaycanı regional enerji memarı, Türkiyəni isə enerji və logistika mərkəzi kimi möhkəmləndirib. Orta dəhlizin rəqəmsallaşması, liman və dəmir yolu infrastrukturunun modernləşdirilməsi bu xətti alternativ marşrutdan strateji seçimə çevirir".

Ekspert hesab edir ki, Azərbaycan-Türkiyə əməkdaşlığı türk dünyasına yalnız iqtisadi tərəfdaşlıq modeli deyil, həm də uzunmüddətli təhlükəsizlik və inkişaf çərçivəsi təqdim edir.

"Bu əməkdaşlıq enerji, təhlükəsizlik, nəqliyyat və rəqəmsal transformasiya sahələrini birləşdirən kompleks bir strategiyaya çevrilib. Avrasiyada formalaşan yeni nizamın əsas sütunlarından biri məhz bu tərəfdaşlıqdır. Bakı-Ankara xətti region ölkələri üçün sabitlik, iqtisadi dinamizm və strateji koordinasiya imkanları yaradır və gələcək nəsillərin təhlükəsizlik arxitekturasını müəyyən edən əsas geosiyasi çərçivəyə çevrilir, - deyə Aksoy əlavə edib.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 22 iyun tarixli 178 nömrəli Qərarı ilə təsdiq edilmiş “Baytarlıq xidməti və nəzarəti tədbirlərinə görə alınan xidmət haqqının məbləği”ndə dəyişiklik edilməsi və “Heyvanlar üçün bioloji preparatlar istehsalı obyektlərinin baytarlıq qanunvericiliyinin tələblərinə uyğunluğunun uçotunu aparmaq üçün onların qeydiyyatı Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 15 yanvar tarixli 24 nömrəli Qərarının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 358** **Bakı şəhəri, 1 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 22 aprel tarixli 185-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 9 may tarixli 390 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 22 iyun tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (IV kitab), maddə 684 (Cild I); 2024, № 3, maddə 329) ilə təsdiq edilmiş "Baytarlıq xidməti və nəzarəti tədbirlərinə görə alınan xidmət haqqının məbləği"nin 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin :

1.1. adından "və heyvanlar üçün yem və bioloji preparatlar istehsalı obyektlərinin qeydiyyatı" sözləri çıxarılsın;

1.2. 2.2-ci bənd ləğv edilsin.

2. "Heyvanlar üçün bioloji preparatlar istehsalı obyektlərinin baytarlıq qanunvericiliyinin tələblərinə uyğunluğunun uçotunu aparmaq üçün onların qeydiyyatı Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 15 yanvar tarixli 24 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 1, maddə 91) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 5 avqust tarixli 116 nömrəli Qərarı ilə təsdiq edilmiş ”Bal arısı cinslərinin və populyasiyalarının rayonlaşdırılması Qaydası”nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 360** **Bakı şəhəri, 1 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 5 avqust tarixli 116 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 669 (Cild I); 2024, № 2, maddə 208, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş "Bal arısı cinslərinin və populyasiyalarının rayonlaşdırılması Qaydası"nın 2.3-cü bəndində cədvəlin "Rayonların adları" sütununun adında "Rayonların" sözü "Rayonların (şəhərlərin)" sözləri ilə əvəz edilsin və cədvəlin sonuna aşağıdakı məzmunda sətirlər əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| Karnika | Peşeç | Qusar, Quba, Xaçmaz, Şabran, Xızı, Siyəzən, Abşeron, Qobustan, Şamaxı, Ağsu, İsmayıllı, Qəbələ, Şəki, Oğuz, Qax, Zaqatala, Balakən | Quba, Qusar, Xızı, Qobustan, Şamaxı, İsmayıllı, Qəbələ, Şəki, Oğuz, Qax, Zaqatala, Balakən, Xaçmaz, Şabran, Siyəzən, Abşeron, Laçın, Kəlbəcər |
| | Troyzek | Astara, Lənkəran, Masallı, Lerik, Yardımlı, Cəlilabad | Astara, Lənkəran, Masallı, Lerik, Yardımlı, Cəlilabad |
| | Perner | Ordubad, Culfa, Babək, Kəngərli, Şərur, Sədərək, Şahbuz | Ordubad, Culfa, Babək, Kəngərli, Sədərək, Şahbuz |
| Karpat | Dağ karpatı və Qaydar | Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Göygöl, Goranboy, Bərdə, Tərtər, Füzuli, Qubadlı, Zəngilan, Laçın, Cəbrayıl, Ağdam, Şuşa, Xocalı, Kəlbəcər | Gədəbəy, Daşkəsən, Göygöl, Goranboy, Şəmkir, Qubadlı, Zəngilan, Laçın, Cəbrayıl, Ağdam, Şuşa, Xocalı, Füzuli, Kəlbəcər, Samux, Qazax, Ağstafa, Tovuz, Bərdə, Yevlax, Ağdaş, Göyçay, Kürdəmir, Ağcabədi, Beyləqan, Saatlı, Sabirabad, İmişli |
| İtalyan | Bütün populyasiyalar | Yevlax, Mingəçevir, Ağdaş, Göyçay, Kürdəmir, Ağcabədi, Beyləqan, Saatlı, Ucar, Zərdab, Sabirabad, İmişli, Neftçala, Salyan, Biləsuvar, Hacıqabul, Füzuli, Şirvan, Ağdam, Xocavənd, Ordubad, Culfa, Babək, Kəngərli, Şərur, Sədərək, Şahbuz | Yevlax, Ağdaş, Göyçay, Kürdəmir, Ağcabədi, Beyləqan, Saatlı, Sabirabad, İmişli, Neftçala, Salyan, Biləsuvar, Hacıqabul, Mingəçevir, Şirvan, Ağdam, Gədəbəy, Daşkəsən, Göygöl, Goranboy, Şəmkir, Qubadlı, Zəngilan, Laçın, Cəbrayıl, Şuşa, Xocalı, Füzuli, Xocavənd, Kəlbəcər, Ordubad, Culfa, Babək, Kəngərli, Sədərək, Şahbuz |
| Bakfast (hibrid cins) | Bütün populyasiyalar | Yevlax, Mingəçevir, Ağdaş, Göyçay, Kürdəmir, Ağcabədi, Beyləqan, Saatlı, Ucar, Zərdab, Sabirabad, İmişli, Neftçala, Salyan, Biləsuvar, Hacıqabul, Füzuli, Şirvan, Ağdam, Xocavənd | Yevlax, Ağdaş, Göyçay, Kürdəmir, Ağcabədi, Beyləqan, Saatlı, Sabirabad, İmişli, Neftçala, Salyan, Biləsuvar, Hacıqabul, Mingəçevir, Şirvan, Ağdam, Gədəbəy, Daşkəsən, Göygöl, Goranboy, Şəmkir, Qubadlı, Zəngilan, Laçın, Cəbrayıl, Kəlbəcər, Tərtər, Şuşa, Xocalı, Füzuli, Xocavənd |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Azərbaycan Respublikası Prezidentinin “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli və “Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun tətbiqi və ”Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” 2022-ci il 8 aprel tarixli 1658 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 aprel tarixli 379 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 359** **Bakı şəhəri, 1 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli və "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun tətbiqi və "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2022-ci il 8 aprel tarixli 1658 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 aprel tarixli 379 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 31 may tarixli 87 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 5, maddə 336 (Cild I) ilə təsdiq edilmiş "Qaz paylayıcıları tərəfindən qaz təchizatının ümumi şərtlərini təyin edən Qaydalar"ın 1.1-ci bəndindən "və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidməti" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 452 (Cild I); 2024, № 3, maddə 336; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 22 sentyabr tarixli 279 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Qazdan istifadə Qaydaları"nın 1.2-ci bəndinin ikinci abzasından "və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidməti" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 216 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 876 (Cild I); 2024, № 3, maddə 305) ilə təsdiq edilmiş "Müayinə və texniki xidmət məlumatları üzrə reyestrin aparılması və ondan istifadə Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.5-ci bənddən "və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidmətinin" sözləri çıxarılsın;

3.2. 2.1.3-cü yarımbənddən "və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidməti" sözləri çıxarılsın.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 avqust tarixli 297 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (II kitab), maddə 1280 (Cild I); 2024, № 1, maddə 95, № 3, maddə 305; 2025, № 2, maddə 204; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 22 sentyabr tarixli 277 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması Qaydası"nın 1.2.1-ci yarımbəndindən "və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidməti" sözləri çıxarılsın.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 21 noyabr tarixli 423 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 11, maddə 1586 (Cild I) ilə təsdiq edilmiş "Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulma xidmətinə görə ödəniş məbləğinin hesablanmasına dair Metodologiya"nın 1.2.4-cü yarımbəndindən "və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidməti" sözləri çıxarılsın.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 avqust tarixli 372 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 8, maddə 988; 2025, № 4 (I kitab), maddə 398) ilə təsdiq edilmiş "Təbii inhisar subyektlərinin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1-ci, 2-ci və 4-cü hissələrin "Fəaliyyət göstərdiyi ərazi" sütunundan "(Naxçıvan Muxtar Respublikası istisna olmaqla)" sözləri çıxarılsın;

6.2. 5-ci və 6-cı hissələr ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## 2026-cı il üçün Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 362** **Bakı şəhəri, 2 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 105-ci maddəsinin 4-cü hissəsinə və "Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2006-cı il 8 dekabr tarixli 194-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 dekabr tarixli 489 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. 2026-cı il martın 20, 21, 22, 23, 24-ü Novruz bayramı, martın 20, 21-i Ramazan bayramı, mayın 27, 28-i Qurban bayramı günləri müəyyən edilsin.

2. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 105-ci maddəsinin 2-ci hissəsinə əsasən bu Qərarın 1-ci hissəsində nəzərdə tutulan günlər iş günü hesab edilmir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 28 sentyabr tarixli 167 nömrəli Qərarı ilə təsdiq edilmiş ”Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları”nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 363** **Bakı şəhəri, 2 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 28 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 9, maddə 833 (Cild I); 2024, № 3, maddə 307, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 4.16-cı bənddən "aşağıdakı kimi" sözləri çıxarılsın və həmin bəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin.

2. 4.16.1-4.16.4-cü yarımbəndlər ləğv edilsin.

3. Aşağıdakı məzmunda 4.16-1-ci bənd əlavə edilsin:

"4.16-1. Akkreditasiya Meyarları üçün maksimum bal ölçüsü hər bir meyar üzrə indikatorların sayından və hər bir indikator üzrə müəyyən edilən maksimum baldan asılı olaraq hesablanır.".

4. 4.17-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.17. Təhsil müəssisəsi və ya təhsil proqramı üçün maksimum bal ölçüsü Akkreditasiya Meyarları üzrə hesablanmış maksimum balların toplanmasından ibarətdir. Təhsil müəssisəsi və ya təhsil proqramı üçün müəyyən olunmuş maksimum bal ölçüsünün akkreditasiya zamanı toplanılan bal üzrə qiymətləndirilməsi aşağıdakı qaydada müəyyənləşdirilir:

4.17.1. maksimum balın 85-100 faizi - "uyğundur";

4.17.2. maksimum balın 70-84 faizi - "əsasən uyğundur";

4.17.3. maksimum balın 55-69 faizi - "qismən uyğundur";

4.17.4. maksimum balın 54 və daha aşağı faizi - "uyğun deyil".".

5. 4.23-cü bəndin birinci cümləsinə "1 (bir) ay müddətində" sözlərindən sonra ", əlavə araşdırmaların aparılması zərurəti yarandıqda isə 2 (iki) ay müddətində" sözləri əlavə edilsin və həmin bəndin ikinci cümləsi çıxarılsın.

6. 4.30-cu bənd aşağıdakı redaksiyada verilsin:

"4.30. Akkreditasiya Şurası Agentliyin təqdimatı əsasında Yekun Hesabatı müzakirə edir və Akkreditasiya Komissiyasının rəyini nəzərə alaraq aşağıdakı qərarlardan birini qəbul edir:

4.30.1. təhsil müəssisəsi və ya təhsil proqramı "uyğundur" və ya "əsasən uyğundur" qiymətləndirildikdə (təhsil müəssisəsi üzrə təlim və tədris istiqaməti, təhsil proqramı üçün tədrisin təşkili meyarı üzrə müəyyən olunmuş maksimum bal ölçüsünün toplanılan bal üzrə qiymətləndirilməsi 70 faiz və ya yuxarı olması şərtilə), təhsil müəssisəsini və ya təhsil proqramını növbəti 5 (beş) il üçün tam akkreditasiya olunmuş hesab etmək;

4.30.2. təhsil müəssisəsi və ya təhsil proqramı ilk dəfə keçirilən akkreditasiya qiymətləndirilməsinin nəticəsində "qismən uyğundur" hesab edildikdə (təhsil müəssisəsi üzrə təlim və tədris istiqaməti, təhsil proqramı üçün tədrisin təşkili meyarı üzrə müəyyən olunmuş maksimum bal ölçüsünün toplanılan bal üzrə qiymətləndirilməsi 65 faiz və ya yuxarı olması şərtilə), təhsil müəssisəsinə akkreditasiya zamanı aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması və fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə vaxt verməklə təhsil müəssisəsini və ya təhsil proqramını 2 (iki) ildən sonra təkrar akkreditasiya etmək;

4.30.3. əvvəlki dövrdə akkreditasiyadan keçmiş təhsil müəssisəsi və ya təhsil proqramı akkreditasiya qiymətləndirilməsinin nəticəsində "qismən uyğundur" hesab edildikdə (təhsil müəssisəsi üzrə təlim və tədris istiqaməti, təhsil proqramı üçün tədrisin təşkili meyarı üzrə müəyyən olunmuş maksimum bal ölçüsünün toplanılan bal üzrə qiymətləndirilməsi 65 faiz və ya yuxarı olması şərtilə), qüvvədə olan akkreditasiya şəhadətnaməsinin müddətini növbəti 2 (iki) il üçün uzatmaqla təhsil müəssisəsini və ya təhsil proqramını 2 (iki) ildən sonra təkrar akkreditasiya etmək;

4.30.4. təkrar akkreditasiya nəticəsində təhsil müəssisəsinin və ya təhsil proqramının bu Qaydaların 4.30.1-ci yarımbəndində göstərilən tələblərə cavab vermədiyi müəyyən edildikdə, təhsil müəssisəsini və ya təhsil proqramını akkreditasiya olunmuş hesab etməmək;

4.30.5. təhsil müəssisəsi və ya təhsil proqramı "qismən uyğundur" (təhsil müəssisəsi üzrə təlim və tədris istiqaməti, təhsil proqramı üçün tədrisin təşkili meyarı üzrə müəyyən olunmuş maksimum bal ölçüsünün toplanılan bal üzrə qiymətləndirilməsi 65 faizdən aşağı olması şərtilə) və ya "uyğun deyil" qiymətləndirildikdə, təhsil müəssisəsini və ya təhsil proqramını akkreditasiya olunmuş hesab etməmək.".

7. 4.31-ci bəndin birinci cümləsində "təhsil müəssisəsini və ya təhsil proqramlarını akkreditasiya etmək" sözləri "təhsil müəssisəsinin və ya təhsil proqramlarının akkreditasiyası" sözləri ilə, "akkreditasiya olunması" sözləri "akkreditasiyası" sözü ilə əvəz edilsin.

8. 4.32-ci bəndin ikinci cümləsində "2 (iki) il ərzində" sözləri "2 (iki) ildən sonra" sözləri ilə əvəz edilsin.

9. 4.34-cü bənddə "qəbulu dayandırılır" sözləri "qəbulunun azaldılması və ya dayandırılması məsələsinə baxılır" sözləri ilə əvəz edilsin.

10. 4.36-cı bənddə "4.30.2-ci" sözləri "4.30.1-ci" sözləri ilə əvəz edilsin.

11. 4.37-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.37. Akkreditasiya qiymətləndirilməsinin nəticəsi olaraq bu Qaydaların 4.30.4-cü və 4.30.5-ci yarımbəndlərində göstərilən hallar üzrə təhsil müəssisəsinin və ya təhsil proqramının akkreditasiyadan keçməməsi barədə qərarlar qəbul edildikdə Nazirlik tərəfindən müəssisənin təhsil fəaliyyətinin və ya təhsil proqramlarının icrasının dayandırılması üçün müvafiq tədbirlər görülür, təhsil müəssisəsinin yenidən təşkili və ləğvi barədə müvafiq qaydada təkliflər verilir. Təhsil müəssisəsində təhsilalanların Nazirlik tərəfindən müəyyən edilən digər təhsil müəssisələrinə köçürülməsi təmin edilir. Agentlik dəymiş ziyanın fəaliyyətinə xitam verilmiş təhsil müəssisəsi tərəfindən ödənilməsi barədə məhkəmədə iddia qaldırır.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Milli Məclisin iclasında

# Büdcə zərfinə daxil olan qanun layihələri ikinci oxunuşda qəbul edilib

**Dekabrın 2-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbəti plenar iclası keçirilib. İclasda hökumət üzvləri iştirak ediblər. Əvvəlcə, cari məsələlərlə bağlı müzakirələr aparılıb. Müzakirələrdə deputatlar Rövşən Muradov, Nigar Arpadarai, Tahir Mirkişili, Soltan Məmmədov, Könül Nurullayeva, Şahin Seyidzadə, Jalə Əliyeva, Kamal Cəfərov, Bəhruz Məhərrəmov, Hikmət Məmmədov çıxış ediblər.**






Deputatlar vurğulayıblar ki, Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub. 44 günlük Vətən müharibəsində xalq öz Prezidenti ətrafında birləşdi, torpaqlarımızı işğaldan azad edərək tarixi ədaləti bərpa etdi. Əldə edilmiş uğurlardan biri də 2020-ci il noyabrın 10-da imzalanmış Birgə Bəyanata uyğun olaraq dekabrın 1-də Laçın rayonunun döyüşsüz işğaldan azad edilməsidir.

Bildirilib ki, regional və qlobal səviyyədə sülhün, təhlükəsizliyin və əməkdaşlığın təşviqi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindəndir. Vətən müharibəsindən sonra Azərbaycan-Ermənistan münasibətlərində yaranmış reallıq sülh gündəliyini inkişaf etdirmək üçün yeni imkanlara yol açıb. Sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiya və demarkasiya prosesinin başa çatdırılması, kommunikasiyaların açılması və regional iqtisadi əməkdaşlıq üçün münbit şərait yaradılıb. Bununla yanaşı, postmüharibə dövründə ölkəmiz beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir, azad olunmuş ərazilərin minalardan təmizlənməsi, infrastrukturun bərpası, keçmiş məcburi köçkünlərin öz yurdlarına qayıdışı kimi məsələlərdə qətiyyətli mövqe nümayiş etdirir.

Çıxışlarda BMT-nin iqlim dəyişmələri ilə bağlı konfransının qlobal əhəmiyyəti, ötən il Azərbaycanın COP29 konfransına uğurlu evsahibliyi, COP30 çərçivəsində Azərbaycan nümayəndə heyətinin fəaliyyəti barədə söz açılıb. Həmçinin bu günlərdə Bakıda keçirilmiş Türk Dövlətləri Təşkilatının Media və informasiya üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin 7-ci toplantısının əhəmiyyətindən bəhs edilib, Səudiyyə Ərəbistanında keçirilmiş VI İslam Həmrəyliyi Oyunlarında iştirak etmiş Azərbaycan idmançılarının müxtəlif yarışlarda əldə etdiyi nailiyyətlər diqqətə çatdırılıb. Millət vəkilləri, Azərbaycan dilinin inkişafı, bəzi təhrif olunmuş toponimlərin bərpası, bu baxımdan, coğrafi adların mənşəyinin araşdırılması istiqamətində zəruri tədbirlərin görülməsinin vacibliyi ilə də bağlı fikirlərini bölüşüblər.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyə 6 məsələnin - 2026-cı ilin dövlət büdcəsi və büdcə zərfində olan qanun layihələrinin ikinci oxunuşda daxil edildiyini bildirib. O, birinci məsələnin "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi olduğunu nəzərə çatdırıb.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov qanun layihəsi barədə məlumat verib. Bildirib ki, "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi həm komitələrdə, həm də Milli Məclisin plenar iclasında birinci oxunuşda geniş və konstruktiv şəkildə müzakirə olunub. Qeyd edib ki, müzakirələr zamanı millət vəkilləri çıxış edərək bəzi təkliflər irəli sürüblər. Komitə sədri səsləndirilən fikirlərin sahəvi, regional və ictimai xarakter daşıdığını və bunun dövlət büdcəsi üçün əlavə maliyyə öhdəliyi yaratdığını, eyni zamanda ölkəmizin sosial-iqtisadi inkişafına, dövlət siyasətinin müxtəlif istiqamətlər üzrə təkmilləşdirilməsinə, o cümlədən regionlarda mövcud problemlərin həllinə xidmət etdiyini söyləyib. O, deputatlar tərəfindən qaldırılan bəzi məsələlərin aidiyyəti dövlət qurumları tərəfindən nəzərdən keçirildiyini deyib.

İclasda bu məsələ ətrafında müzakirələr aparılıb. Komitə sədrləri Siyavuş Novruzov, Zahid Oruc, deputatlar Qüdrət Həsənquliyev, Ziyad Səmədzadə, Elçin Mirzəbəyli, Zaur Şükürov, Günay Ağamalı, Mahir Süleymanlı, Kamal Cəfərov, Tamam Cəfərova, Azər Kərimli, Vüqar Rəhimzadə, Tənzilə Rüstəmxanlı, Aydın Hüseynov, Samir Vəliyev, Səbinə Salmanova, Mehriban Vəliyeva çıxış ediblər.

Fasilədən sonra davam edən müzakirələrdə deputatlar Əminə Ağazadə, Cavanşir Paşazadə və Nurlan Həsənov gələn ilin dövlət büdcəsi ilə bağlı fikirlərini bildiriblər.

Deputatlar 2026-cı il üçün nəzərdə tutulan dövlət büdcəsinin Azərbaycanın gələcək inkişafının, iqtisadi təhlükəsizliyinin təmin edilməsinə, milli maraqların qorunmasına, əhalinin həyat səviyyəsinin daha da yüksəlməsinə xidmət edəcəyini bildiriblər. Qeyd olunub ki, layihədə dövlət büdcəsinin parametrlərinin, makroiqtisadi göstəricilərin yüksəlməsi, büdcənin sosialyönümlüyü, habelə büdcə xərclərinin ÜDM-də payının artdığı müşahidə edilir. Əhalinin sosial müdafiəsinin ildən-ilə gücləndirilməsinin strateji vəzifələrdən olduğu və bu istiqamətdə ardıcıl tədbirlərin həyata keçirildiyi vurğulanıb.

Azərbaycan Prezidentinin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf və milli təhlükəsizlik strategiyası çərçivəsində hərbi potensialımızın gücləndirilməsi, milli təhlükəsizliyin təmin edilməsi kimi istiqamətlərin diqqət mərkəzində saxlandığı qeyd edilib. İşğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işlərinə müvafiq vəsaitin nəzərdə tutulması vacib məqamlardan hesab olunub.

Deputatlar növbəti ilin büdcə layihəsinin kifayət qədər zəngin və əhatəli olduğunu, həyatın bütün sahələrinin inkişaf etdirilməsi baxımından maliyyə imkanlarını özündə ehtiva etdiyini bildiriblər, bəzi qeyd və təkliflərini səsləndiriblər.

Müzakirələrin yekununda "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

İclasda çıxış edən maliyyə naziri Sahil Babayev Milli Məclisin plenar iclaslarında 2026-cı ilin dövlət büdcəsi layihəsinin birinci və ikinci oxunuşlarda müzakirəsi zamanı qaldırılmış məsələlərə münasibət bildirib. Nazir Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin azaldılmasının bundan sonra da davam etdiriləcəyini diqqətə çatdırıb, dövlət büdcəsinin cari xərclərinin qeyri-neft gəlirləri hesabına ödənilməsi, neftin və qazın qiymətlərinin proqnozlaşdırılması, qeyri-neft sektorunun inkişafı üçün vergi yükünün optimallaşdırılması, muzdla işləyən əhalinin gəlir vergisi sahəsində tətbiq edilən güzəştlər və digər məsələlər barədə deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirib.

Nazir həmçinin dövlət büdcəsinin investisiya yönümlülüyünün qorunmasının, Böyük qayıdış proqramının icrasının, dövlət büdcəsinin sosial yönümlülüyünün, büdcədə təhsil, sosial müdafiə, sosial təminat, səhiyyə xərclərinin artırılmasının vətəndaşların rifahının daha da yüksəldilməsinə xidmət etdiyini bildirib, əhalinin tibbi sığorta ilə əhatə olunması ilə bağlı görülmüş işləri diqqətə çatdırıb.

Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev gündəliyin növbəti iki məsələsini - "Dövlət sosial müdafiə fondunun 2026-cı il büdcəsi haqqında" və "İşsizlikdən sığorta fondunun 2026-cı il büdcəsi haqqında" qanun layihələrini ikinci oxunuşda təqdim edib. Bildirib ki, Dövlət Sosial Müdafiə Fondunun (DSMF) 2026-cı il üçün gəlirləri 8 milyard 323 milyon manat təşkil etməklə, cari ilin proqnoz göstəricisi ilə müqayisədə 705,7 milyon manat (9,3 faiz) çoxdur. DSMF-nin 2026-cı il üçün nəzərdə tutulan xərcləri isə 8 milyard 483 milyon manat proqnozlaşdırılır ki, bu göstərici cari ilə nisbətən 807 milyon manat və ya 10,5 faiz artıqdır.

Diqqətə çatdırılıb ki, əmək pensiyalarının orta aylıq məbləğinin 2025-ci ildə 540 manat, 2026-cı ildə isə 590 manat olacağı gözlənilir. Növbəti ildə yaşa görə pensiyanın orta aylıq məbləğinin cari ildəki 576 manatdan 629 manata yüksəlməsi proqnozlaşdırılır.

Sonra Musa Quliyev İşsizlikdən Sığorta Fondunun (İSF) 2026-cı il büdcə layihəsinin parametrlərini diqqətə çatdırıb. O deyib ki, gələn il İşsizlikdən Sığorta Fondunun xərcləri 266,4 milyon manat həcmində proqnozlaşdırılır ki, bu da 2025-ci ilin göstəricilərinə nisbətən 5,7 milyon manat çoxdur.

Fondun xərclərinin 13 istiqaməti əhatə edəcəyini söyləyən komitə sədri gələn ildə işsizliyə görə sığorta ödənişlərinin həcminin 28 milyon manat olmaqla, cari ildəkindən 11 milyon manat, yaxud 65 faiz çox proqnozlaşdırıldığını diqqətə çatdırıb. İSF-in xərclərinin 77 milyon manatı, yaxud 28,9 faizi özünüməşğulluq tədbirlərinin maliyyələşməsinə yönəldiləcək. İSF-in 2026-cı il büdcə xərclərindən 26 milyon manatı peşə hazırlığı və əlavə təhsilin təşkili xərclərinin maliyyələşməsinə yönəldiləcək.

Çıxışının sonunda komitə sədri qanun layihələrinin birinci oxunuşu barədə məlumat verib. Bildirib ki, deputatlar layihələri dəstəkləmiş, həmçinin sosial müdafiə və təminatla bağlı bir sıra təkliflər səsləndirmişlər. Milli Məclis Sədrinin tapşırığına uyğun olaraq, həmin deputatlar komitə iclasına dəvət olunmuş, bütün suallar aidiyyəti qurumların səlahiyyətli nümayəndələri tərəfindən ətraflı cavablandırılmışdır.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov hər iki fondun büdcələrinin icmal büdcənin və büdcə zərfinin mühüm tərkib hissəsi olduğunu deyib, hər iki layihə ilə bağlı rəhbərlik etdiyi komitənin müsbət rəyini açıqlayıb.

"Dövlət sosial müdafiə fondunun 2026-cı il büdcəsi haqqında" və "İşsizlikdən sığorta fondunun 2026-cı il büdcəsi haqqında" qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

İclasda əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev çıxış edərək, Prezident İlham Əliyevin siyasətində insan amilinin prioritet təşkil etdiyini vurğulayıb. O, ölkəmizdə sosial müdafiə, məşğulluq, əmək münasibətləri sahəsində davamlı işlərin görüldüyünü, ötən müddət ərzində 4 milyon vətəndaşımızı əhatə edən 4 sosial islahat paketinin həyata keçirildiyini söyləyib.

Nazir bildirib ki, bu islahatların davamı olaraq 2025-ci ilin əvvəlindən başlayaraq, sosial sahədə 5-ci sosial islahat zərfinin icrasına başlanılıb. Bu çərçivədə 1,9 milyon şəxsi əhatə edən və 885 milyon manat vəsaiti özündə ehtiva edən, həmçinin pensiyaların indeksləşdirilməsi də nəzərə alınaraq, 1,4 milyard manatlıq sosial islahat zərfi həyata keçirilib. O, cari ildə minimum əməkhaqqının, minimum pensiyaların, sosial müavinət və təqaüd ödənişlərinin, tələbə təqaüdlərinin, ünvanlı dövlət sosial yardımının, ölkə üzrə yaşayış minimumunun, ehtiyac meyarının artımı ilə bağlı rəqəmləri də səsləndirib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Azərbaycan Respublikasında 2026-cı il üçün yaşayış minimumu haqqında" qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Bildirib ki, layihəyə əsasən, yaşayış minimumunun məbləği ölkə üzrə 300 manat, əmək qabiliyyətli əhali üçün 317 manat, pensiyaçılar üçün 245 manat, uşaqlar üçün 260 manat məbləğində müəyyən edilir. Komitə sədri qeyd edib ki, yaşayış minimumunun artım məbləğləri gələn il üçün proqnozlaşdırılan inflyasiyanın səviyyəsini üstələyir.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məsələyə dair bu komitənin müsbət rəy verdiyini bildirdikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Komitə sədri Musa Quliyev həmçinin "Azərbaycan Respublikasında 2026-cı il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O, gələn il üçün ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə müəyyən olunan ehtiyac meyarının həddinin 5,3 faiz artırılaraq 300 manata çatdırıldığını bildirib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin məsələ barədə rəyi səsləndirildikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Sonra komitə sədri Azər Əmiraslanov Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Sosial sığorta haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "Tibbi sığorta haqqında", "Dövlət rüsumu haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının dövlət icbari şəxsi sığortası haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Sığorta fəaliyyəti haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Gömrük tarifi haqqında", "Nağdsız hesablaşmalar haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib.

Diqqətə çatdırılıb ki, Vergi Məcəlləsinə təklif olunan dəyişikliklər qeyri-neft özəl sektorunda əməkhaqqı gəlirləri üzrə fiskal yükün tənzimlənməsini, Naxçıvan Muxtar Respublikasında sahibkarlıq fəaliyyətinin təşviq edilməsini, kənd təsərrüfatına dəstəyin artırılmasını, balıqçılığın inkişaf etdirilməsini, yerli avtomobil istehsalının dəstəklənməsini, media fəaliyyətinə dəstəyin davam etdirilməsini, aksizli malların siyahısının genişləndirilməsini nəzərdə tutur.

Layihədə nağdsız əməliyyatların stimullaşdırılması, kiçik və orta sahibkarlığın dəstəklənməsi, qanunsuz sahibkarlıqla mübarizə, könüllü açıqlama sisteminin əhatəsinin genişləndirilməsi, dövlət-özəl tərəfdaşlığı layihələrinin stimullaşdırılması və digər institusional xarakterli müddəalar da öz əksini tapıb.

Komitə sədri Vergi Məcəlləsinə və digər qanunlara dəyişikliklərin 2026-cı ilin büdcə zərfinin əsas tərkib hissəsi olaraq büdcənin parametrləri ilə bilavasitə bağlı olduğunu, əsasən, tənzimləyici və təşviqedici xarakter daşıdığını, vergi inzibatçılığının yaxşılaşdırılmasına xidmət etdiyini bildirib.

Bu məsələ ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, Səhiyyə, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr, Ailə, qadın və uşaq məsələləri komitələrinin müsbət rəy verdikləri diqqətə çatdırılıb.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# ADA Universitetində "Yaşıl enerji və dayanıqlılıqda universitetlərin rolu" adlı beynəlxalq konfrans işə başlayıb

Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Aparıcı Universitetlər Tərəfdaşlıq Şəbəkəsinin (AUTŞ) Koordinasiya Şurasına sədrlik edən ADA Universitetində "Yaşıl enerji və dayanıqlılıqda universitetlərin rolu" adlı beynəlxalq konfransın açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, konfrans ADA Universiteti, İnkişaf və Diplomatiya İnstitutu (IDD), Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyi (AİDA) və AQEM-in tərəfdaşlığı ilə təşkil olunub. Tədbirdə Azərbaycan ilə yanaşı, Banqladeş, Birləşmiş Ərəb Əmirlikləri, Çin Xalq Respublikası, Fələstin, Hindistan, İordaniya, İraq, İran, İsrail, Koreya Respublikası, Qazaxıstan, Qırğızıstan, Misir, Özbəkistan, Pakistan, Rusiya, Tacikistan, Tailand, Türkiyə və Vyetnam da daxil olmaqla, 21 üzv ölkədən 50-dən çox professor, tədqiqatçı və universitet nümayəndəsi iştirak edir.

İki gün davam edəcək konfrans universitetlərin enerji səmərəliliyinin artırılmasında rolu, "yaşıl texnologiya"ların tətbiqi, dayanıqlılıq sahəsində regional əməkdaşlıq, bərpaolunan enerji və enerji səmərəliliyində innovativ yanaşmalar mövzularında fikir mübadiləsini nəzərdə tutur. Tədbir, həmçinin AQEM çərçivəsində universitetlər arasında yeni tərəfdaşlıq təşəbbüslərinin müzakirəsi və birgə layihələr üçün platforma rolunu oynayır.

Açılış mərasimində ADA Universitetinin prorektoru, Milli Məclisin deputatı Fariz İsmayılzadə "yaşıl enerji" sahəsində universitetlərin rolunun olduqca əhəmiyyətli olduğuna diqqət çəkib: "Ali təhsil müəssisələri yalnız bilik mərkəzi deyil, həm də gələcəyin ixtisaslı mütəxəssislərini yetişdirən institutlardır. Universitetlər təhsil proqramlarını və tədqiqatlarını dayanıqlı inkişaf və "yaşıl enerji" prinsiplərinə uyğunlaşdıraraq, həm ətraf mühitin qorunmasına, həm də iqtisadi və sosial inkişafın güclənməsinə töhfə verirlər".

AQEM-in baş katibinin müavini Zhang Ling qeyd edib ki, Azərbaycanın sədrliyi dövründə universitetlər arasında əməkdaşlıqla bağlı yeni təşəbbüs irəli sürülüb. "Bu



təşəbbüsə bütün universitetlər qoşula bilər və o, tədqiqat sahəsində əməkdaşlığın genişlənməsinə xidmət edir. Təşəbbüs dayanıqlı inkişaf, iqlim dəyişmələri və digər müvafiq istiqamətləri əhatə edir. Universitetlər yalnız bilik mərkəzləri kimi deyil, həm də faktlara əsaslanan siyasətlərin formalaşdırılmasına təkan verən vacib institutlar kimi çıxış edirlər. Gənclərimiz isə müasir çağırışlara cavab verən yeni ideya və yanaşmaların əsas daşıyıcılarıdır", - deyə baş katibin müavini əlavə edib.

Azərbaycan xarici işlər nazirinin müavini, COP29 üzrə baş danışıqçı Yalçın Rəfiyev qeyd edib ki, sədrlik dövründə əlaqələrin möhkəmləndirilməsi, rəqəmsallaşma və Asiyada dayanıqlı inkişafın təşviqi əsas prioritetlər kimi müəyyən edilib. Rəqəmsal həllər üzərində fəal iş aparılıb. Azərbaycan çoxtərəfli əməkdaşlıq formatında öz ənənəsini davam etdirərək il ərzində təşkilat çərçivəsində mühüm və uğurlu addımlar atıb: "Bu müddətdə AQEM-in Qadınlar Şurası yaradılıb və Maliyyə Sammiti təsis edilib. Hər iki qurum gələcəkdə də təşkilat daxilində əməkdaşlığın dərinləşməsinə töhfə verəcək. Bununla yanaşı, Azərbaycan ötən ay Gənclər Təşkilatının 8-ci toplantısını, həmçinin AQEM-in Biznes Şurasının 8-ci iclasını keçirib. Bütün bunlar göstərir ki, Azərbaycan sədrlik çərçivəsində öz iddialı məqsədlərinə nail olub. Hazırda isə AQEM-in Baş Assambleyasının keçirilməsi planlaşdırılır".

Çıxışlarda iqlim dəyişikliklərinə qarşı mübarizədə ali təhsilin artan rolu, regional həmrəyliyin əhəmiyyəti və COP29 çərçivəsində əldə olunan nəticələr vurğulanıb.

Proqramın "Ali təhsilin "yaşıl enerji"yə və dayanıqlılığa təsiri" mövzusuna həsr olunmuş ilk panelində Azərbaycan, Özbəkistan, Tailand, İordaniya, Çin və Vyetnamdan olan iştirakçılar "yaşıl enerji" sahəsində ali təhsil müəssisələrinin rolu, davamlı inkişaf strategiyaları və universitetlərarası əməkdaşlıq imkanları barədə müzakirələr aparıblar.

Konfrans çərçivəsində Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və ADA Universiteti tərəfindən 2025-ci ilin sentyabr ayından başlanılan "Yaşıl və dayanıqlı bərpa: Azərbaycan təcrübəsi" adlı birgə tədqiqat layihəsi təqdim olunub. Layihə Ağdam, Füzuli, Şuşa və Zəngilan rayonlarında keçmiş məcburi köçkünlərlə aparılmış sorğular əsasında onların sosial-iqtisadi ehtiyacları, dayanıqlı inkişaf istiqamətləri üzrə tövsiyələr və innovativ yanaşmaları əhatə edir.

Paneldə həmçinin Azərbaycan Prezidentinin Ağdam, Füzuli və Xocavənd rayonlarında Xüsusi Nümayəndəliyinin baş məsləhətçisi Şamxal Muxtarov və Prezidentin Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Xüsusi Nümayəndəliyinin baş məsləhətçisi Nərgiz Qaracayeva çıxış edərək işğaldan azad olunan ərazilərdə dayanıqlı inkişaf, "ağıllı kənd" konsepsiyası və ekoloji bərpa istiqamətində görülən işlər barədə məlumat veriblər.

# MÜSTƏQİLLİYİMİZİN RƏMZİNƏ ÇEVRİLMİŞ "AZƏRBAYCAN"

**Azərbaycanın "Azərbaycan"ı 10.000-ci dəfədir ki, işıq üzü görür!**

**10.000-ci dəfədir ki, öz oxucuları ilə görüşür!**

**Bütün təlatümlərdən keçməklə qəzet ömrünün 10.000-ci sayına imza atır!**

*Doğuşu ötən əsrin əvvəllərinə - Azərbaycan Xalq Cümhuriyyətinin təşəkkül dövrünə təsadüf etdi.*

*Elə taleyi də cümhuriyyətin taleyinə bənzədi...*

**Hətta dövlət müstəqilliyimizin qeyri-rəsmi rəmzinə çevrildi:**

- Müstəqil dövlət olduq - "Azərbaycan" yaşadı, fəaliyyət göstərdi!
- Dövlət müstəqilliyimizi itirdik - "Azərbaycan"ın nəşri dayandırıldı, arxivlərin küncündə gizlədilərək "məxfi" qrifi altında saxlanıldı, kimsənin onu görməsinə, oxumasına yol verilmədi!
- Azərbaycan yenidən dövlət müstəqilliyi qazandıqdan sonra isə "Azərbaycan" yeni ömrünə, yeni dövrünə başladı!

*Dünyaya göz açdığı dövr nə qədər şərəfli tarix olsa da, maneə və çətinliklərdən, ciddi problemlərdən də xali deyildi!*

**Azərbaycan Xalq Cümhuriyyəti 28 may 1918-ci ildə Tiflisdə "İstiqlal Bəyannaməsi"ni qəbul edərək müstəqilliyini elan etdi.**

O zaman Bakı hələ də bolşevik-daşnak qüvvələrinin əlində idi.

Odur ki, paytaxt müvəqqəti olaraq Gəncədə yerləşirdi.

Zaman isə gözləmirdi...

Yeni dövrün yeni qəzetini buraxmaq, yeni hökumətin gördüyü işləri xalqa çatdırmaq, insanları səfərbərliyə almaq üçün yeni orqanın yaradılması zərurətə çevrilmişdi.

❖ ❖ ❖

*Qəzet yaratmağın üç mühüm şərti var: Maliyyə, kadr və texniki təminat.*

**Bu işin əsas icraçısı isə həmin dövrdə Gəncədə yerləşən, Fətəli xan Xoyskinin başçılıq etdiyi ikinci hökumət kabinəsində maarif və dini etiqad naziri Nəsib bəy Yusifbəyli oldu.**

Əvvəlcə kadr məsələsinə baxıldı.

Görkəmli mətbuat tədqiqatçısı, professor Şirməmməd Hüseynovun yazdığına görə, 1918-ci ilin mart qırğınları ərəfəsində Hacıbəylilər ailəsi İranın Ənzəli şəhərinə getmişdi. Elə ki, türk ordusu İrandan keçib Azərbaycana daxil olur, bir çox cavan da onlara qoşulub Gəncəyə gəlir.

*Həmin gənclərin arasında Ceyhun bəy Hacıbəyli və Şəfi bəy Rüstəmbəyli də vardı.*

*Nəsib bəy Yusifbəyli Ceyhun bəy Hacıbəylinin və Şəfi bəy Rüstəmbəylinin yaxşı qələmlərinin olduğunu bilirdi.*

Odur ki, hər ikisini dəvət edərək onlara "Azərbaycan" adlı qəzet çıxarmağı tapşırır.

Digər problem isə mətbəə ilə bağlı idi.

O dövrdə Gəncədə bir mətbəə vardı.

O da şriftləri rusca olan quberniya mətbəəsi idi.

**Azərbaycanca hürufat tapılmasında müəyyən çətinliklər olduğundan bir qədər gecikmə baş verir, "Azərbaycan" qəzetinin ilk nömrəsi 15 sentyabr 1918-ci ildə quberniya mətbəəsində çap olunur.**

*Qəzetin Gəncədə bütövlükdə 4 nömrəsi - 12 səhifə həcmində çap olunur.*

*Şrift problemindən həmin səhifələrin 9-u rus, 3-ü Azərbaycan dilində işıq üzü görür.*

Bununla da "Azərbaycan"ın Gəncə dövrü bitir.

Bakı işğaldan azad olunandan 2 gün sonra - sentyabrın 17-də Azərbaycan hökuməti Bakıya köçür.

**Fətəli xan Xoyskinin rəhbərlik etdiyi Nazirlər Şurası "Metropol" mehmanxanasında, "Azərbaycan" qəzetinin redaksiyası isə həmin bina ilə üzbəüz, Kolyubakinski (indiki Nigar Rəfibəyli) küçəsindəki Adamovlara məxsus yaşayış binasında yerləşir.**

Hökumət qəzetin maliyyə məsələsini də həll edir.

O dövrdə Bakıda ən yaxşı, müasir mətbəə Orucov qardaşlarına məxsus idi.

Cümhuriyyətçilər bolşeviklər kimi çapqınçılıq etmirlər!

Hətta parlament iclaslarının birində Orucov qardaşlarına mətbəə üçün büdcədən nə qədər pulun ödənilməsi müzakirə olunur.

*Mətbəənin pulunu verib hökumət mətbəəsinə çevirirlər.*

*Beləliklə, "Azərbaycan"ın Bakı dövrü başlayır.*




# 10.000-Cİ NÖMRƏ

❖ ❖ ❖

Sentyabrın 15-də Qafqaz İslam Ordusu ölkə paytaxtını azad edir.

İki gün sonra Gəncədən Bakıya köçən Azərbaycan hökuməti Nuru Paşanın dəvəti ilə qatarla Gəncədən Bakıya gəlir, paytaxtın qəhrəman əsgərlərimiz tərəfindən azad edilməsi münasibətilə mitinq keçirilir, bu münasibətlə Fətəli xan Xoyski təbrik nitqi söyləyir.

**"Azərbaycan" qəzetinin Bakıda çıxan ilk nömrəsi də məhz bu hadisəyə həsr edilmişdi!**

*Öz fəaliyyəti ilə "Azərbaycan" milli mətbuatımızın tarixində yeni cığır, yeni dövr açdı.*

Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabi "Əkinçi" qəzeti ilə Azərbaycan milli mətbuatının və jurnalistikasının əsasını qoydu. "Əkinçi" özünədək olmayan bir sıra məsələləri və mövzuları qəzet səhifəsinə çıxardı. Demokratik fikir və ideyaların, elm və maarifin təbliği, dini xurafata qarşı mübarizə yazıların ana xəttini təşkil edirdi. Lakin digər - "Əkinçi"yədək başqa qəzetlərdə olmayan mövzulardan da geniş bəhs olunurdu. Kənd təsərrüfatına dair bilgilərin təbliğinə, ana dili, poeziya, musiqi və s. məsələlərə müəyyən yer ayrılırdı.

"Əkinçi"dən sonra onun yolunu davam etdirən qəzet və jurnallar mövzu dairələrini daha da genişləndirdilər. Xüsusən 1905-1907-ci illər inqilabından sonra yaranan şərait nəticəsində meydana çıxan mətbu orqanlar məişətdən tutmuş siyasətədək, mədəniyyətdən iqtisadiyyatadək ən müxtəlif mövzularda yazmış, müzakirələr açmış, fikir və mövqelər bildirmişlər. "Kaspi", "İrşad", "Həyat", "Tazə həyat", "Tərəqqi", "Səda", "Açıq söz" qəzetləri, pedaqoji və uşaq jurnalları, daha sonralar müxtəlif partiyalara məxsus nəşrlər mövzu palitrasını daha da zənginləşdirdilər. "Molla Nəsrəddin" jurnalının yaranması ilə Azərbaycanda satiranın və felyeton janrının inkişafına yeni nəfəs gəldi. "Molla Nəsrəddin" ədəbi məktəbi, "mollanəsrəddinçi"lər adlı yeni qələm əhli söz meydanında mövqe qazandı. Bütün bunlar dünyada gedən proseslərin nəticəsi, Azərbaycan ziyalılarının və jurnalistlərinin xalqın inkişafı yolunda gördükləri işlərin real bəhrəsi idi.

**Bunlardan sonra yaranmasına baxmayaraq, "Azərbaycan" qəzetlər bolluğunda öz yerini tutmağa, milli mətbuatımıza yeni nəfəs və istiqamət gətirməyə, jurnalistikamızı janr və tematika cəhətdən daha da zənginləşdirməyə nail oldu. Qəzet fərdi maraqlara, partiya mənafeyinə yox, bütövlükdə dövlətə, xalqa xidmət etməyə başladı.**

*"Azərbaycan"ın ilk redaktoru Ceyhun bəy Hacıbəyli bu məqamı nəzərdə tutaraq yazırdı: "Azərbaycan" bir firqənin, bir sinfin və ya bir kastanın orqanı deyildi. "Azərbaycan" milli bir orqan idi və feilən rəsmi hökumət heyətinin rəy və mülahizəsini izah edəcəyinə öz yolunu sərbəstcəsinə cızıb, öz qənaətini bəyan edirdi".*

Bütün bu dəyişikliklərin əsasında o vaxtadək olmayan hadisələrin baş verməsi, qəzetin qarşısında yeni vəzifələrin dayanması, ona yeni tələblər verilməsi dururdu.

*Əvvəla,* tarixdə ilk dəfə olaraq Azərbaycan xalqı özünə müstəqil dövlət qurmuş, parlament yaratmış və demokratik inkişaf yolunu tutmuşdu.

*İkincisi,* "Azərbaycan" heç bir fərdə, siyasi partiyaya, qrupa məxsus olmayan, müstəqil dövlətə və onun maraqlarına xidmət edən yeni tipli qəzet idi.

*Ən nəhayət,* həmin dövrdə ilk dəfə baş verən hadisələr və proseslər qəzetin mövzu və janr cəhətdən dəyişməsini, yeniləşməsini tələb edirdi.

❖ ❖ ❖

Rəsmi dövlət qəzeti statusu ilə çıxan hər bir orqanın hər sözü dövlətin sözü sayılır. Odur ki, mövqeyi daim təmsil etdiyi dövlətin siyasəti ilə üst-üstə düşməlidir.

*Təbii ki, müstəqil dövlət ilk dəfə qurulduğundan "dövlət mövqeli qəzet" anlayışı da yeni idi.*

*"Azərbaycan"ın qarşısında duran birnömrəli vəzifə dövlətin gördüyü işləri xalqa çatdırmaq və izah etmək sayılırdı!*

*"Azərbaycan" bu vəzifənin öhdəsindən uğurla gəldi.*

Azərbaycan Məclisi-Məbusanının fəaliyyətinə başlaması da dövr üçün təzə hal sayılırdı.

Parlamentin işi, müzakirə olunan məsələlər, fikir çarpışmaları, parlament mədəniyyətinin formalaşması, qəbul edilən hüquqi aktlar və onların mahiyyəti - bütün bunlar da yeni mövzular və məsələlər idi.

**Bu mövzuların işıqlandırılmasında qəzetin redaktoru Üzeyir bəy Hacıbəylinin xüsusi xidmətləri olmuşdur. "Azərbaycan"da ayrı-ayrı iclasların stenoqrafik hesabatları ilə yanaşı, Üzeyir bəy tərəfindən peşəkarlıqla hazırlanan "Parlament hesabatları" da müntəzəm surətdə dərc edilirdi.**

Bu gün həmin hesabatları oxumaqla Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin fəaliyyəti barədə geniş bilgilərə malik olmaq mümkündür.

❖ ❖ ❖

Hər bir qəzetin özü üçün müəyyən etdiyi hədəflər, qarşısında qoyduğu vəzifələr, habelə işıqlandırmalı olduğu mövzuların və məsələlərin "sanbal yükü" bir sıra parametrlərə təsir göstərir.

"Azərbaycan" qəzeti də yaranışından bu günədək qarşısına qoyulan tələblərə cavab verməyə çalışıb və daim buna uyğun yaradıcı kollektivi formalaşıb.

*Rəsmi dövlət qəzeti statusu daşıdığından "Azərbaycan"da səsləndirilən hər bir fikir, yanaşma, mövqe hökmən dövlətin siyasəti ilə üst-üstə düşməlidir. "Fikir azadlığı", "fikir plüralizmi", "sərbəst düşüncə" və s. kimi demokratik qayda və prinsiplərə hörmətlə yanaşsa da, "Azərbaycan" üçün iki və ya çoxmövqelilik tamamilə yaddır.*

**Dövlətin qəbul etdiyi qərarlar, dövlət başçısının fərmanı, sərəncamı və tapşırıqları "Azərbaycan"da müzakirə edilmir, yalnız təbliğ olunur, oxucuya çatdırılır!**

Yeri gəlmişkən, jurnalistikamız üçün "sirr kimi" görünən bir məqama da toxunmaq istərdik.

"Azərbaycan" qəzetində faktların təqdimi, şərhi, məsələyə yanaşmada xüsusilik, habelə materialların tərtibi, hansı səhifədə, hətta səhifənin harasında yerləşdirilməsi, ardıcıllığı və dizaynı ilə bağlı çox ciddi qayda və prinsiplər mövcuddur. Bunları bir yerə toplayıb sistemə salsan və "ümumi qaydalar" formasında tərtib etsən, heç qəzetin bir nömrəsinə belə sığışmaz! Lakin həmin qayda və prinsiplər heç bir jurnalistika nəzəriyyəsində yazılmayıb, jurnalistikaya dair heç bir dərsliyə düşməyib.

Deməli, bu qayda və prinsiplər heç bir universitetin jurnalistika fakültəsi və şöbələrində tədris edilmir, öyrənilmir.

**Bunların böyük əksəriyyəti Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib, "yazılmamış qanun" səviyyəsinə yüksəlib!**

*Ulu Öndər həm də biz jurnalistlərin yaxın dostu idi, mətbuatla daim təmas qururdu. Bütün görüşlərində, nitq, məruzə və çıxışlarında daim mətbuat işçilərini nəzərə alırdı.*

❖ ❖ ❖

Cümhuriyyət dövründə "Azərbaycan" qəzetinin (Azərbaycan və rus dili variantlarının) dörd redaktoru olub. Nömrələr üzrə redaktorlar belə paylaşıb; 6-cı nömrədən "Azərbaycan", 5-ci nömrədən isə rus dilindəki "Azərbaycan"ın redaktorları Ceyhun bəy Hacıbəyli və Şəfi bəy Rüstəmbəyli, 50-ci nömrədə müdir göstərilmir, 51-ci nömrədən 1919-cu ilin 16 yanvarında çıxmış 89-cu nömrəyə qədər müdir və baş mühərrir Ceyhun bəy Hacıbəyli, 89-cu nömrədən 4 iyul 1919-cu il tarixli 216-cı nömrəyə qədər müvəqqəti müdir Üzeyir bəy Hacıbəyli, 4 iyul 216-cı nömrədən 1 sentyabr 265-ci nömrəyə qədər müvəqqəti müdir Xəlil İbrahim, 1 sentyabr 265-ci nömrədən 31 dekabr 1919-cu il tarixli 358-ci nömrəyə və 1 yanvardan 27 aprel 1920-ci il tarixli 85-ci nömrə də daxil olmaqla müdir Üzeyir bəy Hacıbəyli olmuşdur.

**"Azərbaycan"ın ana dilində sonuncu nömrəsi 27 aprel 1920-ci ildə, rus dili variantının son nömrəsi isə 28 aprel 1920-ci ildə çıxdı.**

*Nahaq qan tökülməsinə, günahsız insanların ölümünə yol verməmək üçün Milli Şura hakimiyyətin könüllü şəkildə XI Qızıl Orduya təhvil verilməsi barədə qərar qəbul etdi.*

**Beləliklə, Azərbaycanın dövlət müstəqilliyi süquta uğradı, "Azərbaycan" qəzetinin nəşri dayandırıldı.**

❖ ❖ ❖

28 apreldən qapadılan "Azərbaycan" qəzeti arxivlərin ən qaranlıq və əlçatmaz küncünə atıldı, üzərinə "qadağa" qrifi qoyuldu, nəinki xalqdan, hətta alim və tədqiqatçılardan da gizlədildi. 72 il ərzində "Azərbaycan"dan danışmaq, yazmaq, oradakı məqalələri oxumaq qorxulu sayılırdı. Qəzetin 443 nömrəsi elə gizlədilib, təhlükəli elan edilib ki, indi də onun bütün nömrələrini tapmaq mümkün deyil.

*Sovet dövründə təkcə qəzetin çapdan çıxmış nömrələri, redaktorları deyil, müəllifləri də təqiblərə, repressiyaya məruz qalmışdır.*

Əlbəttə, onlar təkcə vaxtilə "Azərbaycan"a yazdıqlarına görə cəzalandırılmırdılar. Əslində, həmin insanlar işıqlı zəka sahibləri, xalqımızın qaymaq ziyalıları idilər.

❖ ❖ ❖

Uzun illər qadağa altında qalan "Azərbaycan" bu gün müstəqil dövlətimizin uğur və nailiyyətlərindən, demokratik dövlət quruculuğu, mətbuat və söz azadlığından, jurnalistlərə qayğıdan və xalqın rifahının yüksəldilməsindən, idman və mədəniyyət sahəsindəki könül oxşayan yeniliklərdən məhəbbət və yaradıcılıqla söhbət açır.

"Azərbaycan" qəzeti Ümummilli Lider Heydər Əliyevin şərəfli irsinin geniş oxucu kütləsinə çatdırılmasında fəal rol oynayır. Azərbaycan jurnalistikasının tarixi ənənələrini layiqincə davam etdirən qəzet bu gün respublikada əldə edilən iqtisadi-sosial yüksəlişin, uğurla yürüdülən siyasi və demokratik islahatların təbliğatçısı kimi çıxış edir, ölkədə baş verən ictimai-siyasi prosesləri, hüquqi-dünyəvi dövlət quruculuğunda qazanılan nailiyyətləri, gerçəkləşən beynəlxalq layihələri səhifələrində yüksək peşəkarlıqla, obyektiv işıqlandırır.

❖ ❖ ❖

**İkinci dəfə dövlət müstəqilliyi qazanıldıqdan sonra "Azərbaycan"ın əvvəlcə "Həyat" (440 nömrə), daha sonra isə öz adına və dövriyyə sayına sahib çıxmaqla indiyədək 10.000 (onun 443 nömrəsi 1918-1920-ci illər, 9557 nömrəsi 1992-ci ildən bu günədək) nömrəsi işıq üzü görmüşdür.**

"Azərbaycan" həm də ən dəqiq, ən doğru, ən etibarlı və ən ədalətli arxivdir!

Birinci dövründə olduğu kimi, ikinci dövr fəaliyyətində də dövlətin gördüyü işlər, baş verən hadisələr, qəbul olunan bütün hüquqi aktlar onun səhifələrində saxlanılmaqdadır.

Bu mənada "Azərbaycan" həm də gələcək nəsillər üçün qiymətli bir salnamədir.

❖ ❖ ❖

**44 günlük Zəfər müharibəsi "Azərbaycan" qəzeti və "Azərbaycan"çılar üçün də bir sınaq oldu.**

Qəzet nömrələrinin bir qisminin hazırlanması və səhifələnməsi bəzən səhər saat 4-ə, 5-ə və daha çox çəkirdi.

Ancaq bu, kimsəni yormurdu.

Çünki hamı bilirdi ki, hərbi əməliyyatlar barədə ən doğru, ən əhəmiyyətli, ən sevindirici və etibarlı xəbərləri oxucularımıza çatdırırıq.

Bunun özü də böyük bir sevinc və fərəhdir!

Həm 44 gündə baş verənlər "Azərbaycan"ın səhifələrində tarixi salnaməyə çevriləcək, həm də gələcək nəsillərə çatdırılacaqdır!

*44 gün ərzində:*

- Cəbhə bölgəsində hər gün baş verən hadisə və yeniliklər;
- Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa etdiyi müraciətlər;
- Dövlət başçısının dünyanın hər yerindən gəlmiş müxbir və jurnalistlərə verdiyi müsahibələr;
- Müdafiə Nazirliyinin informasiya və brifinqləri;
- Hərbi əməliyyatlarla bağlı bütün yeniliklər operativ qaydada dərc olunurdu.

**İlk dəfə olaraq, həm də məhz müharibə ilə bağlı "Azərbaycan" qəzetinin xüsusi buraxılışları oldu.**

*Döyüşlərdə qəhrəmanlıqlar göstərərək fərqlənənlərin, dövlət mükafatlarına layiq görülənlərin adlı siyahısı qəzetimizin 30 dekabr 2020-ci il tarixli 40 səhifəlik nömrəsində dərc edildi.*

**Vətən müharibəsində şəhid olan əsgər və zabitlərimizin tam siyahısı mətbuat tarixində ilk dəfə olaraq "Azərbaycan" qəzetinin 25 iyun 2021-ci il tarixli 94 səhifəlik xüsusi buraxılışında verildi!**

Bütün Azərbaycan xalqı kimi, "Azərbaycan" qəzeti üçün də böyük sevinc və fərəhdir ki, 10.000-ci nömrəsini 30 illik işğala son qoyulduğu, ölkəmizin ərazi bütövlüyü və dövlət suverenliyinin təmin olunduğu bir zamanda qeyd edir.

- Bu gün Azərbaycan qalib dövlətdir.
- Bu gün Azərbaycan Cənubi Qafqazda söz sahibidir.
- Bu gün Azərbaycan beynəlxalq transmilli layihələri uğurla reallaşdıran qüdrətli bir dövlətdir!
- Bu gün Azərbaycana dünyada böyük siyasi nüfuzu olan, dünya liderləri arasında sayılıb-seçilən İlham Əliyev kimi siyasət nəhəngi rəhbərlik edir!

"Azərbaycan" bütün bunlar barədə hər bir nömrəsində sevinc və fərəhlə, konkret faktlar əsasında rəngarəng materiallar dərc edir.

Şərəfli tariximizin səhifələrinə çevrilən "Azərbaycan"ın bütün nömrələri vətənə, dövlətə və xalqa xidmətin bir nümunəsidir!

**Bəxtiyar SADIQOV**

# MÜSTƏQİLLİYİMİZİN RƏMZİNƏ ÇEVRİLMİŞ "AZƏRBAYCAN"

## Unudulmayan tarixlə gələcəyə doğru...

**Yandırılmış evlər, viran qoyulmuş, xarabalığa çevrilmiş yurdlar, amansızlıqla qanına qəltan edilən azərbaycanlıların dərdi-ələmi, yaralananların fəryadı... Azərbaycan xalqına şəhidlərinin yasını saxlamağa, yaralıları sağaltmağa belə macal vermirdilər. Çünki Azərbaycanın əksər ərazisində erməni-daşnak silahlı qüvvələrinin amansızlıqla törətdikləri dəhşətli cinayətlər hələ də davam edirdi... 1918-ci il mayın 26-da Cümhuriyyət hökuməti qurulanda Azərbaycanın vəziyyəti belə idi.**

Müstəqil hökumət Tiflis şəhərində İstiqlal Bəyannaməsi elan etməklə öz varlığını dünyaya car çəkdi. Həmin şəhərdə də ilk qərarlarını verdi, ilk addımlarını atdı. Paytaxtı daşnak Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı Xalq Komissarları Sovetinin əlində olduğu üçün Azərbaycan Milli Şurasının üzvləri və Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci il iyunun 16-da Gəncədə yerləşib orada fəaliyyət göstərməli oldu. 1918-ci il iyulun 31-də Bakı Kommunası səlahiyyəti öz üzərindən götürdükdən sonra Bakıda əks-inqilabçı Sentrokaspi diktaturası yarandı. Bundan sonra da bolşevizm pərdəsi altında Azərbaycan xalqına qarşı soyqırımı davam etdirildi...

Cümhuriyyət hökuməti çox çətin bir dövrdə bərqərar oldu. Gənc, müstəqli hökumət ölkənin həm daxilindəki, həm də xaricindəki düşmənlərinə qarşı mübarizə aparmaq məcburiyyətində qaldı. Azərbaycan Xalq Cümhuriyyəti hökumətini təşkil etmək, parlament formalaşdırmaq, daxili və xarici siyasəti müəyyənləşdirmək, iqtisadiyyatı tənzimləmək, dövləti idarəetmə qurumlarını yaratmaq, ordu qurmaq və digər işlərin həyata keçirlməsi mühüm olduğu qədər də təxirəsalınmaz idi.

Belə məsuliyyətli bir dövrdə mətbuatın əhəmiyyətini də unutmaq olmazdı. Odur ki, yeni formalaşmış hökumət 1918-ci il iyulun 3-də özünün mətbu orqanı kimi "Azərbaycan Cümhuriyyəti hökumətinin xəbərləri" adlı nəşri buraxmaq barədə qərar verdi. Sonradan "Azərbaycan" qəzeti parlamentin orqanı kimi fəaliyyət göstərdi.

Ümumiyyətlə, Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyəti dövründə müstəqil və demokratik mətbuat mühiti yaratmağa müvəffəq oldu. Həmin illərdə ölkədə 100-ə yaxın müxtəlif adda qəzet və jurnal işıq üzü gördü. Cümhuriyyət dövrü mətbuatı yalnız say deyil, eyni zamanda keyfiyyət baxımından da diqqətçəkicidir. Onların arasında Azərbaycan Xalq Cümhuriyyətinin ən yaxın məslək, ideya yoldaşı, dövlətin cəfakeş və düzgün təbliğatçısı "Azərbaycan" qəzeti özünəməxsus, əhəmiyyətli yer tutdu.

"Azərbaycan"ın ilk sayı Milli Ordu və Qafqaz İslam Ordusunun Bakı şəhərini daşnak-bolşevik birləşmələrinin işğalından azad etdikləri bayram əhvali-ruhiyyəli bir gündə - 1918-ci il sentyabrın 15-də Gəncə qubernatorunun mətbəəsində çap edildi. İki səhifəsi Azərbaycan, iki səhifəsi isə rus dilində olan dördsəhifəlik qəzet oxucuların görüşünə sevinclə gəldi.

Ceyhun bəy Hacıbəylinin və Şəfi bəy Rüstəmbəylinin redaktorluğu ilə fəaliyyət göstərən, Üzeyir bəy Hacıbəyli, Məhəmməd Əmin Rəsulzadə, Xəlil İbrahim, Fərhad Ağazadə, Adilxan Ziyadxan, Əliabbas Müznib, Şəfiqə Əfəndizadənin, Əhməd Cavad, Cəfər Cabbarlı və başqa millət sevdalı vətənpərvərlərin yazılarının dərc olunduğu "Azərbaycan" qısa müddətdə milli problemlərin səsləndirildiyi möhtəşəm tribunaya çevrildi.

Cümhuriyyət hökumətinin ağır problemlərindən biri də, əslində, ən böyüyü və ən müşkülü təcavüzkar ermənilərin ölkəmizin əksər bölgəsində azərbaycanlılara qarşı amansızlıqla həyata keçirdikləri soyqırımları, qırğınlar, qətliamlar idi. Həmin dövrdə Azərbaycanın qədim guşələrindən biri olan Qarabağdan da dəhşətli xəbərlər gəlirdi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri Əlimərdan bəy Topçubaşov 1918-ci il noyabrın 18-də İstanbulda Osmanlı dövlətinin xarici işlər naziri ilə danışıqlar zamanı vurğuladı: "Ermənilərin ortaya atdıqları Qarabağ məsələsi 5 ya 10 kənd məsələsi deyil, mübahisə bütöv 4 sancaq - Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur üstündədir. Bu elə bir xanlığın ərazisidir ki, burada erməni və müsəlmanların sayı bərabər olmasa da, hər halda ermənilərin mütləq çoxluğu barədə danışmağa əsas yoxdur, özü də onlar buranın yerli əhalisi deyildirlər. Rusiya ilə müharibədən sonra Türkiyədən buraya köçənlərdir… Nəhayət, Qarabağın özündə ermənilər yığcam halda yaşamırlar, müsəlmanlarla qarışıq məskunlaşıblar. Bununla belə, biz məsələnin sülh yolu ilə həlli tərəfdarıyıq".

Qəsbkar ermənilər isə sülhün, sabitliyin tərəfdarı olmadıqlarını cinayətkar əməlləri ilə təsdiq edirdilər.

"Azərbaycan" qəzetində verilən xəbərlər Qarabağda vəziyyətin gərgin olduğunu, ermənilərin azərbaycanlıları dinc yaşamağa qoymadığını, hər gün yeni-yeni faciələr törətdiklərini təsdiqləyir. Qəzetin 5 dekabr 1918-ci il tarixli 56-cı sayında "Qarabağ əhvalı" başlığı ilə oxuculara xəbər verilirdi: "Ağdam Milli Komitəsindən və Ağdamda yaşayan Şuşa şəhəri sakinləri tərəfindən Azərbaycan Hökumətinə gələn teleqramlardan görünür ki, Zəngəzur, Şuşa, Cəbrayıl və Cavanşir qəzalarının dağbasar hissələrində toplanmış olan erməni üsyançıları tərəfindən müsəlman əhalisinə olmazın zülmlər edilir. Andranikin dəstəsi Şuşaya hücuma hazırlanır və əlyövm Şuşanın 20 çağırımlıq (verst) bir məsafəsində "Müsəlmanlar" adlanan mövqedə vuruşma gedir. Yuxarıda adları yazılmış qəzaların erməniləri də Andranikin dəstəsinə qoşularaq əməliyyatda iştirak edirlər". Bu hadisələrin əhalinin həyəcanına və işdən-gücdən qalmasına səbəb olduğu bildirilirdi. Yaranmış vəziyyətə görə, Ağdam Milli Komitəsi teleqraflarla hökumətə müraciət edərək təcili tədbirlər görülməsini rica edirdi.

"Azərbaycan" rəsmi dövlət qəzeti idi. Bu mətbu orqanda qərarlar, qanunlar, rəsmi sənədlər, eyni zamanda səlahiyyətli şəxslərə və orqanlara ünvanlanmış məktublar, teleqramların surətləri dərc olunurdu. Qəzetin 6 dekabr tarixli 57-ci sayında yer verilmiş iki teleqram bu qəbildən idi. Birinci teleqram Qaryagindən Cəbrayıl qəzası müsəlmanlarının nümayəndələri: Hüseynbəyov, Cəmil Vəzirov, Ağayev və Eyvazovun göndərdiyi teleqramda bildirilirdi: "Bir neçə gündür ki, Zəngəzur qəzasında müsəlmanları Andranik dəstələri kəsməkdədirlər. İşbu kəndlər dağılıb yığma edilmişdir:

Aldərə, Tanzətap, Tuğut, Sanalı, Bitnazir, Qarzaniyəm, Şamovlu, Razidərə və qeyri. Başqa kəndləri də bu fəlakət gözləməkdədir. Bir çox ölən və yaralanan vardır. Fəlakətdən nicat tapmış əhalinin bir hissəsi İrana keçmiş, bir hissəsi isə Arazboyu yerlərində məskənsiz sərgərdan dolaşırlar". Belə fəlakətin Cəbrayıl və Şuşa qəzasını da təhdid altına alacağının qaçılmaz olduğu, Andranikin dəstəsinin müsəlmanları qırmağı qət etdiyi həyacanla vurğulanır, Müttəfiqlər və Azərbaycan Cümhuriyyəti nümayəndlərindən ibarət bir komisyanın göndərilməsi barəsində lazımi tədbirlərin görülməsi rica edilirdi. Komisyanın öz yerində erməni zülmləri ilə tanış ola biləcəkləri qeyd olunurdu.

İkinci teleqram isə Cəbrayıldan, Milli Şura sədri Cəmil Sultanovdan gəlmişdi. Məzmunu belədir: "Zəngəzurda ermənilər əllidən ziyadə müsəlman kəndini dağıtmışlardır. Ölən və yaralananların hesabı minlərlədir.

*Ardı 7-ci səh.*

# Şanlı dövrün sənədli tarixi




**1918-ci il 15 sentyabr tarixi Bakının işğaldan azad edilməsi ilə yanaşı, digər mühüm bir faktla da əlamətdardır. Həmin tarixdə Azərbaycan Xalq Cümhuriyyətinin dəyərli yadigarlarından olan "Azərbaycan" qəzetinin ilk nömrəsi işıq üzü gördü. Qəzetin keçib gəldiyi uzun yol xalqın milli inkişaf tarixinin yazılı salnaməsini yaradan, keçmişlə bu gün, bu günlə gələcək arasında mənəvi körpü rolunu oynayan, nəsillərdən nəsillərə soraq gətirən bir mətbu orqanın ictimai düşüncəmizdə nə qədər böyük əhəmiyyət kəsb etdiyini göstərdi.**

Qəzet zəmanəsinin tanınmış ziyalılarının, maarifçilərinin, millət sevdalılarının bir araya gəldikləri düşüncə mərkəzi idi. "Azərbaycan"ın fəaliyyət hədəfi də onun adında cəmləşib. Qədim və doğma torpağının rəsmi səsi və sözü məsuliyyətini daşımaq bir qəzet üçün çox böyük və müqəddəs bir işdir. Müstəqilliyin ən əhəmiyyətli göstəricilərindən biri onun söz demək, başqaları arasında səsini eşitdirmək haqqıdır. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurulanda bu missiya üçün təsis edilən rəsmi mətbuat orqanı "Azərbaycan" qəzeti oldu.

"Azərbaycan" böyük bir ictimai tribuna oldu. Xalq Cümhuriyyətinin varlığı dövründə bu mətbuat orqanı da dövlətin taleyini yaşadı. O zaman xeyli qəzet və jurnal fəaliyyətə başlasa da, "Azərbaycan" onlardan fərqlənirdi. Yeni olan bu nəşr məhz müstəqil cümhuriyyətin yaranması ilə meydana çıxmışdı, onun səsi və sözü idi. Digər mühüm fərq "Azərbaycan" qəzetinin yeni dövlətin parlamentinin rəsmi mətbu orqanı olması idi.



Qəzetin 1918-ci il 7 dekabr tarixli 58-ci sayında Üzeyir bəy Hacıbəyli "Tarixi günümüz" məqaləsində yazırdı: "Bu o gündür ki, Azərbaycan türklərinin Milli Məclisi, Milli Şurası açılıb. Azərbaycan təkmil bir hökumət şəklinə girir. Yüz-yüz əlli sənə bundan əvvəl müxtəlif xanlıqlardan ibarət olan Azərbaycan torpağının rus istilasından qazandığı bir mənfəət o oldu ki, bu torpaq üzərində qurulmuş olan saxta və əməli hüquqları silinib-süpürülmüş müttəhid və vəsi bir ərazi şəklinə girdi və bu gün xilas olub da iki milyon mütəcavüz nüfus ilə Azərbaycan Xalq Cümhuriyyəti namını daşımağa kəsbiləyaqət etdi. Bəs bu gün haman bu Azərbaycan Xalq Cümhuriyyətinin milli parlamanı açılmaqla təşkilat və tərtibati-siyasiyyəsi artıq itmama yetir. Belə olan surətdə, deməli, qəlbimizdə bəslədiyimiz ümid - parlamanımızdır. Və ümidvarıq ki, cavan parlamanımız bu ümidimizin hüsuli yolunda var qüvvəsilə çalışacaq və Vətənimizin istiqlal və azadlığına birinci səbəb olacaqdır".

Bu gün həmin rəsmi dövlət qəzeti olan "Azərbaycan"nın 10.000-ci nömrəsi nəşr olunur. İlk baxışdan bu, bəlkə də adi bir rəqəm kimi görünə bilər. Amma bu rəqəmlərin hər birinin arxasında illərin tarixi, müstəqil Azərbaycan dövlətinin sətir-sətir yazılan milli dövlətçilik salnaməsi, qəzetin hər nömrəsində sənədləşən böyük bir irs durur. "Azərbaycan" qəzetinin 10.000-ci nömrəsinin hər biri bu tarixi öyrənmək, tədqiq etmək, qəzetin mövcud olduğu bütün dövrlərin aydın mənzərəsini yaratmaq üçün ən mötəbər istinadgahlardandır.

### Cümhuriyyətin ən dəyərli yadigarı

Bu mətbuat orqanı ömrü cəmi 23 ay sürən Azərbaycan Xalq Cümhuriyyətinin ən qiymətli yadigarlarından biridir, eləcə də onun hüquqi varisi kimi ötən əsrin sonlarına doğru yenidən istiqlalına qovuşan dövlətimizin məhək daşlarındandır.

Ətrafında dövrün ən qabaqcıl, tərəqqipərvər, vətənsevər ziyalılarını, ictimai xadimlərini birləşdirən qəzetin başlıca məramı onun ilk redaktorlarından birinin - Üzeyir bəy Hacıbəylinin dili ilə desək, tək bir partiyanın orqanı, dar siyasi xəttin daşıyıcısı kimi




fəaliyyət göstərmək deyil, bütövlükdə azərbaycançılığın, azərbaycançı fikir və əməllərin təntənəsi naminə, Vətənin istiqlalı yolunda çalışmaqdan ibarət olmuşdur. Bu baxımdan "Azərbaycan" qəzetinin dövlətin rəsmi mətbu orqanı kimi meydana çıxması ölkəmizin tarixinin mühüm hadisəsi hesab edilir. Xarakterikdir ki, həmin dövrdə nəşrin baş redaktorları Ceyhun bəy Hacıbəyli, Üzeyir bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli və Xəlil İbrahim gənc respublikanın obyektiv və ədalətli mövqeləri, həqiqətsevərlikləri ilə fərqlənən böyük ziyalıları olmuşlar. Təkcə qəzetin nəşrinə xeyli müddət rəhbərlik etmiş Üzeyir bəy Hacıbəylinin Azərbaycan tarixinə, siyasi və iqtisadi vəziyyətə, maarif və mədəniyyətə, milli-mədəni dəyərlərə, xarici və daxili düşmən qüvvələr tərəfindən məruz qaldığı haqsızlıq və təhdidlərə və sairə aid 200-ə yaxın məqaləsi bu mətbu orqanın səhifələrində yer almışdı. "Azərbaycan"ın müəllifləri sırasında zəmanəsinin ən böyük fikir adamları, qələm sahibləri vardı: Məmməd Əmin Rəsulzadə, Fətəli Xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağaoğlu, Ömər Faiq Nemanzadə, Məhəmməd Ağa Şahtaxtlı, Mirzəbala Məmmədzadə, Cəfər Cabbarlı, Əhməd Cavad, Məhəmməd Hadi, Əliabbas Müznib, Məmməd Sadıq Axundzadə, Seyid Hüseyn, Əmin Abid, Əli Yusif, Əli Şövqi, Fərhad Ağazadə, Adil Ziyadxanov, Hacı İbrahim Qasımov, Şəfiqə Əfəndizadə və başqaları...

"Azərbaycan" qəzetinin hər nömrəsində erməni məsələsi gündəmdə olub. Xalqımız tarixboyu erməni millətçilərinin ağır zərbələrinə məruz qalıb, hiylə və xəyanətlərinin qurbanına çevrilib.

Qəzetdə çıxan məqalələrdə 1918-1919-cu illərdə ermənilərin Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Qarabağda, Zəngəzurda törətdikləri qanlı əməllərin, müxtəlif təxribatların arxasındakı səbəblər üzə çıxarılmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin gələcəyini, ümumilikdə regionda sülh və təhlükəsizliklə bağlı niyyətləri təhdid edən bu əməllərin qarşısının alınmasından ötrü təkliflər verilmişdir. Xalqa yol göstərən bu publisistik yazılar tarixin ən çətin mübarizələr dövründə meydana çıxmış və ictimai-fəlsəfi fikrin inkişafında mühüm rol oynamışdır.

### Dövrün aktual problemləri "Azərbaycan"ın səhifələrində

Üzeyir bəy Hacıbəyli 1918-ci ildə "Azərbaycan" qəzetinə gələndə artıq özünü yetkin bir siyasi publisist və ictimai xadim kimi təsdiq etmişdi. 33 yaşlı yazarın hər gün baş verən hadisələrə baxışları da fərqli idi, problemləri səlist publisistik üslubda qələmə alırdı. O, xalqın həyatı, ruhi aləmi, mənəviyyatı, tarixi və mədəniyyəti ilə dərindən tanış idi, onun dərdlərini, ehtiyaclarını bilir və görürdü. Üzeyir bəyin publisistikasının xalqla, xalqın mübarizəsi, gündəlik problemləri ilə bağlı olması onun demokratik görüşlərinin saflaşmasına kömək etmişdir. Ədibin publisistik əsərləri üçün səciyyəvi olan ilk böyük keyfiyyət ideyalılıq, aydın məslək və əqidəlilik idi.

O, məqalələrindən birində - "Məslək nədir" adlı yazısında bu sualı belə cavablandırırdı: "Məslək - hər kəsin etiqad etdiyi bir yoldur. Ümumin xoşbəxtliyini, asayiş və məramını, rifah halını, tərəqqi və təkamülünü təqib edən hər bir məslək onun sahibi üçün müqəddəsədd olmalıdır". Üzeyir bəyə görə insan bu cür məsləkə sadiq qalmalı və ona xəyanət etməməlidir.

Böyük yazar həm gündəlik hadisələrdən bəhs edir, həm gələcəyə diqqət yönəldir, eyni zamanda qaranlıq mətləblərə işıq salır. Onun erməni məsələsi, Qarabağ hadisələri ilə bağlı xeyli məqaləlri çap olunmuşdur. "Əyri yol", "Qarabağ haqqında", "Fitnələr qarşısında", "Eyni müamilə gözləyirik", "Qara təhlükə", "Andranikin məsələsi", "Qarabağ hadisatı" və digər publisistik yazılarında Azərbaycanı parçalamağa, torpaqlarını işğal etməyə, əhalisini qırmağa cəhd edən qəddar, hiyləgər, təcavüzkar erməni mil-




lətçilərinin niyyəti uzaqgörənliklə açılıb göstərilirdi.

Ədib öz publisistikasında xalqı ehtiyatlı olmağa, istiqlaliyyətini qorumağa səsləyirdi. Bu yazıları indi oxuduqca sovetlərin onlara nə üçün qadağa qoyduğu aydın şəkildə dərk edilir. Ü.Hacıbəyli "Qara təhlükə" (Azərbaycan", 8 iyun 1919, №198) məqaləsində erməni daşnaklarının böyük faciələr yarada biləcək niyyətlərini, millətin üzərində yaranan qorxulu təhlükəni hiss edirdi. O yazırdı ki, millətin azadlığı və bütövlüyü onun mübarizə ruhundadır. Bu ruhu sarsıtmaq istəyənlər, Qafqazda güclü bir türk dövlətinin mövcudluğunu gözü götürməyənlər, bu tarixi reallığın qarşısını almağa çalışanlar çoxdur... Ədib bu cür bədxahların millətin azadlıq ideallarını, mübarizə əzmini sarsıda bilməyəcəklərini vurğulayaraq yazırdı: "Bir vaxt yetişər ki, millət bir ruh və bir cisim olub son və qəti qərarını elan edər".

"Azərbaycan" qəzetinin saralmış arxiv səhifələri böyük publisistin ürək ağrıları, həyəcanlı fikirləri, sarsıntıları ilə doludur. Onun milli azadlıq ideallarını tərənnüm edən, vətənpərvərlik ruhunda yazılmış publisistik əsərləri sanki bugünkü tariximizin aynasında öz əksini tapıb. O, "Qurtuluş" adlı məqaləsində yazırdı: "Qurtuluş və xilasımız yolunda canlarını qurban verib bizə bu dünyada cənnət arzulayıb, özlərini o dünyada behiştə vasil edən möhtərəm şəhidlərin əziz məzarları üzərinə fatiəxan olmaqla özlərini yad və ruhlarını şad etmək hər bir azərbaycanlının müqəddəs borcudur".

1918-ci il dekabrın 15-də "Azərbaycan" qəzetinin 65-ci nömrəsində "Andranikin məsələsi" adlı məqalə dərc edilir. Hacıbəyli Üzeyir imzası ilə çıxan yazının məzmunu həmin dövrdə Andranik Ozanyanın Azərbaycanın Naxçıvan, Culfa və Zəngəzur bölgələrində törətdiyi qətliamlarla bağlıdır. Üzeyir bəy məqaləsində ilk növbədə Andranikin kimliyi barədə məlumat verir, onu oxucularına tanıdır. Böyük yazar hesab edir ki, "bu insanlara qarşı ən düzgün davranış özünü də, dəstəsindəki digər quldurları da məhkəmə qarşısına çıxarıb layiq olduqları cəzaya çatdırmaqdır".




Qəzetdə digər mühüm məsələ - Azərbaycanda ordu quruculuğu işinin gücləndirilməsi, ölkənin müdafiə potensialının artırılması Üzeyir bəyin məqalələrində ana xətt kimi keçir: "Biz hər halda özümüzü qorumalıyıq və hüdudumuzu öylə möhkəm vəziyyətə salmalıyıq ki, hər dəli, qudurmuş soxulub bildiyini, istədiyini yapa bilməsin. Ümumi əhalimizin baxüsus hüdud və yaxınlığında olanların müdafiə və mühafizəsi üçün əlimizdə vasitələr lazımdır ki, hərəkətcə sürətə və fəaliyyətcə də qüvvətə malik olmaqla xalqımızı mütməinülqəlb etsin". Bu, xalqın müdafiəsinin möhkəmləndirilməsi ilə bağlı hökumət qarşısında qoyulan tələb idi.

Üzeyir bəy Hacıbəylinin "Azərbaycan" qəzetində dərc edilmiş məqalələri beynəlxalq aləmin Azərbaycanın istiqlalına münasibəti, ölkəmizin Xəzərdə iştirakı, cümhuriyyət hökumətinə müxalif qüvvələrin qeyri-konstruktiv davranışları və s. bu kimi mövzuları da əhatə edir. Yada salaq ki, cümhuriyyət dövründə xarici qüvvələrə bağlı ayrı-ayrı təxribatçı ünsürlər 1828-ci ildə imzalanmış Türkmənçay müqaviləsinə istinad edərək, Azərbaycanın Xəzərdə ticarət və hərbi gəmilər saxlamasına əngəl olmağa çalışırdılar. Üzeyir bəy isə "Azərbaycan" qəzetindəki "Əsassız tələb" ("Azərbaycan", 30 oktyabr 1919, № 309) adlı məqaləsi ilə bu iddianın tam yersiz olduğunu tutarlı dəlillərlə isbata yetirir və xüsusi vurğulayırdı ki, Azərbaycan üçün dəniz məsələsi can məsələsidir.

Ədib Azərbaycan Xalq Cümhuriyyətinə münasibətdə bəzi ölkələrin ikili siyasətinə də toxunur. Qə-




zetin 16 oktyabr 1919-cu il tarixli 298-ci nömrəsində işıq üzü görmüş "İki siyasət" adlı məqaləsində istiqlalımızı tanımış İngiltərə hökumətinin düzgün siyasətini təqdir etməklə yanaşı, Fransanın Azərbaycan və Gürcüstanın müstəqilliyini tanımamasını Birinci Dünya müharibəsində böyük sarsıntılar yaşamış bu ölkənin əsəbi siyasət yürütməsi ilə əlaqələndirir. Qeyd edir ki, ingilislər öz məqsədyönlü siyasətləri sayəsində Qafqazda, İranda, Türkiyədə böyük nüfuz qazanmaqda ikən Fransanın tutduğu yanlış mövqe həmin bölgədə təəccüb doğurur. Belə bir "yanaşmadan əsas itirən tərəf isə yenə də Fransanın özüdür".

Üzeyir bəy "Azərbaycan" qəzetində işıq üzü görmüş "Yersiz çıxış" adlı məqaləsində cümhuriyyətin qısa müddətdə gördüyü işləri ümumiləşdirir. Sosialistyönümlü siyasilərin milli hökumətə qarşı qərəzli çıxışlarını nəzərdən keçirir və yazır ki, Azərbaycanın bütün insaf sahiblərini rahatlıq və asudəliyə çağıran, xalqın rifahı üçün səmimi-qəlbdən, istirahət nə olduğunu bilmədən çalışan hökuməti və onun rəhbərini bacarıqsızlıqda ittiham etmək ya ağıl və insafdan xali olmaqdır, ya da başqa bir məqsəd güdməkdir.

*Ardı 7-ci səh.*

# MÜSTƏQİLLİYİMİZİN RƏMZİNƏ ÇEVRİLMİŞ "AZƏRBAYCAN"

# Şanlı dövrün sənədli tarixi

*Əvvəli 6-cı səh.*

### Parlaq imzalar

"Azərbaycan" qəzetinin indiyə qədər adı başqaları ilə müqayisədə az tanınmış müəlliflərindən biri Əli Şövqidir. "Azərbaycan" qəzetində tez-tez çıxış edən bu qələm sahibi əfsuslar olsun ki, çox yaşamadı. 1922-ci ildə o dövrün çox ağır mərəzlərindən sayılan vərəmə mübtəla olmasından xəbər tutması şairi bədbin ovqata salır və 1925-ci ildə Gəncədə vəfat edir.

"Azərbaycan"ın müəllifləri sırasında geniş jurnalistlik fəaliyyəti göstərən ziyalılardan biri də Əliabbas Müznibdir. Yazar XX əsr Azərbaycan ədəbi-ictimai fikir tarixində əbədiləşən şair, publisist, ədəbiyyatşünas, tərcüməçi idi. Cəmi 55 il ömür sürüb amansız repressiya "maşın"ına tuş gələn ədib günahsız ikən günahlı sayılıb güllələnir.

"Azərbaycan"çılar üçün Müznib yaradıcılığı ikiqat əzizdir. Çünki cümhuriyyət dövründə "Azərbaycan" qəzetinin səhifələrində onun bir çox dəyərli məqaləsi dərc olunub. O, qəzetdə türkçülüyün tarixi və cari məsələləri barədə silsilə məqalələrini dərc etdirib.

XX əsrin birinci yarısında yazıb-yaratmış yazıçı, tənqidçi, pedaqoq və jurnalist Seyid Hüseyn Sadiqin (Hüseyn Mir Kazım oğlu Sadıqzadə) mükəmməl qələm təcrübələri cümhuriyyət dövrünün "Azərbaycan" qəzetində də işıq üzü görüb.

Görkəmli yazar cümhuriyyət dövründə qələmə sarılaraq məhsuldar fəaliyyət göstərməyə başlamışdır. 1919-cu ildə erməni daşnaklarının vəhşicəsinə yandırdıqları abidələrdən biri də milyonçu Musa Nağıyevin oğlu İsmayılın xatirəsinə ucaltdığı "İsmailiyyə" binası idi. Millətə qənim kəsilən daşnaklar binanın sökülməsinə çalışırdılar. Bu qəsdin üstünü açmaq üçün o zaman Seyid Hüseyn "Həzin bir xatirə" və "İsmailiyyə" hekayələrini qələmə almışdı. Həmin hekayələr "Azərbaycan" qəzetində dərc olunmuşdu.

Azərbaycanın tanınmış şairi, Seyid Hüseynin ömür-gün yoldaşı Ümgülsüm Sadıqzadənin yaradıcılığında da ən məhsuldar dövr 1918-1920-ci illərə təsadüf edir. O, Xalq Cümhuriyyətinin qurulmasını sevinclə qarşılayır, şeirlərində xalqımızın milli istiqlala qovuşmasını tərənnüm edirdi. Əksəriyyəti "Azərbaycan" qəzetində dərc olunan "Türk ordusuna", "Çəkil, dəf ol!", "Əsgər anasına", "Dərdli nəğmə", "Yurdumuzun qəhrəmanlığına", "Yollarını bəklədim" və başqa şeirlərində milli istiqlalın qorunmasına çağırış ruhu yüksək səviyyədə qələmə alınmışdır. Şairin 1920-ci il aprelin 28-də cümhu-




riyyətin devrilməsi ilə bağlı yazdığı "Hicran" və "Bayrağım enərkən" şeirləri Azərbaycan ədəbiyyatının ən dəyərli əsərlərindən hesab olunur.

Ömər Faiq Nemanzadənin "Azərbaycan" qəzetinin müəllifi kimi fəaliyyəti xüsusi vurğulanmalıdır. Onun publisistik yaradıcılığında dil məsələlərinə həsr etdiyi məqalələr xüsusi yer tutur. "Dil yoxdur, millət yoxdur", "mən inanmıram ki, dilini sevməyən xalqını sevsin", "məhəbbətimizin ən üstün qatına dil məhəbbətini çıxarmalıyıq" və sair fikirləri böyük ziyalının ana dilinə olan sevgisinin ifadəsi idi.

Axır nəfəsinədək əqidəsindən dönməyən, məsləkinə sadiq qalan Şəfi bəy Rüstəmbəyli "Azərbaycan" qəzetinin tarixində parlamentə üzv seçilən ilk redaktor kimi də qalıb. Mühacir həyatı yaşayan digər görkəmli yazarımız, ictimai-siyasi xadim Ceyhun bəy Hacıbəyli Azərbaycana qayıda bilmir. Lakin son nəfəsinədək vətəninə xidmət edir, onun istiqlalı uğrunda ideoloji mücadilə aparır, yurdunun xoşməramlı və fədakar təmsilçisi olur.

Ədəbiyyat, mədəniyyət, ictimai xadim, görkəmli jurnalist, tənqidçi, teatrşünas, tərcüməçi Xəlil İbrahim 1937-ci ilin noyabrında həbs edilir, 1938-ci ilin martında "xalq düşməni" elan olunur və güllələnir. Göründüyü kimi, cümhuriyyətin süqutundan sonra onun müəllifləri də susdurulur.

Bu müəlliflərin "Azərbaycan" qəzetində dərc etdirdiyi yazılar Azərbaycanın bütövlüyünün qorunması, elm, təhsil məsələlərinin ön plana çəkilməsi, xalqın milli birliyi, insanların qəflət yuxusundan oyadılması, milli kimliyimizin, varlığımızın dərki, əhalinin sosial problemlərinin həlli kimi böyük arzuları ifadə edirdi. Bunlar "Azərbaycan" qəzetinin bütün müəlliflərini və onların timsalında Azərbaycanın bütün millətsevər insanlarını birləşdirən amal idi.

1918-ci ilin 15 sentyabrından 1920-ci ilin 27 aprelinə kimi "Azərbaycan" qəzetinin Azərbaycan dilindəki nəşrinin ümumən 443, rus dilində isə 438 nömrəsi işıq üzü gördü. Qəzetin növbəti - 444-cü nömrəsinin çıxması bir də 72 ildən sonra, 23 sentyabr 1992-ci ildə mümkün oldu. Bununla tarixi ədalət bərpa edildi və "Azərbaycan" qəzeti 444-cü nömrəsi ilə 72 il əvvəl qaldığı yerdən davam etməyə, öz tarixi missiyasını yerinə yetirməyə başladı.

### Ən düzgün qiymət

"Azərbaycan" qəzetinin ölkə tarixində tutduğu yerə və mövqeyə, özünün şərəfli tarixi ərzində arxalandığı, əsaslandığı fəaliyyət prinsiplərinə ən düzgün qiyməti məhz Ulu Öndər Heydər Əliyev vermişdir. Ümummilli Liderin "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, salsılmazdır və dönməzdir" şüarı bir tərəfdən keçmişdəki uğurların davam etdirilməsini, digər tərəfdən səhvlərdən nəticə çıxarılmasını, ən vacibi isə güclü və mübariz ruh tələb edirdi. "Azərbaycan" qəzetinin ikinci müstəqil-




lik illərində çıxan səhifələrində də məhz bu istiqamətlər qorunur.

Heydər Əliyev "Azərbaycan" qəzetinin 1000-ci nömrəsinin çıxması ilə bağlı təbrik məktubunda müstəqilliyimizə düşmən kəsilmiş xarici və daxili qüvvələrin öz çirkin məqsədlərinə nail olmaq üçün azğın niyyətlərindən əl çəkmədikləri məqamlarda "Azərbaycan" qəzetinin öz sayıqlığını bir an belə itirmədiyini xüsusi vurğulamışdı. Ulu Öndərin "Azərbaycan" qəzetinin 80 illik yubileyi münasibətilə 1998-ci il 15 sentyabrda göndərdiyi təbrikdə oxuyuruq: "Ölkəmizin mütərəqqi mətbuat ənənələrini ləyaqətlə davam etdirən "Azərbaycan" qəzeti bu gün demokratiyanın, siyasi plüralizmin, aşkarlığın təmin edilməsində müstəsna rol oynayır. Onun səhifələrində Azərbaycan həqiqətləri, ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması, iqtisadi islahatların həyata keçirilməsi, sağlam mənəvi-psixoloji mühitin, vətəndaş həmrəyliyi və milli birliyin yaradılması sahəsində aparılan məqsədyönlü işlər və ictimai-siyasi proseslər qərəzsiz işıqlandırılır".

Həmin məktubda qəzetin fəaliyyəti yüksək qiymətləndirilməklə yanaşı, kollektivin üzərinə düşən məsul vəzifələr də aydın və yığcam şəkildə göstərilmişdir: "İnanıram ki, fəaliyyət göstərdiyi bütün dövrlərdə öz yüksək amallarına dönməz sədaqət göstərmiş "Azərbaycan" qəzetinin kollektivi bundan sonra da respublikamızda baş verən həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında, dünyaya yayılmasında yüksək professionallıq, obyektivlik, prinsipiallıq, əsl dövlətçilik və vətəndaşlıq mövqeyi nümayiş etdirərək xalqımızın mütərəqqi mətbuat ənənələrini layiqincə davam etdirə biləcək".

Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan" qəzetinə verdiyi dəyər də xarakterik olmaqla kifayət qədər yüksəkdir. Dövlət başçısının qəzetin 100 illik yubileyi münasibətilə 14 sentyabr 2018-ci ildə göndərdiyi təbrik məktubunda deyilir: "Qəzet peşəkarlıq, obyektivlik və vətənpərvərlik prinsiplərinə dönmədən əməl etmiş, ölkəmizin sosial-iqtisadi tərəqqisi, vətəndaş cəmiyyətinin formalaşması, milli həmrəyliyin möhkəmlənməsi və digər sahələrdə həyata keçirilən dövlət siyasəti barədə həqiqətlərin Azərbaycan ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət göstərmişdir".

"Azərbaycan" qəzeti hər zaman müasirlik, əxlaqi-mənəvi kamillik və vətənsevərlik, islami dəyərlərə və türkçülüyə sədaqət ruhunda fəaliyyət göstərməklə maarifçilik ideallarına xidmət etmişdir. Ölkədə iqtisadiyyatın və siyasi sistemin, demokratiyanın tərəqqisi ilə yanaşı, elmin və elm xadimlərinin, dünya səviyyəli tədqiqat fəaliyyətlərinin və yüksək təhsilin inkişafına, səhiyyə, mədəniyyət ocaqlarının cəmiyyətin inkişaf mərkəzlərinə, intellektual resurslarına çevrilməsi strategiyasının reallaşdırılmasına töhfələr vermişdir.




Müstəqillik dövründə parlament tərəfindən minlərlə qanun və qərar qəbul olunmuş, müxtəlif komitələrin qanun yaradıcılığı ilə bağlı saysız-hesabsız iclasları, habelə plenar iclasları keçirilmişdir. Bütün bunlar "Azərbaycan" qəzetinin səhifələrində öz əksini tapmış, tarixə çevrilmişdir.

44 günlük Vətən müharibəsinin gedişində Müzəffər Ali Baş Komandanın rəhbərliyi və qəhrəman əsgərlərimizin şücaəti sayəsində müqəddəs Qarabağ torpaqlarının erməni işğalçılarından azad edilməsinin xronikası, daha sonra regionda aparılan möhtəşəm quruculuq işləri, Böyük qayıdışın getdikcə güclənən addım səsləri anbaan qəzetin səhifələrində yer alaraq tarixilik qazanmışdır.

Son 17 il ərzində "Azərbaycan" qəzeti redaksiyası tərəfindən Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyevin fəaliyyətləri haqqında müxtəlif mövzularda kitablar nəşr olunmuşdur. 2003-cü ildə buraxılan "Heydər Əliyev dünyanın gözü ilə" kitabında Ümummilli Liderin siyasi fəaliyyəti, zəngin dövlətçilik irsi öz əksini tapmışdır. Nəşrdə dünyanın ən məşhur siyasi və ictimai xadimlərinin, dövlət başçılarının Ulu Öndər haqqında fikirləri, eləcə də fəaliyyətinə dair məqalələr toplanmışdır.

"Azərbaycan" qəzeti redaksiyasının "Azərbaycan qədər əbədi" silsiləsində nəşr etdirdiyi "Heydər Əliyev mənim həyatımda" növbəti kitabı Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi illərdə konkret şəxslərə göstərdiyi diqqət və qayğıları, xeyirxahlıqları, çoxsaylı insanların həyatında oynadığı müstəsna rolu əks olunur.

2008-ci ildə "Azərbaycan-90" kitabı nəşr edilmişdir. Burada cümhuriyyət dövründə meydana gələn dövlətin müstəqillik və istiqlal rəmzinə çevrilən qəzetin fəaliyyətinin ayrı-ayrı səhifələri öz əksini tapmışdır.

31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ərəfəsində işıq üzü görən "Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi" adlı ikicildlik kitab erməni faşizminin mahiyyəti, xalqımızın əsrlər boyu məruz qaldığı qanlı qırğınların baiskarları və təşkilatçıları, soyqırımı haqqında əsl həqiqətlər təkzibolunmaz faktlar əsasında ictimaiyyətə çatdırılır. Kitab 2012-ci ildə işıq üzü görmüşdür.

"Azərbaycanda Olimpiya hərəkatı: daim yüksəlişdə" ikicildlik kitab müasir Azərbaycan dövlətinin banisi Ulu Öndər Heydər Əliyevin əbədiyaşar xatirəsinə və Milli Olimpiya Komitəsinin yaranmasının 20-ci, Azərbaycanın Olimpiya hərəkatının inkişaf mərhələsinə qədəm qoymasının 15-ci ildönümünə ithaf edilmişdir. 2013-cü ildə çap olunan bu nəşri idman və bədən tərbiyəsinin, xüsusən də Olimpiya sahəsinin mükəmməl salnaməsi hesab etmək olar.

Ulu Öndərin 90 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev mənim həyatımda" ikicildlik nəşrdə Ümummilli Liderin sovet dövründə və müstəqillik illərində müasiri olmuş, bir yerdə işləmiş sadə insanların, sənət adamlarının, dövlət xadimlərinin maraqlı xatirələri, məqalələri toplanmışdır. Nəşr 2013-cü ildə çapdan çıxmışdır.




"İlham Əliyev bizi Cocuq Mərcanlıya qaytardı" adlı kitab Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində ilk dəfə olaraq baş verən keyfiyyət dəyişikliyindən bəhs edir. 2017-ci ildə çıxan nəşrdə tarixi baxımdan zəruri olan sənədlərə, Aprel zəfərinin səbəb və nəticələrinə, Prezident İlham Əliyevin Aprel döyüşləri barədə fikirlərinə geniş yer ayrılıb.

2018-ci ildə işıq üzü görən "Xocalı şahidləri danışır" kitabı soyqırımının 26-cı ildönümünə həsr olunub. Kitabda Xocalı faicəsinin canlı şahidlərinin xatirələri toplanıb.

"Azərbaycan" qəzetinin 100 illik yubileyi münasibətilə nəfis tərtibatda çapdan çıxmış "100 yaşlı "Azərbaycan" kitabında Prezident İlham Əliyevin "Azərbaycan" qəzetinin kollektivinə təbrik məktubu verilmiş, habelə Heydər Əliyevin mətbuatla bağlı siyasi irsinə aid yazılar toplanmışdır. Nəşrdə eyni zamanda rəsmi dövlət qəzetinin tarixi, parlament fəaliyyəti, redaktorları, müəllifləri haqqında məqalələr öz əksini tapmışdır.

"Azərbaycan" qəzetinin baş redaktoru, respublikanın Əməkdar jurnalisti, "Şöhrət" ordenli Bəxtiyar Sadıqovun Prezident İlham Əliyevin yürütdüyü möhtəşəm fəaliyyətinin təhlilinə həsr olunmuş 3 kitabı nəşr olunmuşdur. 2021-ci ildə çapdan çıxan "Xilaskar İlham Əliyev" kitabında Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhəbrliyi ilə Azərbaycan Ordusunun əldə etdiyi şanlı qələbədən bəhs olunur, onun tarixi, siyasi əhəmiyyəti şərh edilir.

Nəfis tərtibatda çıxan "İlham Əliyev öndədir" kitabında isə Azərbaycan Prezidentinin son illərdə yürütdüyü möhtəşəm fəaliyyət öz əksini tapıb. 11 fəsildən ibarət olan kitabda dövlət başçısının rəhbərliyi altında həyata keçirilən genişmiqyaslı islahatlar, bütün sahələr üzrə əldə olunan nailiyyətlər və inkişafın Azərbaycan modeli araşdırılır, həmçinin ölkəmizin və dövlət başçısının qlobal miqyasda qazandığı yüksək nüfuzdan bəhs edilir.

Bəxtiyar Sadıqovun 2023-cü ildə çap olunan "Dünyanın tanıdığı İlham Əliyev" nəşrində isə konkret faktlar və misallar əsasında Prezident İlham Əliyevin dövlət rəhbərliyinin 20 ili ərzində ölkəmiz və dünya üçün gördüyü möhtəşəm işlər öz əksini tapıb. Bu kitab həm də dövlətimizin başçısının böyük qələbəyə aparan siyasətinin yığcam salnaməsidir.

***

107 yaşlı "Azərbaycan" qəzeti bu illər ərzində işıq üzü görmüş 10.000-ci sayının hər birində öz missiyasına sadiq olub. Əsrdən də böyük bu tarixdə Azərbaycanda çox qəzet və jurnallar nəşr olunub. Nə və necə yazmasından, hansı mövqedə durmasından asılı olmayaraq, onların hər birinin bu il 150 illiyini qeyd etdiyimiz milli mətbuat tariximizdə özünəməxsus yeri var. Amma istisnasız olaraq qeyd edə bilərik ki, Azərbaycanın müstəqillik tarixini, Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu strateji inkişaf kursunu, bu xətti əzmlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin möhtəşəm nəticələrini heç bir mətbuat orqanı "Azərbaycan" qəzeti qədər geniş, əhatəli, dolğun şəkildə işıqlandırmayıb. Mövcud olduğu bütün dövrlərdə qəzet milli dövlətimizin yol yoldaşı olub. Bu mənada "Azərbaycan" ölkəmizin müstəqillik dövrünün ensiklopediyası, tariximizin ən obyektiv, doğruçu və fədakar salnaməçisidir. Zaman qəzetin 10.000-ci sayının davamına yeni rəqəmlər əlavə edəcək, onminlər yüzminlərə, yüzminlər isə milyonlara qovuşacaq.

Bu qəzetin hər yeni sayı sadəcə rəqəmlərdə simvollaşan tarix deyil, Azərbaycanın istiqlalının əbədiliyi, dönməzliyi, daimiliyidir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## Unudulmayan tarixlə gələcəyə doğru...

*Əvvəli 6-cı səh.*

Andranik beş minədək bir qoşunla üçüncü gündür ki, Zabuxu mühasirə altına almışdır. Bunun qəsdi Şuşa qalasına yol açmaqdır. Türk komandanı getmişdir. Qəza müdiri bir fəaliyyət göstərmir. Əhali İrana qaçır. Təşkilat yoxdur. Rica ediriz ki, heç olmasa, şimdi Müttəfiqlərin nəzərlərini buraya cəlb edəsiniz. Beşinci dairənin bütün kəndləri yığma edilmişdir. İkinci, üçüncü və dördüncü dairələrin də bir hissəsi dəxi yığma edilmişdir..."

Qəzet dekabrın 10-da 61-ci sayında Milli Komitə üzvləri Y.Musayev və Əli bəy Behbudovun Ağdamdan Azərbaycan Hökumətinə yolladığı teleqramı dərc etdi. Teleqramdan məlum olur: "Dünən Şuşadan rəsmi xəbər alınmışdır ki, ermənilər Zabux dairəsində müharibəyə başlayıb, bir neçə evləri yandırmışlar. Şuşa və Əsgəran ətrafında olan dağlarda 400-500 nəfərdən ibarət müsəlləh erməni dəstələri zahir olmuşlardır".

Növbəti gün qəzet Zəngəzur əxzi-əsgər (hərbi qulluğa çağırış idarəsinin) rəisi Məliknamazəliyevin Andranikin hücumu ilə əlaqədar hökumətə göndərdiyi həyacan dolu teleqramda xəbər verilirdi: "Üçüncü məntəqənin rəşid, dilavər müsəlmanları miqdarca az olduqlarına baxmayaraq dörd min nəfərlik quldur dəstəsinin Şuşaya gedən yolunu sinələri ilə qapamışlardır. Dörd gündür ki, orada şiddətli vuruşma gedir və Andranik irəli hərəkət edə bilməyir". Xəbərdar edilirdi ki, amma bir-iki gündən sonra Şuşa yolunu mühafizə edən müsəlmanların gülləsi qurtarıb, qüvvələri zəiflədikdə iş acınacaqlı bir hal ala bilər.

Teleqramda bildirilirdi ki, arvad, uşaq, qoca, cavan fərqi gözləməzdən ümum müsəlmanları tələf, mallarını qarət edirlər, kəndlərini yandırırlar: "Heç yerdən müsəlmana kömək yoxdur. Əllidən ziyadə böyük, kiçik müsəlman kəndi tamamilə yandırılıb, əhalisi bilkülliyə qırılmışdır".

"Azərbaycan" qəzetinin əksər bölgəmizdə olduğu kimi, Qarabağda da xüsusi müxbirinin çalışması orada baş verən hadisələrin operativ şəkildə işıqlandırılmasına imkanlar yaradırdı. Eyni zamanda qəzetin fəal yazarları ardıcıl olaraq Qarabağda və digər ərazilərdə azğınlaşmış ermənilərin hücum etmələrindən, vəhşicəsinə cinayətlər törətmələri barədə müxtəlif janrda yazılar yazır, vəziyyəti şərh edir, soydaşlarının haqqını müdafiə edirdilər.

Qəzetin 19 sentyabr 1918-ci il tarixli ikinci sayında Şəfi bəy Rüstəmbəyli imzası ilə dərc olunmuş "Ağlını başa yığmaq vaxtıdır" adlı məqaləsində yazılırdı: "Qonşumuz erməni xalqı təəssüf ki, fanatik "Daşnaksütyun" partiyasının simasında öz rəhbərləri tərəfindən böyük nisbətdə kor edilmişdir. Öz xalqının tarixində ölümcül rol oynamış bu partiya halhazırda elə bir vəziyyətlə üzləşmişdir ki, mütləq dönüb geriyə baxmalı, bütün tarixi səhvlərini etiraf etməli və öz siyasətini dəyişdirmək istiqamətində radikal addımlar atmalıdır". Müəllif bildirirdi ki, Qarabağ ermənilərinin bir hissəsi ingilis qızılıyla dəstəklənən Andranikin ölümcül avantüralarına qapılmaqda və Azərbaycan dövlətinin bütövlüyünə qarşı təxribat törətməkdədir.

Qəzetin ən fəal yazarlarından biri Ceyhun bəy Hacıbəyli Paris Sülh Konfransında iştirak etmək üçün getdikdən sonra onu "Azərbaycan" qəzetində redaktor kimi əvəzləyən Üzeyir bəy Hacıbəyli də müxtəlif janrlı yazılarında bu mühüm problemə toxunurdu. Üzeyir bəy iti qələmi ilə şər yuvası olan "Daşnaksütyun" partiyasının, onun məkrli planlarına uyğun Azərbaycanın ayrı-ayrı bölgələrində yerli əhaliyə divan tutan, zülmlər edən təcavüzkar ermənilərin iç üzlərini açırdı. "Azərbaycan" qəzetinin 1 dekabr 1918-ci il tarixli 53-cü sayında dərc olunmuş "Mühüm məsələlər" adlı məqaləsində o, gənc Cümhuriyyət hökumətinin ağır bir zamanda, çətin bir yolla irəlilədiyini diqqətə çatdırırdı: "Azərbaycan Hökumətinin düşmənləri çoxdur. Türklər gedəndən bəridir ki, onlar dil açıb Hökumətimizi hər yerdə məzəmmət etməyə və töhmətləndirməyə çalışırlar. Bakı şəhərindəki bədxahlarımız bəs deyildir ki, Tiflisdə də rus sosialistlərindən və erməni daşnaklarından ibarət olan bir güruh, - ki amal və arzularının şeytənət və xəyanətinə görə "qaragüruh" adlanmasına bihəqqin layiq və şayəstədirlər - Hökumətimizin və hətta bütün millətimizin əleyhinə qəzetələrin sütunlarında ağızlarına gələni deyib, Azərbaycan Hökumətinin dağıdılmasını və Azərbaycan türklərinin də Ümumi Qafqaz Konfransına buraxılmamalarını tələb edirlər".

Üzeyir bəy haqlı olaraq yazırdı ki, düşmənlərimiz heç bir şeylə bizi töhmətləndirə bilməməlidirlər: Səbəbini belə izah edirdi: "Çünki hər nə onlara olubsa, on qat artıq da bizə olubdur. Bunu isbat etmək üçün münsif və həqgu şahidlərimizlə bərabər, əlimizdə və göz qabağında öylə müsəlləm dəlillərimiz var ki, daha düşmənlərimizin öz şərəf və heysiyyətlərinə layiq gördükləri yalanlara, hiylə və təzvirə və xəbislik büruzə verməyə heç bir ehtiyacımız yoxdur. Zatən öylə alçaqlıqları bizim namusimillimiz də qəbul etməz".

1918-ci ildə "böyük Ermənistan" planlarını həyata keçirmək niyyətində olan, bu məqsədlə bütün insani dəyərləri heçə sayaraq dinc azərbaycanlılara qarşı dəhşətli cinayətlər törədən işğalçı ermənilərin arzularının yenə gözlərində qalacağı şübhəsiz idi. "Azərbaycan" qəzetinin 1918-ci il noyabrın 28-də işıq üzü görən 51-ci sayında yer verilmiş "Növbəti maskarad" adlı kiçik felyetonda bu məsələ özünəməxsus bir dillə təsvir edilirdi. Müəllifin təbirincə desək: "Bu əsər "Daşnak" firqəsi həyatından hədsiz-hesabsız pərdədən ibarət bir maskaraddır ki, hər dəm bir qismi oynanır. "Daşnak" firqəsinin mahir artistləri tərəfindən oynanmaqda olan son "seriya"sını qarelərimizə təqdim ediriz".

1918-1920-ci illərdə qəsbkar ermənilər çar imperiyasının süqutundan, müstəqilliyinə nail olan Azərbaycanda hələ əksər sahələrdə tənəzzülün olduğundan, ordusunu formaladırmağa hələ fürsət tapmadığından istifadə etdilər. Ölkəmizin əksər bölgələrini münaqişə ocağına çevirdilər. Minlərlə azərbaycanlını şəhid etdilər. Soydaşlarımızın sinəsinə dağ çəkdilər, ocaqlarını söndürdülər.

Tarixi unutmaq qədər düşmənin əməllərini yaddan çıxarmağın, ayıqsayıqlığını itirməyin də ağır fəsadlarını, faciələrlə nəticələndiyini XX əsrin sonlarında yenidən gördük. Bu dəfə də sovet imperiyasının çöküşü fonunda fəallaşan qəsbkarlar ərazi iddiaları adı ilə azərbaycanlılara hücuma keçdilər. Ermənilər 1980-ci illərin sonlarında münaqişə ocağını Qarabağda körüklədilər. Və bu alov tezliklə Qarabağı və Şərqi Zəngəzuru bürüdü. 1990-cı illərdə, Birinci Qarabağ müharibəsində işğalçılar Azərbaycanın iyirmi faiz torpaqlarını ələ keçirdilər və otuz ilə yaxın əsarətdə saxladılar.

Uzun illər sonra yenidən öz adı ilə işıq üzü görən "Azərbaycan" qəzeti XX yüzilliyin əvvəllərində olduğu kimi, sonlarında da işğalçı ermənilərin həyata keçirdikləri soyqırımlarından, bu xalqın başına gətirdiyi fəlakətlərdən, faciələrdən yazdı.

Bu gün 10.000-ci sayını oxucularına təqdim edəndə "Azərbaycan" qəzeti bu ölkənin, bu xalqın beşillik böyük Zəfərindən qürurla yazır. Biz tariximizi unutmuruq. Ondan öyrənirik. Gələcəyə qan yaddaşımızı qoruyaraq, keçmişdən ibrət alaraq gedirik.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# MÜSTƏQİLLİYİMİZİN RƏMZİNƏ ÇEVRİLMİŞ "AZƏRBAYCAN"

## Cümhuriyyət dövrü "Azərbaycan"da ordu quruculuğu məsələləri

**Ümummilli məqsədlərin gerçəkləşməsində mühüm rol oynamış mətbuatın 150 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması bu sahəyə göstərilən diqqət və qayğı ilə bərabər, ölkənin ictimai fikir və dövlətçilik tarixində, eləcə də milli oyanış prosesinin aparıcı vasitələrindən biri kimi qiymətləndirilən mətbuatımızın dünəninə, bu gününə və gələcəyinə böyük dəyərin nəticəsidir.**

1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycanın İstiqlal Bəyannaməsinin - Cümhuriyyətin Konstitusiya aktı statusuna malik ilk hüquqi sənədin qəbul edilməsi ilə müstəqil Azərbaycan dövlətinin yarandığını bəyan etmiş, onun ərazisinin hüdudları müəyyənləşdirilmiş, dövlətin quruluşu, əsas fəaliyyət prinsipləri əksini tapmışdır.

Demokratik dövlətə məxsus atributların inkişafı üçün şəraitin yaradılması, suveren, demokratik, hüquqi dövlət quruculuğu işlərinin təbliğində dövrün aparıcı mətbu orqanları - "Açıq söz", "İstiqlal", "Bəsirət", "Şeypur", "Zənbur", "Övraqinəfisə", "Əfkari-mütəəllimin", xüsusilə "Azərbaycan" böyük rol oynamışdır. Həmin illər "Azərbaycan" qəzeti özünün yüksək inkişaf mərhələsi kimi ölkənin siyasi şüurunda istiqlal düşüncəsinin möhkəmləndirilməsinə də zəmin yaratmışdır. "Azərbaycan" milli dövlət quruculuğu prosesində həmişə ön mövqedə dayanmış və qəzetin uğurları da birbaşa Azərbaycanın istiqlalı, dövlət müstəqilliyi və aparılan islahatlarla bağlı olmuşdur.

"Azərbaycan" qəzeti yeni yaranmış müstəqil dövlətdə baş verən demokratik dövlət quruculuğu prosesinin, parlamentdə qəbul olunan ən vacib qərarların öyrənilməsində bir arxiv, mənbə kimi istər mətbuat, istərsə də parlament tariximizin öyrənilməsində böyük əhəmiyyət kəsb edir.

Ordu quruculuğu Azərbaycan parlamentində qəbul olunan ən vacib qərarlardan biri idi. Çünki müstəqil ordusu olmayan dövlətin milli dövlətçiliyi həmişə yadellilərin təhlükəsi altında olmaqla bərabər, əsarətdə yaşamağa da məhkum edilir. "Azərbaycanın istiqlaliyyətini hər növ müdafiə və istər daxildən və istərsə də xaricdən üzərinə gələn qara qüvvələrdən mühafizə edəcək" nizami orduya - özünün silahlı qüvvələrinə malik olmaq məsələsini təxirəsalınmaz bir məsələ olaraq qarşıya qoyur: "Tez bir zamanda istiqlaliyyətimizi müdafiə edə biləcək qüvvətli ordu təşkil edilsin" ("Azərbaycan" qəzeti, 20 yanvar 1919, N92).

Azərbaycan milli istiqlal hərəkatının öncüllərindən olan M.B.Məhəmmədzadə yazırdı ki, istiqlalını elan edən azərbaycanlıların ilk məqsədi Milli Ordu təşkil etmək idi. Azərbaycanlıların çarizm dövründə əsgəri xidmətdən azad edilməsini yeni yaranmış hökuməti milli ordu təşkil etmək barəsində çox böyük çətinlik qarşısında qoymasını qeyd edən ədib vurğulayırdı ki, gürcü və ermənilərin Rusiyadan ayrılaraq istiqlal elan etdikləri vaxt hər növ silahla təmin edilmiş milli əsgəri hissələrə malik olduqları bir zamanda azərbaycanlılar yalnız dünya müharibəsinin əvvəllərində könüllü olaraq azərbaycanlılardan təşkil edilən 600 nəfərlik bir süvari alayına malik idi. Elə bu qüvvət də siyasi həyatımızın ilk titrək və çətin dövründə böyük xidmət göstərən müntəzəm və yeganə əsgəri qüvvəmiz idi.

"Azərbaycan" qəzetinin ilk sayında Daxiliyyə naziri Behbud xan Cavanşir tərəfindən ordu quruculuğunda fərarilik hallarının, eləcə də imkanlı şəxslərin öz övladlarını hərbi xidmətdən müxtəlif vasitələrlə yayındırmalarının qarşısının alınması üçün elan verilir: "Əsgərliyə alınacaq yaşda olan bütün müsəlmanlar, yanlarında həmişəlik surətdə, uyezd Əxzi-Əsgər [hərbi qulluğa çağırış] İdarəsi tərəfindən verilmiş və özlərinin əsgərlikdən azad olduqlarını göstərən bir bilet saxlamağa məcburdur. Yanlarında böylə bir bileti olmayan şəxslər əsgərlikdən boyun qaçırmış hesab olunacaq və bunlar polis tərəfindən tövqif [həbs] ediləcəkdirlər".

Ölkədə ordu quruculuğunun yaranması, ölkə əhalisinin bu işdə dəstəyini qazanmaq üçün xalqda milli hiss, milli birlik, milli iftixar, vətənə, torpağa bağlılıq duyğusunun formalaşdırılmasında "Azərbaycan" qəzeti üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlirdi: "Əhali anlamışdır ki, öz hüququnu ancaq silah ilə saxlaya bilər...Bir millət öz cümhuriyyət və istiqlalını müdafiə üçün cidası (süngüsü) cavan əsgərləri... olmalıdır" ("Azərbaycan", 28 fevral 1919).

"Azərbaycan" qəzetinin 5-ci sayında Nəsib bəy Yusifbəyli Qafqaz İslam Ordusuna, türk-islam birliyinin ən böyük ümid yeri olan türk qəhrəmanlarına - Nuru Paşa və onun əsgərlərinə qardaşlıq əllərini uzatdıqları və sevgili Azəbaycanı xain və zalım düşmənlərdən xilas etdiyinə görə minnətdarlıq ifadə edən bir müraciət dərc etdirir: "...üç kəlmədən ibarət olan bu cümləni Azərbaycan durduqca hər bir Azərbaycanlı türk qəlbində yaşadacaq və dilində təkrar edəcəkdir:

*"Millət sizə minnətdardır".*

Bu məqamda Nəsib bəyin Azərbaycan gəncliyinə müraciəti ilə ordu sıralarına qəzet vasitəsilə çağırışı da səfərbəredici funksiya mahiyyəti kəsb edir: "Şimdi sizə, ey Azərbaycan dəliqanlıları, sizə müraciət edirəm. Üzərinizdə nə qədər böyük və ağır vəzifə olduğunu bilirmisiniz? Artıq meydanda heç bir bəhanə qalmadı. Vətəniniz düşməndən xilas oldu və olur. Silah istəyirsiniz...Top istəyirsiniz, hazır. Digər ləvazimat istəyirsiniz, hazır. Hərbi məktəb istəyirsiniz, hazır. Müəllimlər və zabitlər istəyirsiniz, o da hazır...Haydı, yavrularım, haydı, silah başına! ...Yüz min qəhrəman omuz-omuza [çiyin-çiyinə] versin, ötəsi qolaydır".

Qəzetin 7-ci sayında Rza Zakir "Əsgərlik" məqaləsində Nəsib bəyin bu müraciətinə qoşulur, gəncləri yeni müstəqillik əldə etmiş Azərbaycanımızı mühafizə və o müqəddəs yurdumuzu müdafiə etməyə və dərhal hərəkətə keçməyə çağırır. "...dərhal əsgərliyə, əsgərliyə, yavrum, qoşmalısınız!" Əsgəri dünyada ən böyük bir fəzilət, ən ali bir şərafət zirvəsi kimi qiymətləndirir, onu millətin şanlı bir firqəsi, vətənin canlı bir qalası adlandırır. Müəllifə görə vətən üçün yaşayan, millət üçün dağlar aşan, düşməni yurduna soxmamaq üçün canını meydana qoyan əsgər vətənindən başqa bir şeyi düşünməz, onun uğrunda ölməkdən çəkinməz. Müəllif vətən övladlarına torpaq, millət sevgisini aşılayan bu məqalə ilə gələcəyin əsgərlərinin qarşısında müqəddəs vəzifə qoyur: "Əsgərlik vəzifəsi öylə bir vəzifədir ki, onu ancaq vətənin ən namuslu, ən qeyrətli övladları icra edə bilər. Fəqət vətən onun anası, millət isə qardaşı olduğunu bilməyənlər, bu vəzifə ilə mükəlləf olamazlar. ... ümid etməm ki, bir türk övladı bu izzü şərəfdən məhrum olmaq istəsin ... vətən imdadına qoşmaq istəməsin, ... vətənin namuslu övladı olmaq arzusunda bulunmasın. Fəqət iş burasındadır ki, bu gözəl arzular, bu müqəddəs vəzifələr həp, həp əsgərliklə hüsulpəzir olacaqdır [hasilə gələcəkdir]" (1918, N7).

Qəzetin səhifələrində dərc edilən bu çağırışlar gənc nəsildə böyük ruh yüksəkliyi yaradır, vətənpərvərlik hisslərini oyatmaqla onların könüllü orduya qoşulmasında böyük rol oynayırdı.

1918-ci il oktyabrın 11-də "Azərbaycan" qəzetində Azərbaycan Hökumətinin rəisi Fətəli xan Xoyskinin imzaladığı "Azərbaycan Hökuməti Mükəlləfiyyəti-Əsgəriyyə Qanuni-Müvəqqəti [Hərbi Mükəlləfiyyət Haqqında Müvəqqəti Qanun]" dərc edilir. Bu, AXC dövründə imzalanan ilk hərbi qanunverici hüquqi akt idi. 26 müddəanı əks etdirən bu hüquqi sənəddə hərbi xidmətə çağırışla bağlı yaş həddi, möhlət və güzəştlər, komissiyalar, aidiyyəti təşkilatlar və digər mühüm və əhəmiyyətli maddələr öz əksini tapmışdır.

Qəzet (15 oktyabr 1918, N15) böyük türk şairi Məmməd Əmin bəyin türk millətinə ünvanlanan duyğularının ifadəsi olan və Çanaqqala qəhrəmanlarına ithaf olunan "Zəfər yolunda ordu" dastanını cövhər, hər bir türk üçün saxlanacaq, əzbərlənəcək böyük və qiymətli əsər kimi təqdim edir:

***Bu gün xaqan səfərbərlik elan etdi,***
***Əziz yurdun vaqur səsli davulları,***
***Babaları, qardaşları, oğulları***
***Ay-yıldızlı al bayrağın***
***O müqəddəs kölgəsinə çağırıyor,***
***"Ey qazilər" söylənilən hər soqağın***
***İçərsində "Hərbə!" deyə bağırıyor.***




"Azərbaycan" qəzeti növbəti saylarında da hərbi xidmətə çağırış ərəfəsində milli ruhun yüksəlməsinə köklənən bu əsərdən parçalar dərc etməklə vətən oğullarını torpaqlarını erməni-daşnak və bolşevik birləşmələrindən təmizləmək üçün orduya - birliyə, qeyrətə səsləyir.

1918-ci ilin noyabr ayına qədər hərbi nazir vəzifəsi icra olunsa da, ayrıca Hərbi Nazirlik yaradılmamışdı. "Azərbaycan" qəzetinin 27 oktyabr 1918-ci il tarixli sayında Azərbaycan hökumətinin oktyabrın 23-də Hərbi Nazirliyin yaradılması haqqında qərarına dair məlumat dərc edilmişdir. Bu qərar noyabrın 1-də rəsmiləşdirildi və hərbi nazir vəzifəsi Fətəli xan Xoyskiyə həvalə olundu. Dekabrın 29-da isə artilleriya general-leytenantı S.Mehmandarov hərbi nazir elan edildi ("Azərbaycan" qəzeti, 29 dekabr 1918, N73).

"Azərbaycan" qəzetində ordu ilə bağlı qəbul olunan qanun və qərarlar mütəmadi dərc olunurdu. Qəzetin 1919-cu il martın 1-də 46-cı sayında "Hərbi nazirliyin ştatları haqqında " qanun dərc edilib. Fevralın 25-də qəbul olunan 16 saylı bu qanunda nazirliyin ştatları müəyyən olunub.

Qəzetin 1918-ci il 22 sentyabr nömrəsində isə "Hərbi xidmətdə olmayanların siyahıya alınması və hərbi xidmətə çağırışa nəzarətin təşkili üçün vəsait ayrılması haqqında" qərar dərc edilib. Qərarda deyilir: "Hərbi xidmətdə olmayanların siyahıya alınması və hərbi xidmətə çağırışa nəzarətin təşkili üçün daxili işlər nazirliyinin sərəncamına 5 000 rubl məbləğində kredit açılsın" ("Azərbaycan" qəzeti, 1918, N3).

"Azərbaycan" qəzetinin aparıcı publisisti Ü.Hacıbəyli "Cəmaət köməkligi" məqaləsində müstəqilliyinə qovuşmuş Azərbaycan hökumətinə bütün dövləti işlərdə xalq birliyinin, əhali köməyinin vacibliyinin əhəmiyyəti vurğulanır. Xalqın müxtəlif cəmiyyətlərinin dövləti işlərdə, əsasən də hərbi işlərdə iştirakında məsuliyyətli olmağa çağırır, bu dəstəyin millət və vətənimiz üçün əhəmiyyətindən danışır: "...hərbi işlərimizdə əsgərlərimizin əgnini layiqincə geydirən, əsgəri işlərə məxsus bir fond əmələ gətirən, fərarilik kimi rəzalətlərin qabağını alan, vətən müdafiəsi yolunda bir çox işlər görə bilən "müdafieyi-milliyyə" kimi cəmiyyətimiz olarsa" mədəni və azad bir cümhuriyyət olmaqla nəinki qonşularımızın, hətta Avropa əhlinin də etiram edəcəyi bir məmləkət olarıq (8 yanvar, 1919, N82).

Azərbaycan Ordusunun yaranması, bu işdə qarşıya çıxan çətinliklər barədə Üzeyir bəyin "Ordumuz" başlıqlı yazısı yeni yaranmış Azərbaycan Ordusunun qarşısında duran çətinliklərdən söhbət açmaqla bərabər, millətin qəhrəmanlıq ruhunu da təqdir edir: "Ordu görməmiş, rəsmi əsgərliyə adət etməmiş olan millətimiz içində birinci qədəm olaraq ordu təşkil etmək işinin nə qədər çətin bir əmr və bu işin bu qat-qat qarışıq zəmanda nə tövr müşkilat və maniələr qarşısında əngəllərə düçar olduğunu eşidib, bütün çətinliklərini təsəvvürə gətirməklə bu çətinlikləri rəf və izalə edəcək olan zatın nə qədər sahibi-qüdrət və maliki-qüvvət bir orqanizator olması lüzumunu da dərk etdik" ("Azərbaycan" qəzeti, Bakı, 1919, N145).

Müəllif məqalədə ordu təşkili işinin gedişatına da nəzər salır və vurğulayır ki, Səməd bəy ümidləri doğrultmağı bacarıb, Azərbaycanda ordu quruculuğu işinə nail ola bilmişdi.

Üzeyir bəy Hacıbəylinin "Fitnələr qarşısında" məqaləsində isə Azərbaycanın ordu quruculuğuna, eləcə də yeni qurulmuş dövlətimizə qarşı əks-təbliğat aparan mətbu orqanların fitnəkar hiylələrinə qarşı cavab verilir: "Guya Azərbaycan qoşunu və "müsəlləh tatarlar" səbəbsiz olaraq erməni kəndləri üzərinə hücumlar edib, əhalini qətlu qarət edirlər deyə şikayətin dəxi ətraflı bir surətdə təhqiqə böyük bir ehtiyac vardır. Bu təhqiqin nəticəsi meydana çıxıncaya qədər haman şikayətlərin bizim gözümüzdə iftira və böhtandan ibarət olacağı da dəlil və əsassız deyildir" (1919, N93).

"Ümidvar olmağımızda da səhv etmədik. Həqiqət Gəncədə "Novruz" münasibətilə qurulmuş olan Azərbaycan ordusu rəsmi keçidini gördükdən sonra ordu təşkili işimizin kəmali-intizam ilə irəli getdiyini bilayən müşahidə edib qəlbimizdə dərin bir əminlik hasil olduğunu hiss etdik. Ordu təşkili işimizi bu intizam ilə davam edirsə bir qədər zamandan sonra mükəmməl bir ordusilə sayılan bir dövlət olduğumuzu hər kəs iqrar etməyə məcbur olacaqdır" ("Azərbaycan" qəzeti, Bakı, 1919, N145). "Azərbaycan" qəzetində M.Ə.Mirbağırzadənin "Əsgərlik vəzifəmizdir" məqaləsi ordu quruculuğu sahəsində ölkənin qarşılaşdığı ciddi problemləri ortaya qoymaqla bərabər, əsgərlik vəzifəsinin məsuliyyətini, şərəfini, müqəddəsliyini, eləcə də hər kəsin üzərinə düşən öhdəlikləri ortaya qoyur. Qonşu dövlətlərin nizami bir orduya malik olduqları halda əsgərsizlikdən Azərbaycan türkləri Bakıda, Şamaxıda, İrəvanda, Qubada əsgərlik təlimi keçmiş quldurların zərbələrinə, fəlakətlərinə məruz qalmışlar: "Namusumuza toxunan bu rüsvaylı fəlakətlərdən sonra...yalnız cavanlarımız deyil, qocalarımıza varıncaya qədər könüllü sifəti ilə əsgər təlimi almağa məcburuz....əsgəri təlim almaqladır ki, namusumuzu, məmləkətimizi, hökumətimizi...müdafiə və mühafizə edə biləcəyiz" (14 yanvar, 1919).

"Azərbaycan" qəzeti təkcə hökumətin gördüyü tədbirləri deyil, əhalinin orduya münasibəti ilə bağlı yazılar da dərc edirdi. Bu baxımdan diqqəti çəkən yazılardan biri də Xəlil İbrahimin "Xalq istəyir" məqaləsidir. Məqalədə Milli Ordunun formalaşdırıldığı bir ərəfədə milli qayğıkeşlik, ayıqlıq, istiqlal fikri və istiqlalın mühafizəsi ilə bağlı xalqın düşüncələri təqdim olunur. Hərbi çağırışla bağlı baş verən proseslərə faktlarla aydınlıq gətirən publisist xalqın ordu ilə bağlı əzmkarlığına da işıq salır: "Qazax qəzası türkləri sahibmənsəb bir zatın yanına gələrək şikayət edirlər. Aclıqdanmı, bahalıqdanmı? Xeyr! Camaat şikayət edir ki, Azərbaycanın qoşunu azdır. Onların əsgərliyə yarayanlarını əsgər almayırlar. Əsgər əvəzinə onlardan pul istəyirlər. "Əgər bizdən doğruluqla əsgər yığsalar, həpimiz gedəriz və dövlətimizin qüvvəsi neçə qat artar. Amma istəmiyorlar, bədəl yığırlar", - deyə məmurlardan şikayət edirlər" ("Azərbaycan" qəzeti, Bakı, 1919, N192).

Məmurların məsuliyyətsizliyinə baxmayaraq, əhali ordu quruculuğu işinə maraq göstərir və kömək etməkdən çəkinmirlər. Bu qəbildən olan yazıların mətbuatda dərci orduda ruh yüksəkliyi yaratmaqla əhalini ordu quruculuğu işinə də cəlb edirdi. Məqalənin müəllifi Xəlil İbrahim yazının davamında başqa bir şikayəti nəzərə çatdırır: "Suraxanı, Bülbülə, Əmirhacı və s. kənd əhalisi kərraətlə gəlib şikayət edirlər ki, onları əsgər almayırlar. Təqribən 100 nəfərdən 30-nu qəbul edib, yerdə qalanlarını "sağ-salamat" olduğu halda buraxdılar ki, "get, sən yaramazsan". Kəndlilər təəccüb edirlər, mütəəssir qalırlar ki, dövlətimizə əsgər lazım olan bir zamanda nə üçün əzxi-əsgər idarələri belə edirlər?" ("Azərbaycan" qəzeti, Bakı, 1919, N192).

Məqalənin son cümləsi isə hətta bügünkü gündə də oxucuda ruh yüksəkliyi yarada bilir. Müəllif son cümlədə ordunun təlimində iştirak edənlərin yaşını vurğulayır. Onların yaşına diqqət edəndə təkcə Azərbaycan hakimiyyətinin deyil, elə əhalinin də ən az hakimiyyət qədər ordu quruculuğuna göstərdiyi maraq II Qarabağ savaşında millətin qeyrətli oğullarının fədakarlığını və vətən, torpaq sevgisini xatırladır: "Şayani-təqdir odur ki, zilanlar cümləsində cümə günü məşqdə 65 yaşında bir qoca kişi ilə 11 yaşında bir cocuq da varmış. Allah tovfiq versin" ("Azərbaycan" qəzeti, Bakı, 1919, N192).

"Azərbaycan" qəzetinin ordu həyatının əks olunmasında məqsədi təkcə xalqda vətənpərvərlik hissini aşılamağa kömək etmirdi. Bu eyni zamanda orduya mənəvi güc verirdi. Çünki ordu o zaman güclü olur ki, onun iqtisadi dayaqları, maddi vəziyyəti ilə paralel olaraq, həm də mənəvi dəstəyi, ruh yüksəkliyi yaxşı olsun. Məhz qəzetdə ordunun vəziyyətinin əksinin nəticəsi idi ki, insanlar ordu quruculuğuna hər yolla kömək edirdilər. Onlar öz qızıl-zinət əşyalarını, atlarını ordu üçün fəda, bir qismi də ordunun ərzaqla təminatında iştirak edirdi.

İstiqlal aşiqi Əli Yusifin "Azərbaycan" qəzetinin 1919-cu il 28 may sayında dərc olunmuş "Gənc nəslə" məqaləsində Azərbaycan gəncliyinə müraciət edilir. Tarixin ağır sınaqlarından çıxmış Azərbaycan gənclərinə "bir vətəndaş olmağa layiqmisən?" sualı ilə müraciət edir: "Gəl vətəndaş! Bu gün sənin birinci intibahının timsalı olan "İsmailiyyə"nin xarabəsi qarşısına çıxmalı, əlini qəlbinin üstünə qoyaraq gözlərini parlaman binası üzərində ruzigarlarla qəhrəmancasına çarpışan bayrağına dikməli, bir daha onun enməyəcəyinə əhd etməlisən və and içməlisən ki, bu gün qazandığın istiqlalə təcavüzanə əl uzadanlar ancaq sənin cəsədinin üstündən keçə bilərlər".

Qəzetin 12-ci sayında dərc edilmiş "Dövlət nədir, millət nədir, vətən nədir?" yazısını da millət, vətən sevgisinin ifadəsi və paralel olaraq xalqa ünvanlanmış çağırış kimi qiymətləndirmək olar. Ordunu dövlətin dayağı, qoruyucu divarı adlandıran müəllif dövlət quruculuğu prosesində qarşıya müqəddəs və şərəfli bir vəzifə qoyur: "Dövlət göstərdiyimiz bir xanənin müdiridir. Bu gün bir dövlətin bayrağı altında bulunan vətən xanəyə oxşamaqdadır. Müstəqil bil xanə müdiri o xanənin daima xarici müdaxilələrdən toxunulmaz qalmasını düşünər, lazım gələn bütün tədbirləri görər. Bir dövlətin sancağı altında olan insanların yaşaması üçün hər şey etməlidir. Ən birinci növbədə isə ordunu lazımi vəsait ilə tədarük edər. Ordu isə o binanın dörd divarıdır, fərz edək ki, binanın divarları olmazsa, o binanın tavanını saxlamaq mümkün olmaz. Bir binanın ki, divarı damı olmazsa, xaricdən olan bütün müdaxilələrə hazır ola bilməz. Ordunu təşkil edən əmirlər və zabitlər o divarların ən böyük dayağı deməkdir. Bir dövlətin ordusu nə qədər möhkəm olarsa, o dövləti heç bir daxili və ya xarici müdaxilə yıxa bilməz".

Belə nəticəyə gəlmək olar ki, müstəqil Azərbaycan qurulduqdan sonra hər sahədə olduğu kimi, ordu quruculuğu işində də mətbuatın gücündən istifadə edilib. Dövrün görkəmli publisistlərinin, jurnalistlərinin mətbuatdakı çıxışları ordu quruculuğu işində böyük əhəmiyyət kəsb edib. 1918-1920-ci illər ərzində Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski və digər peşəkar hərbçilərin rəhbərliyi altında yüksək intizamlı, hərbi hazırlığa malik ordu hissələri yaradılmışdır. Dövrün aparıcı mətbu orqanlarında dərc edilən yazılardan aydın olur ki, qısa müddət ərzində ordunun işlək idarəetmə strukturları formalaşdırılmış, çağırış-səfərbərlik yaradılmış, milli hərbi kadrların hazırlanmasının sistemi qurulmuş, milli dəyərlər ordu quruculuğunun başlıca xüsusiyyətinə çevrilmiş və döyüşkən bir ordu meydana gəlmişdir. Bu ordunun sayəsində Ermənistan hərbi qüvvələrinin Azərbaycanın ərazi bütövlüyünə qarşı istiqamətlənmiş genişmiqyaslı təcavüzünü aradan qaldırmaq mümkün olmuşdu.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasından 107 il keçməsinə baxmayaraq, ordu quruculuğu məsələsi hələ də aktualdır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra da yeni qurulmuş müstəqil, suveren dövlətimizin ordu quruculuğu mətbuatın aparıcı mövzusu olmuş, 2020-ci ildə qazanılan Zəfərimizdə, informasiya müharibəsində əldə edilən qələbədə əsaslı rol oynamışdır.

"Azərbaycan" qəzeti klassik ənənələri davam etdirərək milli birliyimizin simvolu kimi Azərbaycanın ərazi bütövlüyü, suverenliyi uğrunda mübarizənin önündə olmuş, demokratik dövlət quruculuğu prosesində və ordu quruculuğu sahəsində aparılan islahatların həyata keçirilməsində mübariz tribuna rolunu davam etdirmişdir.

***Aygün ƏZİMOVA,***
***BDU-nun Jurnalistika fakültəsinin dosenti***

# MÜSTƏQİLLİYİMİZİN RƏMZİNƏ ÇEVRİLMİŞ "AZƏRBAYCAN"


№ 1000,
6 dekabr 1994-cü il


№ 2000,
21 avqust 1998-ci il


№ 3000,
16 dekabr 2001-ci il


№ 4000,
12 aprel 2005-ci il


№ 5000,
26 avqust 2008-ci il


№ 6000,
26 yanvar 2012-ci il


№ 7000,
9 iyul 2015-ci il


№ 8000,
4 dekabr 2018-ci il


№ 9000,
10 iyun 2022-ci il

# Azərbaycanla çiyin-çiyinə

**"Azərbaycan" qəzeti bu gün 10.000-ci nömrəsi ilə oxucuların görüşünə gəlib. Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi mətbu orqanı olan "Azərbaycan" qəzetinin birinci nömrəsi Gəncə şəhərində 15 sentyabr 1918-ci ildə işıq üzü görüb. Qəzetin bu nömrəsi iki dildə: Azərbaycan və rus dillərində, 4 səhifə həcmində olub. Qəzetin ardıcıl 4 nömrəsi Gəncədə, 5-ci nömrəsi isə 3 oktyabr 1918-ci ildə Bakıda dərc olunub. 23 aylıq müstəqillik dövründən sonra XI Qızıl Ordu Azərbaycanda hakimiyyət dəyişikliyi etdi. Bununla da "Azərbaycan" qəzeti də, sözün əsl mənasında, işğal edildi.**

Yalnız 1991-ci il yanvarın 1-dən etibarən Azərbaycan SSR Ali Sovetinin rəsmi mətbu orqanı "Həyat" qəzeti kimi fəaliyyətə başladı. "Həyat" qəzetinin 440 nömrəsi işıq üzü görüb. 22 sentyabr 1992-ci il tarixdə qəzetin bu statusda son nömrəsi buraxılıb. Bir məsələni də qeyd edək ki, hələ sovet hakimiyyətinin laxladığı bir dövrdə Azərbaycanda Qarabağa Xalq Yardımı Komitəsi yaradılmışdı. Komitənin mətbu nəşri kimi "Azərbaycan" adı altında 1989-cu ildən yeni qəzet çıxmağa başlamışdı. 156 nömrəsi işıq üzü görmüş bu qəzetin son, yəni 156-cı nömrəsi 10 sentyabr 1992-ci ildə dərc olunmuşdu.


№ 1, 15 sentyabr 1918-ci il



№ 10000, 3 dekabr 2025-ci il

23 sentyabr 1992-ci ildən isə Azərbaycan Respublikası Ali Sovetinin mətbu orqanı kimi "Azərbaycan" qəzeti "Həyat" qəzetinin redaksiyasının bazasında fəaliyyətə başladı. Qəzetin ilk nömrəsi 444-cü nömrə ilə dərc olundu. Qeyd edək ki, cümhuriyyət dövründə "Azərbaycan" qəzetinin 443 nömrəsi çıxmışdı.

"Azərbaycan" qəzetinin 1918-1919-cu illərdə 358, 1920-ci ildə 85, 1992-ci ildə 70, 1993-cü ildə 254, 1994-cü ildə 253, 1995-ci ildə 252, 1996-cı ildə 252, 1997-ci ildə 288, 1998-ci ildə 304, 1999-cu ildə 300, 2000-ci ildə 301, 2001-ci ildə 299, 2002-ci ildə 301, 2003-cü ildə 302, 2004-cü ildə 304, 2005-ci ildə 304, 2006-cı ildə 295, 2007-ci ildə 295, 2008-ci ildə 292, 2009-cu ildə 292, 2010-cu ildə 289, 2011-ci ildə 291, 2012-ci ildə 294, 2013-cü ildə 291, 2014-cü ildə 288, 2015-ci ildə 290, 2016-cı ildə 292, 2017-ci ildə 291, 2018-ci ildə 296, 2019-cu ildə 293, 2020-ci ildə 277, 2021-ci ildə 286, 2022-ci ildə 286, 2023-cü ildə 288, 2024-cü ildə isə 290 nömrəsi işıq üzü görüb.

Məlumat üçün qeyd olunmalıdır ki, "Azərbaycan" qəzetinin elektron arxivinin yaradılması prosesinə 2002-ci ildə başlanılmış, bu proses 2018-ci ilin birinci yarısında tam yekunlaşmışdır.

Cümhuriyyət dövrü nömrələrinin də arxivləşməsi prosesində qabaqcıl arxiv və kitabxanalarla sıx əməkdaşlıq edilmiş, qarşılıqlı informasiya mübadiləsi fonunda bu iş də uğurla yekunlaşmış, Azərbaycanda mövcud həmin dövr qəzet nüsxələri komplektləşdirilmişdir. Sonrakı mərhələdə bu nüsxələr Milli Kitabxanaya və Siyasi Sənədlər Arxivinə təqdim edilmişdir.

Hazırda "Azərbaycan" qəzeti redaksiyasında gündəlik nömrələr toplanaraq bir neçə nüsxədə cildlənir. Qarşılıqlı anlaşmaya əsasən, həmin cildlər, eləcə də PDF formatında elektron arxiv ildə bir dəfə respublikamızın aparıcı arxiv və kitabxanalarına təqdim olunur. Qeyd edək ki, 2018-ci ildə ilk dəfə olaraq, "Azərbaycan" qəzeti redaksiyası 1993-2017-ci illəri əhatə edən (24 illik) həm elektron, həm də orijinal qəzet nüsxələrini, eləcə də Gəncə şəhərində dərc olunmuş "Azərbaycan" qəzetinin ilk dörd nömrəsinin elektron variantını AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun arxivinə təqdim etmişdir.

Bu gün "Azərbaycan" qəzeti tam elektronlaşdırılaraq oxucuların və tədqiqatçıların ən etibarlı məlumat mənbəyinə çevrilib. Mətbuatımızın flaqmanı olan "Azərbaycan" qəzeti dövlətçilik ənənələrini yaşatmaqla, milli-mənəvi dəyərlərin qorunmasında, vətənpərvərlik hisslərinin, mədəni irsin təbliğində müstəsna rol oynayır, oxucuya düzgün və dəqiq informasiya çatdırır. Müstəqilliyimizin həmyaşıdı kimi "Azərbaycan" bu gün müstəqil və suveren Azərbaycanımızla çiyin-çiyinə addımlayır, üzərinə düşən vəzifənin məsuliyyətini dərk edərək xalqımıza, dövlətimizə şərəflə, ləyaqətlə və peşəkarlıqla xidmət edir.

*Elçin VƏLİYEV,*
*"Azərbaycan" qəzetinin məsul katibi,*
*tarix üzrə fəlsəfə doktoru*

# "Azərbaycan"ın vətənpərvərlik ruhu

**Azərbaycan milli mətbuatı yarandığı dövrdən çətin sınaqlara tuş gəlməsinə, təzyiqlərə, repressiyalara məruz qalmasına baxmayaraq, mətbuatın sözün həqiqi mənasında fədailəri adlandıracağımız jurnalist, mühərrir və publisistləri ölkəmizin azadlığı, müstəqilliyi, xalqımızın idealları, amalları uğrunda şərəfli mübarizə aparıblar.**

15 sentyabr 1918-ci ildə Bakının düşmən işğalından azad edildiyi tarixi gündə həyata vəsiqə qazanan "Azərbaycan" qəzetinin peşəkar heyəti də fəaliyyəti cəmi iki il sürən nəşrdə vətənin istiqlalı, xalqın hürriyyəti naminə qələmlərini istibdadı, zülmü dağıdan külüngə çeviriblər. 72 illik məhbus həyatından sonra da Cümhuriyyət "Azərbaycan"ı vətənin bütövlüyünə və suverenliyinə uzanan möhtəşəm bir salnamə yaratdı. Amma bu dəfə müasir Azərbaycanın salnaməçisi "Həyat", sonra isə "Azərbaycan" qəzeti olaraq. Müstəqilliyimizin rəmzinə çevrilən "Azərbaycan" qəzeti həm də bütöv və suveren Azərbaycanın atributu kimi adını tarixə yazdırdı.

1990-cı illərdə "Azərbaycan" qəzeti yenidən işıq üzü görəndə ölkəmizin ən acınacaqlı, ən ağır dövrü idi. Əraziləri işğal altında, bir milyondan çox qaçqın və məcburi köçkünü olan, daxili böhran, parçalanma yaşayan respublikamızın həmin faciəvi günlərini səhifələrində tarixə çevirən parlamentin mətbu orqanı Ulu Öndər Heydər Əliyevin qurtuluş missiyası sayəsində ağ günlərə çıxan Azərbaycanın ictimai-siyasi həyatını işıqlandırmaq kimi müstəsna şansa sahib oldu.

"Azərbaycan" Ulu Öndər Heydər Əliyevin "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır və dönməzdir" şüarını əldə əsas tutaraq bu günün özünə qədər də səhifələrində vətənpərvərlik ruhundakı yazılara geniş yer ayırır. Tam mübaliğəsiz deyə bilərik ki, qəzetin hər nömrəsində vətənpərvərlik mövzusuna həsr olunmuş reportajlar, müsahibələr, şərhlər dərc olunur.

Birinci Qarabağ müharibəsi zamanı az qala əliyalın şəkildə düşmənin top-tüfənginə qarşı savaş verən vətən övladlarımızın qəhrəmanlıqları, Aprel, Günnüt qələbələri zamanı Azərbaycan Ordusunun göstərdiyi misilsiz şücaətlər barədə silsilə yazılar hər zaman qəzetdə öz yerini alıb.

Başqa cür də ola bilməzdi. Müstəqil dövlət olsaq da, torpaqlarımız işğal altında idi, suverenliyimiz tam təmin olunmamışdı. Qarabağı, Şərqi Zəngəzuru görmədən böyüyən bir nəsil yetişirdi. Buna görə də milli ideologiya, vətənpərvərlik istiqamətində dövlətimizin gördüyü işlərə "Azərbaycan" qəzeti də bu cür vətənpərvərlik mövzularına həsr edilmiş yazılarla dəstək verirdi. Məqsəd də, amal da, fəaliyyət də vahid Azərbaycana nail olmaq idi.

## Zəfər uğrunda "Azərbaycan" da qələmini süngüyə çevirdi

Bizi tarixi zəfərə aparan İkinci Qarabağ savaşında "Azərbaycan" qəzetində çalışan jurnalistlər də qələmlərini süngüyə çevirdilər. Torpaqlarımızın azadlığı uğrunda ölüm-dirim savaşına qalxan igid döyüşçülərimizin şücaətlərini, onların qazandıqları şanlı qələbələrin tərənnümünü səhifələrində işıqlandıran qəzetin bütün saylarından Prezident, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin "Qarabağ Azərbaycandır!" haqq nidasının sədası ucalırdı. Qalib lider İlham Əliyevin "X" sosial şəbəkəsində ərazilərimizin azadlığı barədə verdiyi müjdələr nəşrin səhifələrində öz əksini taparaq xalqımızın qələbə coşqusu ilə bir ahəng təşkil edirdi.

44 günlük Vətən müharibəsi dövründə "Azərbaycan" qəzetinin bütün əməkdaşlarının qələmə aldıqları çoxsaylı məqalələrdə xalq-ordu-dövlət birliyinin yaratdığı "dəmir yumruğ"un zəfər reallığı əks olunub.

Həmin dövrdə Bəxtiyar Sadıqovun "Üç cəbhənin sərkərdəsi", Rəşad Baxşəliyevin "Zəfər gündəliyi", Rəşad Cəfərlinin "Azərbaycan Ordusu tarix yazır", İradə Əliyevanın "Azərbaycan bayrağı artıq Qarabağda dalğalanır", Flora Sadıqlının "Salam, Qubadlı - dağlar diyarı, qəhrəmanlar yurdu!", Rəhman Salmanlının "Qələbə rəmzi", Zöhrə Fərəcovanın "Tarix yazan xilaskar ordu", Rüstəm Kamalın "Döyüş meydanında da, danışıqlar masasında da biz güclüyük!", özümün müəllifi olduğum "İlham Əliyev: Kəlbəcər bizimdir" adlı yazılar və digər qələmə alınan çoxsaylı məqalələr İkinci Qarabağ savaşını bütün parametrləri ilə gözlər önünə sərir.

Bu mənada tam əminliklə demək olar ki, yüz illər sonra da "Azərbaycan" qəzeti Zəfər salnaməsinin öyrənilməsi üçün əvəzolunmaz məxəz olacaqdır.

44 günlük Vətən müharibəsi dövründə düşmən cəbhədən kilometrlərlə uzaqda yerləşən şəhər və kəndlərimizi raket atəşinə tutaraq terror aktları törədirdi. "Azərbaycan"ın əməkdaşları törədilən həmin faciələri də işıqlandıraraq gələcək nəsillərimiz üçün tarixə çevirirdilər. Lazım Quliyevin "Erməni işğalçıları dinc əhalinin qətliamını davam etdirirlər" adlı yazısında düşmənin növbəti vandallıq aktı əksini tapıb.




## "Yurdu yaşadan qəhrəmanlar"

"Azərbaycan" qəzetinin hər bir nömrəsində müxtəlif rubrikalar altında vətənpərvərliklə bağlı məqalələr yer alır. "Zəfər zirvəsini fəth edənlər", "Biz qayıtdıq, Vətən!", "Şəhidlər ölməz, vətən bölünməz", "Vətən deyəndə", "Tarix yazan oğullar", "Biz daha köçkün deyilik", "Vətən oldu oğullar!", "Ölməzliyə qovuşanlar", "Yurdu yaşadan qəhrəmanlar", "Vətən üçün doğulanlar" adlı rubrikalarda ölkəmizin ərazi bütövlüyü uğrunda şəhidliyə ucalan vətən övladlarının həyatına, Qarabağ zəfərinin qazanılması üçün misilsiz xidmətlər göstərən qəhrəman oğullarımızın şücaətinə, birqərinəlik həsrətdən sonra yurduna dönən insanlarımızın qayıdış sevincinə həsr olunmuş yüzlərlə yazı qələmə alınıb.

Vahid Məhərrəmovun "Cəsarəti ilə əbədilik qazandı", Ülkər Xaspoladovanın "Adı kimi hünərlidir", Züleyxa Əliyevanın "Əliyarın dönüşü - 34 ilin səssiz şəhadəti", Əsmər Qardaşxanovanın "Şanlı zəfər yaralarımızın məlhəmi oldu", Elşən Qəniyevin "Anasının baxışlarında yaşayır", Zöhrə Fərəcovanın "İşıqlı xatirələrdə yaşayan Vətənin mərd oğlu", Seyran Cavadovun "Qəhrəmanlıq yolu" adlı yazılar da bu qəbildəndir.

"Əliyarın dönüşü - 34 ilin səssiz şəhadəti" adlı məqalədə müəllif yazıya sonluğu bu cür verir: "Beş il əvvəl noyabrın 8-də göylər torpağa baş əydi, Vətən nəfəs aldı. O gün qazanılan Zəfər bu xalqın yaddaşına, ruhuna, qanına həkk olundu. Zəfər bizim yaddaşımızda və damarlarımızda axan bir həqiqətdir. O həqiqət bizə torpağı qorumaq, onu sevmək, gələcəyə daşımaq üçün şərəf, qürur və məsuliyyət verir. Çünki Zəfər sonsuzluğa yazılmış şərəfli adımızdır..."

"Şanlı zəfər yaralarımızın məlhəmi oldu" adlı müsahibədə Xocalı sakininin vətən sevinci belə ifadə olunub: "İllərlə torpağından didərgin salınmış Valeh Hüseynov bu gün qürurla dayanır Vətən torpağında. Ağrılı-acılı günlər unudulmur, amma yaraların məlhəmi tapılanda yavaş-yavaş sağalır.

Yanvar ayında ilk dəfə Xocalıya gedəndə bir neçə saat şokda oldum. Soruşurdular "hara gedirsən?", deyirdim Xocalıya. Bu, gözlənilməyən bir ifadə idi: "Gedirəm Xocalıya". Gecəni orada qaldıq. Səhəri gün özümə gəldim ki, artıq Xocalıdayıq".

"Cəsarəti ilə əbədilik qazandı" sərlövhəli məqalədə uca şəhidlik məqamı öz əksini tapıb: "Şəhidlik Vətənə olan sonsuz sevginin nəticəsidir. Şəhidlik həm də şərəf, qeyrət və çoxlarının çata və yetə bilmədiyi ucalıq zirvəsidir. Bu zirvəyə yetişmək hər insana nəsib olmur. Bu yüksək məqama yalnız və yalnız seçilmişlər çata bilirlər. İkinci Qarabağ müharibəsinin od-alovunda bu zirvəyə ucalan, müqəddəs amallar uğrunda cəsarətlə vuruşan, qorxunu heç vaxt özünə yaxın buraxmayan tank komandiri gizir Səbuhi İbrahim oğlu Səmədov da belə oğullardan biridir".

"Konstitusiya və Suverenlik İli" rubrikası altında ilboyu Azərbaycanın ərazi bütövlüyünü özündə ehtiva edən məqalələr qəzetin səhifələrində yer alıb.

"Azərbaycan"ın əməkdaşı olmuş şəhid Elgün İsmayılovun xatirəsi artıq 23 ildir çalışdığı qəzetin redaksiyasında böyük ehtiramla yad edilir, xatirəsinə həsr olunan yaradıcılıq müsabiqəsi təşkil olunur. Hər il Elgünün doğum günündə redaksiya kollektivinin onun xatirəsinə həsr etdiyi tədbir İkinci Şəhidlər xiyabanındakı məzarını ziyarətlə başlayır. Tədbirdə "Azərbaycan" qəzetində ənənəvi vətənpərvərlik mövzusuna həsr olunmuş yaradıcılıq müsabiqəsinə yekun vurulur və qaliblər mükafatlandırılırlar.

Sözlə mübarizə aparan cəfakeş jurnalistlərimizin, publisistlərimizin ən böyük amalı Azərbaycanı azad, müstəqil, suveren görmək olub.

Nə xoşbəxtik ki, biz müasir dövrün jurnalistləri olaraq həmin milli ideallların hamısının təmin olunduğu bir zamanda yaşayırıq, yaradırıq.

Bu gün 10.000-ci sayı işıq üzü görən və səhifələrində müstəqil, suveren ölkəmizin qüruru duyulan, bütöv Vətənin səsinə, simasına çevrilən "Azərbaycan" qəzeti yenə də vətənpərvərlik adlı müqəddəs missiyasını davam etdirərək tarix yazacaq və gələcək nəsillərimizə ötürəcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## MÜSTƏQİLLİYİMİZİN RƏMZİNƏ ÇEVRİLMİŞ "AZƏRBAYCAN"

**Bir anın içində ölkəmizin müxtəlif guşələrində onlarca, bəlkə də yüzlərlə hadisə baş verir. Haradasa yeni bir müəssisənin açılışının rəmzi olan qırmızı lent kəsilir, haradasa növbəti bir layihənin təqdimatı edilir. Limanda gəmiyə sərhədləri aşacaq ixrac yükü vurulur, dəmir yolunda çiyni yol çantalı turistlər sevinclə qatarın vaqonlarına doluşurlar. Haradasa bir gəncin adına əmək kitabçası açılır, kiminsə evindən ilk dəfə körpə səsi gəlir. İllərdir yurduna həsrət qalıb indi geriyə dönən birisinə isə təzə mənzilinin açarları verilir... Bütün bunlar ölkənin sosial-iqtisadi həyatının ayrı-ayrı cizgiləridir.**




# İqtisadiyyatımız "Azərbaycan"ın güzgüsündə

Bəzən belə yanlış fikir söyləyənlər də olur ki, qəzetdə iqtisadi mövzuda yazılanları oxumaq maraqsızdır. Əvvəla, hər yazının, hər mövzunun öz oxucusu olur. Yəni oxucu qəzet səhifəsində özünün dünyagörüşünə, yaşına, təhsilinə, fəaliyyət sahəsinə uyğun material axtarır. Bir də ki, söhbət ölkənin iqtisadi inkişafından, gücünün, qüdrətinin artmasından gedirsə, insanın güzəranından, dolanışığından bəhs olunursa, bu, əksinə, böyük maraq doğuran məsələdir.

İqtisadi mövzuları nəinki oxumağın, yazmağın özü xoş və maraqlıdır ki, "Azərbaycan" qəzeti bu missiyasını da məmnuniyyətlə yerinə yetirir.

Əlbəttə, "Azərbaycan"ın 10.000 nömrəsinin hər birini vərəqləmək imkan xaricindədir. Sadəcə, son illərin iqtisadi mövzular palitrasına ötəri bir nəzər salaq.

Azərbaycan iqtisadiyyatının elə bir sahəsi yoxdur ki, qəzetimizdə öz dolğun, geniş və əhatəli əksini tapmasın. Başlayaq iqtisadiyyatımızın bel sütununu təşkil edən neft-qaz sektorundan. Mübaliğəsiz deyə bilərik ki, qəzet Azərbaycanın yeni neft-qaz strategiyasının əsl salnaməçisinə çevrilib. Hazırda dünyada istismar olunan ən böyük karbohidrogen mənbələrindən biri Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarıdır. Prezident İlham Əliyev "Azəri-Çıraq-Günəşli"ni ölkəmizin əsas gəlir mənbəyi adlandırıb.

Doğrudur, AÇG neft hasilatının pik dövrünü artıq yaşayıb. Bununla belə məyusluq yaratmayıb. Neft laylarının dərinliyində bolluca qaz ehtiyatları olduğunu sürpriz edib. Biz bu müjdəni də artıq oxucularımıza çatdırmışıq.

Qazdan söz düşmüşkən onu da xatırladaq ki, Azərbaycanın "Şahdəniz"dəki və digər yataqlardakı mavi yanacaq ehtiyatı bundan sonra hələ 100 il bizə kifayət edər, üstəlik, bir sıra digər ölkələrin də enerji təhlükəsizliyinə dəstək verər.

Dünyanın ən böyük neft-qaz terminallarından biri, regionun neft-qaz ixracı mərkəzi olan Səngəçal terminalı, Ulu Öndər Heydər Əliyevin şah əsərləri sırasında dayanan, üçüncü minilliyin nəhəng mühəndis qurğusu sayılan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 19 il əvvəl "Şahdəniz" qazını ilk dəfə xaricə nəql edən, Azərbaycanı həm də qaz ixracatçısı kimi tanıdan Bakı-Tbilisi-Ərzurum boru xətti haqqında ən geniş təsəvvürü də oxucularda məhz ölkəmizin adını daşıyan qəzetimiz yaradır. Oxucumuz "Cənub qaz dəhlizi"nin keçdiyi uzun yol, bu layihənin təşəbbüskarının və aparıcı qüvvəsinin Azərbaycan olduğu, nəhayət, ölkəmizin Pan-Avropa qaz təchizatçısına çevrildiyi barədə bir çox bilgiləri də əsasən "Azərbaycan"dan alır.

Ölkəmizdə neft kapitalı insan kapitalına çevrilib. Neftdən əldə olunan gəlirlər dövlətimizin prioritetlərindən olan qeyri-neft sektorunun inkişafına, sosial infrastukturun qurulmasına yönəldilir. Neftdən əldə olunan gəlirlər həmçinin Azərbaycan Ordusunun gücünü, qüdrətini artırıb, silah-sursatla təchizatını yüksək səviyyəyə çatdırıb. Dövlətimizin başçısı bu barədə belə deyib: "Əgər biz güclü iqtisadiyyat qurmasaydıq, əgər biz nəhəng neft-qaz layihələri icra etməsəydik, bu vəsaiti haradan alacaqdıq. Bütün bunlar bir-biri ilə bağlı olan məsələlərdir".

Və bütün bu bir-birilə bağlı məsələlər qəzetimizin diqqət mərkəzindədir.

Kəndlini öz torpağının və taleyinin sahibinə çevirən aqrar islahatlar, regionların sosial-iqtisadi inkişafına yönəldilən dövlət proqramlarının icrası qəzetin səhifələrində müxtəlif janrlı yazılar və fotoşəkillərlə öz əksini tapır. Bu səhifələri çevirdikcə gözlərimizdə günbəgün yenidən qurulan, ucqar kəndlərinədək yollar çəkilən, dağların başındakı obalarınadək hər yerdə mavi alov şölələnən, 25-30 il əvvəl böyük şəhərləri belə işığı fasilə ilə alan, son iki onillikdə isə onlarca elektrik stansiyası tikən və indi qonşusu olan dörd ölkəyə enerji ixrac edən Azərbaycan canlanır.

Bu gün Azərbaycanın bir sıra rayon mərkəzləri gözəllikdə, abadlıqda Avropanın tanınan şəhərlərindən heç də geridə qalmırlar. Paytaxtımız meqapolisə çevrilib. Və bütün bunlar "Azərbaycan"ın iqtisadi mövzuda yazan jurnalistlərinin diqqətindən və qələmindən qəzetin bircə nömrəsində belə yayınmır.

Ölkənin sosial-iqtisadi inkişafı üçün bütün mənbələrdən əsas kapitala yönəldilən vəsait, geniş vüsət alan tikinti-quruculuq işləri, bu sahəyə yatırılan daxili və xarici sərmayə, istifadəyə verilən yeni istehsal müəssisələri, yaradılan müasir infrastruktur... İndi əsas kapitala yönəldilən investisiyaların başlıca ünvanlarından biri də işğaldan azad olunmuş ərazilərimiz - yenidən tikilib-qurulan Qarabağ və Şərqi Zəngəzurdur. Bütün bunlar üçün də qəzetin səhifələrində geniş yer var.

Sənaye parkı, sənaye məhəlləsi, aqropark nədir, bunlar nə ilə məşğuldur, əhəmiyyəti və perspektivləri nədən ibarətdir? Bu sualların cavablarını da "Azərbaycan" qəzetindən almaq mümkündür.

Bu günün mövzuları sırasında Zəngəzur dəhlizinin (TRIPP) çəkilişi də öndə dayanır. "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizləri də həmçinin. Başlanğıcını Mərkəzi Asiyadan götürüb Xəzərin və Qara dənizin dibi ilə Avropaya uzanacaq "yaşıl enerji" dəhlizinin aparıcı qüvvəsi Azərbaycandır ki, oxucumuz bu layihələr barədə də ətraflı və düzgün məlumatı bizim qəzetdən alır.

Sosial mövzu da qəzetin daim diqqət mərkəzindədir. Məlumdur ki, ölkədə son illər bu istiqamətdə ciddi irəliləyişlərə nail olunub. Prezident İlham Əliyevin imzaladığı sərəncamların əhali arasında necə rəğbətlə, məmnunluqla qarşılandığını qəzetin yazılarında aydın görmək olar. Bu da səbəbsiz deyil. Çünki imzalanan hər yeni sərəncam yeni sosial islahat mərhələsinə keçidi təmin edir. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial ödənişlərin, əməkhaqlarının artırılması istiqamətində ardıcıl addımlar atılır. Bu da onu göstərir ki, ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsi aparılan sosial-iqtisadi siyasətin mühüm prioritetlərindən biridir.

Biz çalışırıq ki, "iqtisadiyyat rəqəmlər toplusudur" deyənlər hər rəqəmin arxasında əsl həqiqətlərin, böyük reallıqların dayandığını görsünlər. Doğrudur, Dövlət Statistika Komitəsi "Azərbaycan"ın İqtisadiyyat şöbəsinə hər ayda bir dəfə sosial-iqtisadi icmallarını göndərir. Biz oradakı rəqəmləri oxuculara da çatdırırıq, həm də çılpaq şəkildə deyil, izahlarla, şərhlərlə.

Bu, iqtisadiyyatdır, rəqəmlər dəyişə də bilir, onlar yalnız artmırlar, bəzən azalan vaxtları da olur. Belə hallarda ciddi təhlillərə ehtiyac yaranır. Səbəbləri araşdırmaq, geriyə sıçrayışı dərindən çözmək lazım gəlir...

Elə irəliləyişin özü də bunu tələb edir. Adi bir misal gətirək. Son illər miqrasiya saldomuz müsbət olaraq qalır. Başa çatmaqda olan ilimizin 9 ayında bu göstərici 957 nəfər təşkil edib (həmin vaxtdan şübhəsiz ki, xeyli artıb). Bu, sıradan bir rəqəm deyil. Deməli, getdikcə daha çox insan Azərbaycanı özünə daimi yaşayış yeri seçir. Əgər insan burada yaşayanda özünə iş tapacağına, gününün xoş keçəcəyinə, güzəranının yaxşı olacağına inanmasa, belə qərara gəlməz. Deməli, ölkəmizi sevir, nailiyyətlərimizi görür, dövlətimizə güvənirlər ki, bu addımı atırlar. Deməli, Azərbaycanın gücü, nüfuzu dünyaya bəllidir...

Bu qüdrətdən, bu nüfuzdan yazmaqdan yorulmuruq. Buyurun, oxucumuz olun.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının 120 illiyi qeyd olunub






Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının üzv təşkilatı olan Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı mədəniyyət, incəsənət, media və idman sahəsində çalışan əməkdaşların sosial-iqtisadi hüquqlarının müdafiəsi istiqamətində 120 illik tarixi fəaliyyət yoluna malikdir. 1905-ci ildə "Çapçılar İttifaqı" kimi fəaliyyətə başlayan təşkilat ölkənin mədəni həyatında yaradıcı insanların sosial müdafiəsinin təmin olunmasında mühüm rol oynayıb.




AZƏRTAC xəbər verir ki, bu əlamətdar yubiley münasibətilə dekabrın 2-də "Həmkarlarla 120 il" adlı tədbir keçirilib. Tədbirdə təşkilatın əldə edilən nailiyyətlərə və gələcək fəaliyyət istiqamətlərinə nəzər salınıb.

Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçən şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Açılışda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov çıxış edərək Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının (MİHİ) ölkədə əmək münasibətlərinin tənzimlənməsi və işçi hüquqlarının müdafiəsi sahəsindəki rolunu vurğulayıb.

Daha sonra tədbirdə Milli Məclis Sədrinin müavini Rafael Hüseynov, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, mədəniyyət nazirinin müavini Fərid Cəfərov, Xalq yazıçısı Çingiz Abdullayev, həmçinin Qazaxıstan və Özbəkistan həmkarlar ittifaqlarının nümayəndələri çıxış edərək MİHİ-nin fəaliyyətinə dair fikirlərini bölüşüblər.

Yubiley çərçivəsində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının və MİHİ-nin həyata keçirdiyi layihələr və yeniliklər barədə videotəqdimatlar nümayiş olunub. Tədbirin bədii hissəsində mədəniyyət və incəsənət nümayəndələrinin çıxışları təqdim edilib.

Tədbirin davamında əmək münasibətlərində sosial dialoqun inkişafına həsr olunmuş iki panel müzakirəsi keçirilib.

"İşçi ilə əməkdaşlıq" və "İşəgötürənlə əməkdaşlıq" mövzularında təşkil olunan panellərdə dövlət qurumlarının nümayəndələri, həmkarlar ittifaqları təmsilçiləri və özəl sektor rəhbərləri iştirak edərək əmək bazarının aktual məsələlərini, sosial tərəfdaşlıq imkanlarını və işçi rifahının artırılması istiqamətlərini müzakirə ediblər.

"Həmkarlarla 120 il" yubiley tədbiri Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının ölkə mədəniyyətinin inkişafında, işçi hüquqlarının müdafiəsində və həmkar həmrəyliyinin gücləndirilməsində oynadığı mühüm rolun bir daha təsdiqi kimi qiymətləndirilib.

## İlə yekun vurulur

# 10 ayda qeyri-neft-qaz məhsulları ixracının dəyəri 2,3 milyard dollara yaxın olub



**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "İxrac icmalı"nın noyabr sayını təqdim edib. İcmala əsasən, 2025-ci ilin yanvar-oktyabr aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracının dəyəri ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,6 faiz artaraq 2,99 milyard, o cümlədən yeyinti məhsulları üzrə 19,8 faiz artaraq 962,1 milyon dollar olub.**

Hesabat dövründə həmçinin ixrac olunan şəkər 49,6, meyvə-tərəvəz 30, kimya sənayesi məhsulları 22,8, pambıq iplik 8,8, alüminium və onlardan hazırlanan məmulatlar 3,8 faizə qədər artıb. Cari ilin 10 ayında aqrar məhsullar üzrə ixracın dəyəri 769,7 milyon, aqrar-sənaye məhsulları üzrə 260 milyon dollara bərabər olub. Bütövlükdə aqrar və aqrar-sənaye məhsulları üzrə ixracın dəyəri 19,1 faiz artaraq 1,03 milyard dollar təşkil edib.

Qeyd edilən dövr ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl birinci, pomidor (tomat) ikinci, karbamid üçüncü, oktyabr ayı ərzində isə qızıl birinci, xurma ikinci, meşə fındığı üçüncü olub. 10 ayda qeyri-neft məhsulları əsasən Rusiya Federasiyasına, Türkiyəyə, İsveçrəyə, Gürcüstana, Ukraynaya ixrac edilib. Oktyabr ayında da Rusiya Federasiyası, Türkiyə, İsveçrə, Gürcüstan, Ukrayna qeyri-neft məhsullarının ixracında ölkəmizin əsas ticarət partnyorları olaraq qalıb.

2025-ci ilin yanvar-sentyabr ayları üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Prime Cotton" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Baku Steel Company" QSC, "Export Stream" MMC, "STP Alüminium" MMC,"TABATERRA"QSC, "UYTROP" Məhdud Məsuliyyətli Cəmiyyəti, "P-AQRO" MMC, "HOLCİM" ASC şirkətləri təmsil olunublar. Dövlətə məxsus olan şirkətlərin siyahısına isə ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edib. Daha sonra siyahıdakılar "SOCAR Polymer" MMC, "AzerGold" QSC, "Azəralüminium" MMC, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi,"Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "SOCAR-Dalğıc" MMC, "İstisu" Mineral su zavodu MMC, "Azərbaycan Dəmir yolları" QSC, Naxçıvan MR Dövlət Energetika Xidməti şirkətləridir.

Bu ilin yanvar-oktyabr aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") 41 ölkəyə 14,9 milyon dollar dəyərində telekommunikasiya xidməti ixrac edib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 66 faizini təşkil edib. Cari ilin oktyabr ayında isə "Azərkosmos" dünyanın 35 ölkəsinə 1,7 milyon dollar dəyərində xidmət ixrac etmək imkanı qazanıb. Azərbaycanın peyk telekommunikasiya xidmətlərindən yararlanan ölkələrin ilk beşliyində 3,9 milyon dollarla Birləşmiş Krallıq, 2,9 milyon dollarla Lüksemburq, 904,8 min dollarla İsveç, 696,7 min dollarla Türkiyə, 695,4 min dollarla Nigeriya olub.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# REGİONLAR

## Ağstafada "Heydər Əliyev Məktəbi" layihəsinə start verilmişdir

**Ağstafadakı Heydər Əliyev Mərkəzində Ulu Öndərin zəngin irsinin öyrənilməsi və təbliği məqsədilə "Heydər Əliyev Məktəbi" layihəsinə start verilib. Məşğələ "Heydər Əliyev və Azərbaycan təhsili"nə həsr olunub.**



Ağstafa şəhər 1, 2 və 3 nömrəli tam orta məktəblərin, eləcə də Texniki-humanitar təmayüllü liseyin yuxarı sinif şagirdləri mərkəz əməkdaşlarının müşayiəti ilə ekspozisiya zalında Ümummilli Liderin keçdiyi şərəfli ömür yolu və fəaliyyətini əks etdirən tarixi fotolardan ibarət stendlərlə tanış olmuşlar. Tarix müəllimləri Mahizər Əliyeva və Şəfəq Heydərli mövzuya dair şagirdlərə geniş məlumat verərək qeyd etmişlər ki, Ulu Öndərin Azərbaycan xalqının gələcəyinə istiqamətlənmiş strategiyasında təhsil sahəsinin inkişafı prioritet istiqamətlərdən biri olmuşdur. "Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır", - deyən Heydər Əliyev təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi baxırdı.

Sonra məşğələ mərkəzin kiçik akt zalında Ulu Öndərin həyatı və ictimai-siyasi fəaliyyəti haqqında filmin nümayişi ilə davam etmişdir.

*"Azərbaycan"*

## *Azərenerji:* "Cəbrayılda yeni tikilən 330 kV-luq yarımstansiyada işlər tamamlanıb"

**İşğaldan azad edilmiş ərazilərdə ilk sənaye miqyaslı günəş-elektrik stansiyası və ən böyük, birbaşa xarici investisiya layihəsi olaraq BP şirkəti tərəfindən Cəbrayıl rayonunda tikilən 240 meqavatlıq "Şəfəq" Günəş-Elektrik Stansiyasının enerjisistemə inteqrasiyası üçün Azərbaycan dövləti tərəfindən irihəcmli işlər həyata keçirilir.**









Belə ki, BP ilə "Azərenerji" arasında əməkdaşlıq sazişinə uyğun olaraq, "Şəfəq" Günəş-Elektrik Stansiyasının enerjisistemə qoşulması üçün Cəbrayılda 330/33 kilovoltluq yeni yarımstansiya və 7,5 km məsafədə 330 kilovoltluq ikidövrəli yüksək gərginlikli ötürmə xətti çəkilib.

Layihələrin əsas məqsədi dövlət-özəl tərəfdaşlığına dəstək, karbon emissiyalarının azaldılması, təbii qaza qənaət olunması və bərpaolunan enerji mənbələrinin payının artırılmasıdır. Bu layihələr Azərbaycanın "yaşıl enerji" keçidinə və enerji təhlükəsizliyinə mühüm töhfə verəcək. Stansiyada istehsal olunan elektrik enerjisinin "Virtual Enerji Ötürülməsi Mexanizmi" (VPTA) çərçivəsində 330 kV-luq "Cəbrayıl" Enerji Qovşağına, oradan isə enerjisistemə ötürülməsi və eyni miqdarda enerjinin Səngəçal terminalına verilməsi nəzərdə tutulur.

Yeni tikilən "Cəbrayıl" yarımstansiyasında işlər yekunlaşıb və "Şəfəq" Günəş-Elektrik Stansiyası tikilərək istismara verildikdən sonra istehsal olunan "yaşıl enerji"nin ötürülməsinə başlanılacaq.

***Bəhmən MİRZƏYEV,***
***"Azərbaycan"***

### İlə yekun vurulur

## Başa çatan təqvim ilidir

### Təsərrüfat işləri isə davam edir

**İlin 11 ayı arxada qalmışdır. Bu müddət ərzində qazanılan uğurlar onu deməyə əsas verir ki, ağstafalılar cari ili də uğurla yekunlaşdırmağı bacaracaqlar. 9 ayda rayon üzrə ümumi məhsul buraxılışının dəyəri 191,7 milyon, o cümlədən kənd təsərrüfatı məhsullarının dəyəri 106,7 milyon, sənaye məhsullarının dəyəri 16,5 milyon, pərakəndə əmtəə dövriyyəsinin dəyəri 182,3 milyon manat olmuşdur. Rayon üzrə orta aylıq nominal əməkhaqqı 8,2 faiz artaraq 631,3 manata çatmışdır.**



1297 nəfər işaxtaran kimi Qazax-Tovuz Regional Məşğulluq Filialının Ağstafa rayonu üzrə Xidmət Şöbəsində qeydiyyata alınmış və həyata keçirilmiş tədbirlər nəticəsində onlardan 546 nəfər işlə təmin olunmuşdur. Hazırda Ağstafa rayonu üzrə 152 vakant iş yerləri mövcuddur.

Məlum olduğu kimi, rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Hesabat dövründə rayon üzrə istehsal olunan kənd təsərrüfatı məhsullarının dəyəri, qeyd etdiyimiz kimi, 106,7 milyon manat olmuşdur. İstehsalın artmasının əsas səbəbi dövlət tərəfindən fermerlərə verilən dəstəkdir. Hazırda rayonda 2026-cı ilin məhsulu üçün müxtəlif növ kənd təsərrüfatı bitkilərinin əkini aparılır. Artıq 6917,5 hektarda şum qaldırılmış və taxıl səpilmişdir.

Söz yox ki, əldə olunmuş uğurlarda suvarmanın düzgün təşkilinin payı az deyil. Ağstafaçay dəryaçasında hazırda 49,3 milyon kubmetr suvarma suyu mövcuddur. Ağstafaçay Hidroqovşağı İstismarı İdarəsi tərəfindən ötən dövr ərzində 19 hidrotexniki qurğu, 13 hidropost və 13 kilometr beton kanallar cari təmir edilmiş, eləcə də kanallar lildən və kol-kosdan təmizlənmişdir. Bundan başqa, Ağstafa Su Meliorasiya Sistemləri İstismarı İdarəsi tərəfindən 106 subartezian quyusunda, 29 hidrotexniki qurğuda, 5 hidrometrik postda və 6,2 kilometr beton kanalda cari təmir işləri görülmüşdür.

Qazanılan iqtisadi uğurlar rayonda aparılan abadlıq-quruculuq işlərinə də müsbət təsir göstərmişdir. Ağstafa şəhərinin abadlaşdırılması, o sıradan küçə və meydanların yenidən qurulması, çoxmənzilli yaşayış bunalarının təmir olunması rayon mərkəzinin simasını xeyli dəyişmişdir. Binaların həyətində uşaqların əyləncələri və istirahətləri üçün abad məhəllələrin yaradılması isə nümunəvi ənənə halını almışdır.

Əhalinin məmnunluğunu təmin edən həm də mavi yanacaqla təchizatda problemlərin aradan qaldırılmasıdır. Şəmkir Regional Qaz İstismar İdarəsinin Ağstafa Xidmət Sahəsi abonetlərin qaz təchizatının yaxşılaşdırılması üçün daxili imkanlar hesabına rayon mərkəzinin bir sıra küçələrində və bəzi kəndlərdə köhnə boruları dəyişmiş, şəhərdə aparılan abadlıq işləri ilə əlaqədar 7400 poqonometr müxtəlif diametrli qaz xətlərini boyamışdır.

Yeri gəlmişkən, qeyd edək ki, Ağstafada bütün məsələlər, o cümlədən təbii qaz təchizatı ilə bağlı Qarabağ müharibəsi qazi və veteranlarının müraciətləri heç zaman cavabsız qalmır. Təkcə ilin əvvəlindən belə müraciətlər əsasında bir çox ünvanda müxtəlif diametrli 72 poqonnometr qaz xəttinin yeri dəyişdirilmiş, 2 şəhid ailəsinin fərdi yaşayış evi qazla təmin edilmişdir. Xətai kəndində 3, Yenigün kəndində 2 qaztənzimləyici qurğu, Dağ Kəsəmən kəndində 2 qaz kranı yenilənmiş, Poylu kəndində torpaqla təmasda olan qaz xətti dayaqlar üzərinə qaldırılmışdır.

Ümumtəhsil məktəblərinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də yeniliklər olmuşdur. Məsələn, Heydər Əliyev Fondu tərəfindən Vurğun qəsəbəsində 420 və Zəlimxan kəndində 220 şagirdlik tam orta məktəblərin tikintisi başa çatmışdır. Köçvəlili kəndində isə 132 şagirdlik modul tipli ibtidai məktəb binası istifadəyə verilmişdir.

Səhiyyə sahəsinə gəldikdə, "Ağstafa Rayon Mərkəzi Xəstəxanası" Publik Hüquqi Şəxs hesabat dövrü ərzində 348 xəstəni dispanser qeydiyyatına götürmüşdür. Hazırda 5167 nəfər dispanser qeydiyyatında saxlanılır. Onlar mütəmadi olaraq pulsuz dərmanlarla təmin edilirlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Laçın, Xocalı, Ağdərə və Xocavənddə özünüməşğulluq proqramı üzrə yeni kiçik ailə biznesləri yaradılıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunmuş ərazilərimizdə özünüməşğulluq proqramının icrasını davam etdirir.**

Bu dəfə Laçın, Xocalı, Ağdərə və Xocavənd rayonlarında daha bir qrup şəxsə proqram çərçivəsində "Çatdırılma xidməti", "Kiçik dərzi sexi", "Qadın gözəllik salonu", "Kombi ustası və sanitar qovşağın quraşdırılması xidməti", "Arıçılıq təsərrüfatı", "Keçiçilik təsərrüfatı", "Maldarlıq təsərrüfatı" və "Qoyunçuluq təsərrüfatı" zərfləri üzrə aktivlər təqdim edilib.



Verilmiş aktivlər hesabına onlar istehsal, xidmət və kənd təsərrüfatı istiqamətləri üzrə kiçik ailə bizneslərini yaradıblar.

Proqram iştirakçıları onlara göstərilən dəstəyə görə Prezident İlham Əliyevə təşəkkürlərini ifadə ediblər. Onlar özünüməşğulluq proqramı çərçivəsində qurduqları təsərrüfatlarını daim genişləndirməyə səy göstərəcəklərini bildiriblər.

İndiyə qədər Böyük Qayıdış proqramı çərçivəsində doğma yurdlarına köçürülmüş sakinlərdən artıq 633 şəxs özünüməşğulluq proqramının dəstəyi ilə öz kiçik ailə təsərrüfatlarını qurub.

***L.QULİYEV,***
***"Azərbaycan"***

## Gəncədə "DəyərliSən" adlı inklüziv uşaq festivalı keçirilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin psixonevroloji sosial xidmət müəssisələrinin və 4 saylı Uşaq evinin sakinlərinin iştirakı ilə "DəyərliSən" adlı inklüziv uşaq festivalı keçirilib.**



Deputat Pərvin Kərimzadə, Gəncə Şəhər İcra Hakimiyyəti başçısı aparatının, şəhərin mədəni irsinin qorunması şöbəsi əməkdaşlarının, Sosial Xidmətlər Agentliyinin, Türkiyənin Gəncədəki baş konsulluğunun, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman) Qərb Regional Mərkəzinin, Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin və digər dövlət qurumlarının nümayəndələrinin iştirak etdikləri festivalda qeyd edilib ki, Sosial Xidmətlər Agentliyinin respublika üzrə 13 filialı və 21 sosial xidmət müəssisəsi var və qurumun fəaliyyəti stasionar, yarımstasionar və səyyar xidmətləri əhatə edir. Hazırda həssas əhali qruplarına aid 2272 şəxsə agentliyin müəssisələrində daimi dövlət himayəsində sosial və reabilitasiya yönümlü xidmətlər göstərilir.

Gəncə Şəhər İcra Hakimiyyətinin şöbə müdiri Yadigar Bədəlov bu kimi tədbirlərin həssas əhali qruplarından olan şəxslərin cəmiyyətə inteqrasiyasında mühüm rol oynadığını bildirib: "Regionlarda belə festivalların keçirilməsi inklüzivlik mədəniyyətinin genişlənməsinə və bu sahədə ictimai fəallığın artmasına töhfə verir. "DəyərliSən" adlı inklüziv uşaq festivalının məqsədi də xüsusi qayğıya ehtiyacı olan şəxslərin cəmiyyətə inklüziyasını təmin etmək, ictimai həyatda fəal iştirakına şərait yaratmaq, eləcə də onların yaradıcı potensiallarını üzə çıxarmaqdan ibarətdir".

Sonra festival iştirakçıları sosial xidmətlər müəssisələrinin sakinlərinin əl işlərindən ibarət sərgi ilə tanış olub, uşaqların ifasında müxtəlif ədəbi-bədii kompozisiyalara baxıblar.

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***

## Goranboyda çoxmənzilli binanın çökməsindən ziyan çəkənlərin problemləri həll olunur

**Xəbər verildiyi kimi, noyabrın 23-də Goranboy şəhəri, Cəfər Cabbarlı küçəsi, 4 ünvanında yerləşən, 1988-ci ildə inşa edilmiş 5 mərtəbəli, 6 girişli yaşayış binasının beşinci girişinin birinci mərtəbəsində yerləşən iki mənzilin döşəməsinin çökməsi nəticəsində 3 nəfər xəsarət alaraq rayon Mərkəzi Xəstəxanasına yerləşdirilmişdi.**



Hadisə baş verən andan rayon icra hakimiyyəti, Fövqəladə Hallar Nazirliyinin Aran Regional bölməsi, rayon polis şöbəsi və digər aidiyyəti qurumların əməkdaşları hadisə yerinə cəlb olunmuşdur. Sakinlər isə təhlükəsizlik qaydalarına riayət olunmaqla hadisə yerindən təxliyə edilmişlər. Hazırda aidiyyəti qurumlar faktla bağlı araşdırma aparırlar.

Qeyd edək ki, hadisədən sonra bina sakinləri kirayə evlərə yerləşdirilmiş, onların kirayə xərclərinin ödənilməsi dövlət tərəfindən təmin edilmişdir.

Bu günlər Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Azərdövlətlayihə Gəncə Regional şöbəsinin müdiri Rüstəm Mehdiyev və nazirliyin Aran Regional Baş Dövlət Tikinti Müfəttişliyinin rəisi Orxan Şıxıyev bina sakinləri ilə görüşmüş, yaranmış problemin aradan qaldırılması istiqamətində dövlət qurumları ilə əlaqəli işlər aparıldığını və bu məsələnin birbaşa dövlət başçısının diqqətində və nəzarətində olduğunu bildirmişlər.

*"Azərbaycan"*

# Ruben Vardanyanın məhkəməsində zərərçəkmiş şəxslərin ifadələri dinlənilib

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi dekabrın 2-də davam etdirilib.



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Sonra zərərçəkmiş şəxslərin ifadələri dinlənilib.

Zərərçəkmiş Elşən Babayev dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıraraq bildirib ki, Ağdərə rayonu ərazisində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılan tankəleyhinə mərminin yaxınlıqlarında partlaması nəticəsində Tural Əmirov və Elçin Salmanov həlak olub. O və Yusif Həsənov isə yaralanıblar.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zərərçəkmiş Elvin Məmmədov qeyd edib ki, Xocalı rayonunun Sərdarkənd kəndi ərazisində düşmən tərəfindən atılan minaatan mərmisinin yaxınlığına düşüb partlaması nəticəsində o və Kamran Həsənov yaralanıb. Əlavə edib ki, həmin vaxt düşmən minaatan, snayper və digər silahlarla atəş açırdı.

Zərərçəkmiş Xalid Şükürlü ifadəsində bildirib ki, Xocalı rayonunun Malıbəyli kəndi ərazisində düşmənin atdığı minaatan mərmisinin partlaması nəticəsində xəsarət alıb.



Həmin hadisə zamanı Sadiq Məmmədov və Nicat Əhmədzadə də yaralanıblar.

Dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran zərərçəkmiş Taleh Hümbətzadə qeyd edib ki, Xocavənd rayonunun Yenikənd kəndi ərazisində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin atdığı artilleriya mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində yaralanıb. Hadisə zamanı Cavid Şavqatlı da xəsarət alıb.

Zərərçəkmiş Fazil Əmirli baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıraraq bildirib ki, Xocalı rayonunun Malıbəyli kəndi ərazisində düşmənin açdığı atəşlər nəticəsində o, Seyfəddin Cabbarov və Kamran Nəcəfov yaralanıblar.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran İlqar Qasımov deyib ki, Xocalı rayonu istiqamətində düşmən tərəfindən basdırılmış minanın partlaması nəticəsində o və Hüseyn Hüseynov xəsarət alıblar.

Məhkəmə prosesi sənədlərin və cinayət işi materiallarında olan digər sübutların tədqiqi ilə davam etdirilib.

Məhkəmənin növbəti iclası dekabrın 5-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

# Asiyada daşqınlar və torpaq sürüşmələri 1200-dən çox insanın ölümünə səbəb olub

İndoneziya, Şri-Lanka və Tailanda baş verən daşqınlar və torpaq sürüşmələri nəticəsində ölənlərin sayı 1200-ü keçib. 800-dən çox insan itkin düşüb. Xilasetmə xidmətləri sağ qalanların və cəsədlərin axtarışını davam etdirir.



Hakimiyyət orqanlarının son məlumatına görə, təbii fəlakət nəticəsində İndoneziyada 659, Şri-Lankada 410 və Tailandda 181 nəfər həlak olub. Ən çox zərərçəkən İndoneziyada xilasedicilər Sumatra adasındakı kəndlərə çatmaqda ciddi çətinliklərlə üzləşirlər. Aramsız yağışlar və daşqınlar nəticəsində yollar yuyulub və bərbad vəziyyətə düşüb, körpülər dağılıb. Milli Fəlakətlərin İdarə Edilməsi üzrə Milli Agentliyi 475 nəfərin itkin düşdüyünü bildirib. Helikopter və qayıqların istifadəsinə baxmayaraq, pisləşən hava şəraiti və zədələnmiş infrastruktur əməliyyatlara əhəmiyyətli dərəcədə mane olur.

Şri-Lankada isə hərbi xilasetmə qrupları Ditva siklonunun yaratdığı daşqınlar və torpaq sürüşmələrindən sonra itkin düşmüş 352 nəfəri axtarmağa davam edir. Bu barədə Fəlakətlərin İdarə Edilməsi Mərkəzi bildirib. Məlumata görə, bir neçə əraziyə giriş çətin olaraq qalır: yollar torpaq sürüşmələri nəticəsində bağlıdır və bəzi yerlərdə körpülər uçub.

Kandi şəhərində sakinlər su çatışmazlığı ilə üzləşib və təbii bulaqlardan yığılan sudan istifadə etmək məcburiyyətində qalıblar. Hakimiyyət orqanları xəbərdarlıq edir ki, yaxın günlərdə daha çox yağış yağacağı gözlənilir və bu səbəbdən vəziyyət daha da pisləşə bilər. Tailandın cənubunda da 1,5 milyondan çox ev təsərrüfatına və 3,9 milyon insana təsir edən böyük daşqından sonra küçələri və binaları təmizləmək üçün işlər başlayıb.Yerli hakimiyyət orqanları su və elektrik təchizatını bərpa etməyə çalışır.

Tailand Daxili İşlər Nazirliyi təbii fəlakətdən zərərçəkənlərə isti yemək hazırlamaq üçün ictimai mətbəxlərin yaradıldığını elan edib. Hökumət sözçüsü ümumilikdə 239 milyon bat (təxminən 6,44 milyon avro) məbləğində ilk kompensasiya tranşının 26 min nəfərə paylanacağını açıqlayıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## 3 Dekabr Beynəlxalq Əlillər Günüdür

# Taxtaya ruh verir

İnsanın ən çətin sınaqları çox vaxt gözlənilmədən gəlir. Bəzən bir saniyənin içində hər şey alt-üst olur, taleyimizdə yeni və ağır səhifələr açılır. Kimi bu ağırlığın altında qalır, əzilir, kimi isə onların içindən daha da güclənərək çıxır. Fiziki məhdudiyyətli Asif Qasımovun həyat yolu bu gücün ən parlaq nümunələrindən biridir. Bu, onu yalnız insan kimi deyil, bir həyat dərsi kimi tanıdan hekayədir. Burada fiziki məhdudiyyətdən yox, yenidən doğuluşdan, mübarizədən və insanın sınsa belə əyilməyən iradəsindən danışılır.

Tanrının verdiyi istedad ən mümkünsüz görünən vəziyyətdə belə özünü ifadə etmək yollarını tapmağa qadirdir. Bu hekayədə olduğu kimi...






1979-cu il iyunun 26-da Gürcüstanın Dmanisi rayonunun Yırğançay kəndində dünyaya gələn Asif Qasımovun uşaqlığı çox çətin keçib. O, cəmi üç yaşında ikən əmisi ilə birlikdə Moskvaya gedib. İlk məktəb illərini orada keçirib. Sonralar yenidən Gürcüstana qayıdıb, bir neçə ay kəndlərindəki məktəbə gedib, ardınca isə ailəsi onu təhsilini davam etdirmək üçün Ermənistana göndərib. Həmin dövrdə Ermənistanda azərbaycanlılara qarşı təzyiqlər edilir, onların deportasiyası üçün cinayətlər törədilirdi. Asifin həyatı bu təlatümlərin içərisində keçir.

Təxminən iki ilə yaxın Ermənistanda oxuyan Asifin həyatını 1988-ci ildə baş verən Spitak zəlzələsi dəyişir. O, fəlakətdən bir neçə saat sonra yaxınları tərəfindən məktəbdən çıxarılaraq evə gətirilir. Həmin zaman zəlzələ oxuduğu məktəbi yerlə yeksan edir və onun sinif yoldaşlarından cəmi bir neçə uşaq sağ qalır. Üzərindən illər keçsə belə, Asif hələ də o faciəni səsi titrəyərək xatırlayır: "Atam və dostumun atası gəlib bizi, əmim uşaqlarını məktəbdən çıxarmasaydı, bəlkə də bu gün həyatda deyildik".

Asifin uşaqlığı eyni təlatümlə Gürcüstanın müxtəlif bölgələrində keçir. Müharibə, etnik qarşıdurmalar, qaçqınlıq… Beləcə, o, 8-9 məktəb dəyişir. Bu, təkcə məktəb dəyişmək deyildi. Bu, əslində, həyatının möhkəmlənməsinə səbəb olan hazırlıq yolu idi.

1991-1992-ci illərdə atası Rzaxan Azərbaycana gəlmək məcburiyyətində qalır. O, Goranboy rayonuna, qardaşının məskunlaşdığı Tapqaraqoyunlu kəndinə gəlir. Lakin müharibə burada da onun yaxasını buraxmır, qardaşının evinə top mərmisi düşür. Bu dəfə Ağcakənd qəsəbəsinə köçür. Müəllim atası kənd məktəbində işə düzəlir, evlə təmin olunur. 1995-ci ildə orta məktəbi bitirən Asif hərbi xidmətə gedir və yenidən Gürcüstana qayıdır. Bir müddət orada işləyir, sonra yenə Azərbaycana dönür. Həyat elə bil onu sürətli yaşamağa məcbur edirdi. Hər şey dəyişirdi, sabit qalan tək şey səbri və tükənməz enerjisi idi.

2003-cü ildə onun həyatında ikinci dəfə "həyatla ölüm" qarşılaşması olur. Böyük avtomobil qəzası keçirir, iki dostu dünyasını dəyişir. Asifin isə sağ əli, sağ ayağı, qabırğaları sınır. Bədənindəki ağrı keçsə də, qəlbindəki dost itkisi illərlə davam edən bir iz qoyur.

Amma o yenə geri çəkilmir. Daş karxanalarında fəhlə kimi çalışır, usta, baş usta, sonra müdir köməkçisi, daha sonra isə müdir olur. Amma taleyin onu sınayacağı böyük imtahan hələ qarşıda idi...

Bir gün Şahqaya qəsəbəsindəki işıq dirəyindəki elektrik naqillərini yoxlamağa çıxarkən metal qırılır. Asif deyir: "Yəqin qismət belə imiş. Təxminən 75-80 metr hündürlükdən yıxıldım, dərəyə yuvarlandım. Gözlərimi açanda artıq xəstəxanada idim. Belim sınmışdı, uzun müddət komada qalmışdım. Əməliyyatım üçün Ukraynaya aparıldım. Oradakı həkimlər "əməliyyat çox təhlükəlidir, ola bilər ki, sağ çıxmasın", - deyib tərəddüd edirdilər. Ancaq əməliyyatım uğurlu keçdi, möcüzəvi şəkildə sağ qaldım.




18 ay xəstəxanada qaldım. Xeyli fiziki və psixoloji terapiyalardan keçəndən sonra nəhayət, Vətənimə, ailəmə qovuşdum".

Asifin əməliyyatdan sonrakı həyatı da asan olmayıb. "Əlil arabasına möhtac olmaq fikri əsəblərimi tarıma çəkir, məni dərin depressiyaya salırdı. Sanki okeanın dərinliklərində havasız idim, boğulurdum. Qarşımda iki yol vardı. Ya qaranlığa qərq olmaq, ya da təkan verib aydınlığa çıxmaq, yenidən yaşamağa başlamaq. İkinci yolu seçdim... Çünki övladlarım vardı. Onlar məni həyata qaytardılar. Oğlum, qızım mənə elə sevgiylə, elə şəfqətlə baxırdılar ki, onlara görə yaşamaq, mübarizə aparmaq lazım idi", - deyir həmsöhbətimiz.

O, qısa müddət ərzində özündə cəsarət tapıb maşın sürməyi öyrənir, idmanla məşğul olmağa başlayır. Sonrakı həyatı radioda eşitdiyi bir xəbərlə dəyişir: "İndiki kimi xatirimdədir. 2013-cü il idi. Qar yağırdı. İdmandan çıxıb evə gedirdim. Radioda eşitdim ki, Prezident İlham Əliyev Yeni Ramana qəsəbəsində yerləşən Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzinin açılışında iştirak edib, artıq mərkəzə qəbullar da başlayıb. Dərhal yolumu dəyişdirib ora yollandım. Hətta mərkəzdəki işçilər təəccübləndilər ki, belə qarda necə gəlmişəm. Bir həftə sonra artıq ikinci həyatım başlamışdı. Həm taxta üzərində oyma, həm rəssamlıq öyrənirdim, eyni zamanda idmanla məşğul olurdum. Paralimpiya komitəsinə müraciət etdim. Bədən quruluşum avarçəkməyə daha uyğun olduğu üçün bu idman növü tövsiyə edildi. Üç il avarçəkmə ilə məşğul oldum. Nailiyyətlərim oldu, yarışlara qatıldım, xarici səfərlərə getdim. Yarışların birində belimdəki dəmirin fiksatorları qırıldı. Həkimlər bu idman növündən uzaqlaşmağımı məsləhət gördülər. Bundan sonra yalnız əl işləri ilə məşğul olmağa başladım".

2021-ci ildə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin açılışı bir çox fiziki məhdudiyyətli şəxs kimi, Asifin də həyatından təsirsiz ötüşməyib. Mərkəzdə təlimçi olmaq, ağac üzərində bədii oyma sənətinin sirlərini benefisiarlara öyrətmək təklifini qəbul edib. Həmsöhbətimiz deyir ki, bu təklifi qəbul etmək həyatının ən düzgün addımlarından biridir: "Sənətimlə məşğul olmaq, duyğularımı, düşüncələrimi ağaca oymaq mənə daxili dinclik verir. Təkcə özümün deyil, tələbələrimin də art terapiya ilə məşğul olub, məhdudiyyətlərini unudub mənəvi rahatlıq tapmalarını istəyirəm. İndiyədək 50-dən çox tələbəm olub. Hər biri mənim üçün əzizdir, dəyərlidir. Əgər onlara bu sənətin sirlərini, peşəyə yiyənlənməklə birlikdə həm də daxili dünyalarına sakitlik, təmkinlik, özünü qəbuletməni öyrədə bilmişəmsə, deməli, bu dünyada missiyamı yerinə yetirmişəm".

Asif Qasımov benefisiarları ilə birlikdə müxtəlif tədbirlərdə çıxış edir, əl işlərini nümayiş etdirir. Ötən il sənətkarın müəllim yoldaşı İslam Həmidov və benefisiarlarla birlikdə təxminən bir aya yaratdığı "Yağış altında qadın" heykəli ölkəmizdə keçirilən COP29-da nümayiş olunub. Erroziyaya uğramış, yanmış məftillərdən hazırlanmış əl işi sanki Asifin elektrik işlədiyi, qəza keçirdiyi dövrə göndərdiyi, "yıxılsam da, yansam da, küllərimdən doğuldum" ismarışı idi...

"Əlillik son deyil" mövzulu sosial layihələri, qazi və fiziki məhdudiyyətli şəxslərə dəstək, motivasiya vermək məqsədilə çəkilən videoroliklər onun adını daha çox insana tanıtdı. O, təlimçi olmaqdan çox, həyat dərsi olan bir nümunəyə çevrildi.

Asif Qasımovun hekayəsi cəmiyyətimizdə əlilliklə bağlı yanlış stereotiplərə ən böyük cavabdır. O, əlilliyin son olmadığını, əksinə, bəzən yeni bir başlanğıc ola biləcəyini öz həyatı ilə sübut edir və deyir: "Əlillik bitməmiş hekayə, həyata davam etmək cəsarətidir".

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi

**"Xüsusi qayğıya ehtiyacı olan ailələrin uşaqları üçün Yeni il şənliyinin təşkili (Bakı, Abşeron, Sumqayıt və respublikanın digər şəhər və rayonları üzrə)" adlı *müsabiqə keçirir***

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 15 dekabr 2025-ci il saat 17:00-dan gec olmayaraq agentliyin təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 16 dekabr 2025-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5036)**

***Müsabiqə komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Eldar Əzizov və Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının kollektivi Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanova bacısı

**SÜDABƏ HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının sektor müdiri Qurban Sadıqova anası

**NABAT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Biləsuvardan Əzizağa Hətəmov və Niftulla Əzizov Ramiz Zeynalova bacısı

**XALİDƏ NİYAZ QIZI BABAYEVANIN**

Saatlı şəhərində vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə akademik Vasim Məmmədəliyevin həyat yoldaşı

**QUMRU XANIMIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Mirhaşim Calalov Nazirlər Kabineti Aparatının sektor müdiri Qurban Sadıqova anası

**NABAT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mirələm və Mirhaşim Calalovlar Məmmədəliyevlər ailəsinə

**QUMRU XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR

Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4131
Sifariş 2454

Qiyməti 60 qəpik